RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 74 (8953) ÇƏRŞƏNBƏ AXŞAMI, 12 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycanda din-dövlət münasibətləri yüksək səviyyədədir



Prezident İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib

→ 2



# Əsl RƏHBƏR, qüdrətli SƏRKƏRDƏ

***Dünyada elə şəxsiyyətlər var ki, onlar haqqında yazmaq, əslində, mənsub olduqları xalqın, rəhbərlik etdikləri dövlətin müəyyən dövründən, uğur, qələbə və sınaqlarından bəhs etmək deməkdir.***

***Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun tarixində də belə şəxsiyyətlər var!***

***Onlardan biri də müstəqil Azərbaycanın Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!***

→ 3

## Prezident mühüm fərman imzaladı



**"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası" təsdiq olundu.**

→ 2

## Müzəffər Komandanın quruculuq missiyası

Qarabağ və Şərqi Zəngəzurda yeni iqtisadiyyat bərqərar olacaq

→ 5

## Yeni inkişaf, yeni intibah mərhələsi

→ 6

## Sosial rifahın təminatçısı

Prezidentin son 4 ildə reallaşdırdığı möhtəşəm sosial layihələr Azərbaycanın inkişafına böyük töhfə verib

→ 8

# Şəffaf və ədalətli cəmiyyət naminə

### Ölkəmizdə korrupsiyaya qarşı effektiv mübarizə aparılır

Respublikamızda bərqərar olmuş demokratik dəyərlər, cəmiyyətdə qanunçuluğun, şəffaflığın, ədalət prinsiplərinin təmin olunması sistemli şəkildə həyata keçirilən islahatların effektivliyini artırır, onların daha səmərəli olmasına xidmət edir.

Nəticə etibarilə bütün bunlar respublikamızın inkişaf strategiyasında qarşıya qoyulan bütün vəzifələrin uğurla yerinə yetirilməsi ilə müşayiət olunur. Bu yolda cəmiyyət həyatını narahat edən problemlərin, o cümlədən korrupsiya ilə səmərəli mübarizə də mühüm əhəmiyyət kəsb edib.

#### Güclü iradənin təcəssümü

Korrupsiya bütün dünyanı narahat edən problemdir. Korrupsiyanın mövcudluğu ilk növbədə ümumbəşəri və milli dəyərləri sarsıdır, hüquqi dövlət quruculuğuna mane olur, iqtisadi və sosial inkişafı buxovlayır, cəmiyyətin ehtiyatlarından səmərəsiz istifadə edilməsinə şərait yaradır, aztəminatlı insanlara ziyan vurur. Korrupsiya demokratik proseslərə və vətəndaş cəmiyyətinə, dövlət orqanlarının səmərəli və qanunauyğun fəaliyyətinə mane olur. Məhz bu baxımdan korrupsiyaya qarşı mübarizə sahəsində davamlı hüquqi tədbirlərin həyata keçirilməsi labüddür.

Bu gün demokatiya yolunu seçmiş hər bir sivill ölkə cəmiyyətin yüksəlişinə süni əngəllər yaradan probemlərin aradan qaldırılmasına çalışır, o cümlədən korrupsiya ilə mübarizə aparır. Amma korrupsiyaya qarşı mübarizədən yalnız o halda danışmaq olar ki, dövlət iradəsini ortaya qoysun və korrupsiyanın qarşısını almaq üçün cəmiyyətin bütün səviyyələrində onunla davamlı mübarizə aparsın. Əgər belə olmazsa, heç bir dövlət öz cəmiyyətini korrupsiyadan təmizlədiyini iddia edə bilməz.

→ 9

# Brüssel-Bakı-İrəvan əməkdaşlıq formatı sülhə doğru gedir

### Ermənistanın Azərbaycanın irəli sürdüyü beş baza prinsiplərini qəbul etməkdən başqa yolu yoxdur

Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanma prosesi yaxın zamanlarda reallaşa bilər. Məğlub ölkə olan Ermənistanın baş naziri Prezident İlham Əliyevin irəli sürdüyü 5 təkliflə razılaşdığını aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasnın prezidenti Şarlı Mişelin iştirakı ilə keçirilən görüşdə səsləndirib.

Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılıq da əldə olunub. Hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyasının aparılmasının zəruri olacağı vurğulanıb. Bu məqsədlə 2021-ci il 26 noyabr tarixli Soçi Bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olunub.

Brüsseldə keçirilən görüşləri dəyərləndirən siyasətçilər hesab edirlər ki, Avropa İttifaqı regionda sülhün bərqərar olunmasında maraqlıdır. Çünki Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır. Bölgədə sülhün əldə edilməsi həm də Qərbin marağındadır.

→ 9



# Pandemiya sona yaxınlaşır

### Son mutasiyalarda virusun yoluxuculuğu zəifləyib



→ 11

## "Star" inamla addımlayır



→ 10

## Azərbaycan qondarma "prezident seçkiləri"ni tanımır

→ 2

## Fransa prezidenti ikinci turda seçiləcək

→ 11

## Ermənistan iqtisadiyyatı sürətlə çökür

→ 11

## Azərbaycandan keçən yeni marşrut Fars körfəzi ilə Qara dənizi birləşdirəcək



→ 9

# Azərbaycanda din-dövlət münasibətləri yüksək səviyyədədir

## Prezident İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib.**



Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu din-dövlət münasibətləri yüksək səviyyədədir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük işlər görülüb və görülür. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən bu gün yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev yeni binada yaradılan şəraitlə tanış oldu.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlət başçısına məlumat verərək bildirdi ki, İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. İnstitutda bakalavriat səviyyəsi üzrə dinşünaslıq və islamşünaslıq ixtisasları, magistratura səviyyəsi üzrə (dinşünaslıq ixtisası üzrə) dinin sosiologiyası, dinin psixologiyası, dinlərin tarixi və islamşünaslıq ixtisaslaşmaları, doktorantura səviyyəsi üzrə isə (fəlsəfə doktoru üzrə) dinşünaslıq, dinin tarixi və fəlsəfəsi ixtisasları tədris olunur.

Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

Qeyd edək ki, Bakının Yasamal rayonunda inşa olunan beşmərtəbəli binada inzibati və sinif otaqları, kitabxana, kişilər və qadınlar üçün ayrı-ayrılıqda namaz otaqları, həmçinin dəstəmaz və mətbəə otaqları yaradılıb.

Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər.







# Baş nazir Əli Əsədov Finlandiya və Litvanın statistika qurumlarının rəhbərləri ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 11-də Finlandiya Respublikası Statistika İdarəsinin baş direktoru Markus Sovala və Litva Respublikası Statistika Departamentinin baş direktoru Yurate Petrauskiene ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanda statistika sahəsində islahatların aparıldığı, milli statistika sisteminin ölkədə və beynəlxalq aləmdə cərəyan edən sosial-iqtisadi proseslərə və müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirildiyi qeyd edilib.

Bakıda keçirilən "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" tvininq layihəsinin yekunlarına həsr olunmuş konfransın əhəmiyyəti vurğulanıb.

Layihə çərçivəsində ölkəmizdə biznes statistikası sahəsinin müxtəlif istiqamətlərinin təkmilləşdirilməsi, o cümlədən kiçik və orta biznes üzrə statistik məlumatlarla işləyən yerli mütəxəssislərin potensialının artırılması ilə bağlı müzakirələr aparılıb.

# Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında telefon danışığı olub

Aprelin 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər iki dövlətin liderləri səviyyəsində əldə olunmuş razılaşmaların davamı olaraq gələcək sülh sazişinin hazırlanması üzrə iş, Birgə Sərhəd Komissiyasının təşkili, habelə humanitar məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# *Azərbaycan XİN:* "Ermənistan tərəfinin dağıdıcı mövqeyini qətiyyətlə qınayırıq"

**"Ermənistan Xarici İşlər Nazirliyinin (XİN) növbəti əsassız, hüquqa zidd, düşmənçilik dolu bəyanatını rədd edir, iki dövlət arasında normallaşma addımlarının atılması qərarları verildiyi bir vaxtda Ermənistan tərəfinin dağıdıcı mövqeyini qətiyyətlə qınayırıq".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan XİN-in 10 aprel tarixli bəyanatına dair şərhində bildirilib.

"Bir milyona yaxın azərbaycanlını etnik təmizləməyə məruz qoyaraq, bu insanların 30 ilə yaxın fundamental hüquqlarını kobudcasına pozan, hərbi təcavüz zamanı çoxsaylı hərbi cinayətlər törədən, o cümlədən 613 mülki şəxsi Xocalıda bir gecədə vəhşicəsinə qətlə yetirən, hələ 1990-cı illərin əvvəllərində itkin düşən və bir hissəsinin kütləvi məzarlıqları indi tapılan 4000-ə yaxın azərbaycanlının taleyi ilə bağlı cavabdehlik daşıyan və törətdiyi çoxsaylı cinayətlərə görə bu günədək məsuliyyətdən yayınan Ermənistan tərəfi hansı əsasla kütləvi qətldən, etnik təmizləmədən danışır?!

Ermənistan XİN-in Azərbaycan ərazisində separatçılığı təşviq edən, beynəlxalq hüquqa zidd olaraq digər dövlətin daxili işlərinə müdaxilə olan, bölgədə sülh quruculuğu səylərinə xələl gətirən bu bəyanatı qarşı tərəfin əsl niyyətinin normallaşma və sülh şəraitində birgə yaşayış olmadığını nümayiş etdirir. Ermənistanın seçimindən asılı olmayaraq, Azərbaycan öhdəliklərinə və beynəlxalq hüquqa uyğun olaraq beynəlxalq sərhədləri çərçivəsində inkişaf və tərəqqiyə doğru addımlarını davam etdirəcəkdir", - deyə Azərbaycan XİN-in şərhində qeyd olunub.

# "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 2.16-cı bəndinə uyğun olaraq, mənzillərin hərrac vasitəsilə satışı qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. "Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 dekabr tarixli 1487 nömrəli Fərmanının 1-ci hissəsinin və 3.1-ci bəndinin icrası ilə bağlı görülmüş işlər barədə illik hesabatı hər il yanvarın 15-dən gec olmayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2022-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208; Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 407-VIQD nömrəli, 20 dekabr tarixli 433-VIQD nömrəli, 27 dekabr tarixli 449-VIQD və 451-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 279.0.1-1-ci maddə əlavə edilsin:

"279.0.1-1. qaz qurğuları və qaz xətlərinə, tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə müayinə və texniki xidmət qaydalarının pozulmasına;";

1.2. 542-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.** Bu Qanun 2022-ci il mayın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 fevral 2022-ci il*

# Azərbaycan qondarma "prezident seçkiləri"ni tanımır

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və 2022-ci il 10 aprel tarixində Gürcüstanın Tsxinvali bölgəsində keçirilmiş qondarma "prezident seçkiləri"ni, həmçinin onların nəticələrini tanımır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatında bildirilir.

Məlumatda qeyd olunur ki, Azərbaycanın Xarici İşlər Nazirliyi Tsxinvali məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsinin vacib olduğunu hesab edir.

# Əsl RƏHBƏR, qüdrətli SƏRKƏRDƏ



**Dünyada elə şəxsiyyətlər var ki, onlar haqqında yazmaq, əslində, mənsub olduqları xalqın, rəhbərlik etdikləri dövlətin müəyyən dövründən, uğur, qələbə və sınaqlarından bəhs etmək deməkdir.**

**Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun tarixində də belə şəxsiyyətlər var!**

**Onlardan biri də müstəqil Azərbaycanın Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!**

Cənab İlham Əliyev on doqquz ildir ki, Azərbaycana rəhbərlik edir.

Dördüncü dəfə xalqın etimadı və etibarı ilə prezident seçilməsinin 4 ili tamam olur.

*Zaman baxımından o qədər də çox deyil!*

*Görülən işlərin miqyası və möhtəşəmliyi sarıdan isə misilsizdir!*

**İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının və dövlətinin qazandığı nailiyyətlər və qələbələr barədə danışsaq, cild-cild kitablara sığmaz!**

**Qısaca söhbət açsaq isə, yalnız görülən işləri xatırlada bilərik.**

Beləliklə, Azərbaycan Prezidenti, xalqın pənahı və sevimlisi cənab İlham Əliyev hansı nailiyyətlərə imza atıb.

❖ ❖ ❖

Bir maraqlı məqama diqqət çəkmək istəyirik:

**Cənab İlham Əliyev respublika əhəmiyyətli vəzifələrə təyin olunanda və ya seçiləndə belə daim xarizması, intellekti, yaradıcı fəaliyyəti, təşkilatçılıq məharəti və istedadı sayəsində gördüyü işlərin nəticələrini dünya miqyasına çıxarmağa, çoxlarının bəhrələnməsinə nail olub!**

*İlk dəfə biz İlham Əliyevi ARDNŞ-in (SOCAR-ın) birinci vitse-prezidenti vəzifəsində gördük.*

O ZAMAN:

- Ərazilərimizin 20 faizi düşmən işğalında idi...
- Sabitlik və əmin-amanlıq tam bərpa olunmamışdı, hələ iki dövlət çevrilişinə cəhd baş verəcəkdi...
- Dövlət büdcəsi yoxsul, qaçqınlar və məcburi köçkünlər ağır durumda qalmışdı...
- Yeni ordu qurmaq, onu silahlandırmaq, bazar iqtisadiyyatı prinsiplərini tam bərqərar etmək vacib vəzifə kimi qarşıda dururdu...
- AXC-Müsavat cütlüyünün uğursuz iqtidarı ölkədə xaos və anarxiya yaratmış, onların naşılığı və səriştəsizliyi, maddi maraqlarını üstün tutmaları neft danışıqlarını yarıda qoyaraq dalana dirəmişdi...

**Belə ağır məqamda Ulu Öndər Heydər Əliyev danışıqların bütün məsuliyyətini və yükünü cənab İlham Əliyevə həvalə etdi.**

*Beləliklə, gərgin və mürəkkəb keçən neft danışıqları prosesində Azərbaycan xalqının maraqlarını əks etdirən müqavilə layihəsi hazırlandı.*

Sonralar "Əsrin müqaviləsi" adlanan bu neft kontraktı hələ də qüvvədədir, Azərbaycana və Avropaya, həm də dünyaya böyük fayda gətirməkdə davam edir.

❖ ❖ ❖

**Cənab İlham Əliyevin Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi təkcə ölkəmizdə deyil, bütün dünyada idmanın inkişafına yeni təkan verdi.**

*Azərbaycanda yaranmış ümummilli böhran idmandan da yan keçməmişdi!*

*Sovet dövründə tikilmiş idman qurğuları və sarayları baxımsızlıq üzündən dağılmış, respublika stadionu, velotrek "tolkuçka"ya çevrilmişdi...*

*Daha ölkə daxilində idman yarışları keçirilmir, vəsaitsizlik üzündən beynəlxalq yarışlara idmançılar göndərilmirdi...*

*"İşsiz" qalan idmançılar və məşqçilər xarici ölkələrə gedərək özgə bayraqları altında çıxış edirdilər...*

Hər şeyə təzədən başlamaq lazım gəlirdi...

**İlham Əliyevin Azərbaycan idmanına rəhbərlik etdiyi müddətdə idmanımız dünya miqyasına çıxdı, ön sırada özünə yer tutdu, yüzlərlə gənc olimpiya, dünya, Avropa çempionu olaraq bayrağımızı yüksəltdi, himnimizi səsləndirdi.**

Ölkə daxilində qırxdan artıq olimpiya idman kompleksi tikildi, Azərbaycan I Avropa Oyunlarının və IV İslam Həmrəyliyi Oyunlarının təşkilatçısı oldu, beynəlxalq idman yarışlarının uğurla keçirildiyi məkana çevrildi.

❖ ❖ ❖

**Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinə rəhbərliyi cənab İlham Əliyevin beynəlxalq aləmdə qazandığı sonrakı uğurlarının ilki oldu.**

*İlham Əliyev beynəlxalq təşkilatlarda Azərbaycanın maraqlarını necə qorumağın, haqq işini müdafiə etməyin, özünə yeni dostlar qazanmağın, bədxahların isə ağzından vurmağın əsl nümunəsini yaratdı!*

Məhz bundan sonrakı dövrlərdə Azərbaycan beynəlxalq qurum və təşkilatlarda fəal iş apararaq yeni nailiyyətlər qazandı, bölgədə və dünyada söz sahibinə çevrildi.

Hücum diplomatiyasına start verildi.

❖ ❖ ❖

**2003-cü ilin oktyabrında cənab İlham Əliyev Ulu Öndərimizin zəmanəti, habelə xalqımızın Heydər Əliyev siyasi kursuna sarsılmaz inamı və sədaqəti ilə ilk dəfə Azərbaycan Prezidenti seçildi!**

Qısa zaman kəsiyində inam və etimadı doğrultdu, sınaqlarla dolu rəhbərliyi dövründə xalqın sonsuz məhəbbətini və etibarını qazandı.

*Ölkəyə rəhbərliyinin hər ilində yeni uğurlar qazandı, cari və perspektiv problemlərin həlli ilə yanaşı, nisbətən uzaq hədəflərə çatmaq üçün təməllər yaratmağı, imkanları səfərbərliyə almağı bacardı.*

Qeyd edək ki, İlham Əliyevin prezidentliyinin ilk dövründə görüləsi işlər və problemlər kifayət qədər çox idi.

MƏSƏLƏN:

- bölgələrə elektrik enerjisi fasilələrlə verilirdi;
- regionlara qaz xətti çəkilmədiyindən böyük çətinliklər yaşanırdı;
- şəhərlərarası magistral yollar darısqal, dağılmış və bərbad vəziyyətdə idi;
- sahibkarlıq formalaşmamışdı, işsizlik baş alıb gedir, kəndlər boşalırdı;
- qaçqın və məcburi köçkünlər çadır şəhərciklərində, ictimai binalarda ağır vəziyyətdə yaşayırdı;
- sürətlə ordu qurmaq, onu silahlandırmaq tələb olunurdu;
- transmilli layihələri maliyyələşdirməkdə ciddi çətinliklər mövcud idi;
- Ermənistan sülh danışıqlarına gəlmir, ATƏT öz vəzifəsini icra etmir, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi həyata keçirilmirdi və s.

*Qurucu rəhbər adını qazanan cənab İlham Əliyev prezidentliyi dövründə yuxarıda sadalanan bütün problemləri çox böyük uğurla həll etdi, ölkə daxilində, xarici siyasətdə, ordu quruculuğunda möhtəşəm nailiyyətlər qazandı.*

**Azərbaycan xalqı öz sınanmış oğluna, görkəmli dövlət xadiminə dəfələrlə yüksək etimad göstərdi, dövlət sükanını böyük əminliklə ona etibar etdi.**

Bu gün dünya müstəqil Azərbaycanı büsbütün dəyişmiş, yenidən tikilib qurulmuş, güclü iqtisadiyyatı, müstəqil daxili və xarici siyasəti, demokratik təsisatları, müasir beynəlxalq imici, qüdrətli ordusu, milli birliyi və tolerantlığı olan ölkə kimi tanıyır!

Hətta bəzən ona "İlham Əliyevin Azərbaycanı" da deyirlər!

❖ ❖ ❖

Sonuncu prezident seçkilərindən 4 il keçir!

**Prezident İlham Əliyev bu müddətdə də Azərbaycanı inkişaf etdirmiş, ölkə qarşısında duran ciddi problemləri müvəffəqiyyətlə yoluna qoymuş, dövlətin möhkəmlənməsi, xalqın rifahının yüksəlməsi, insanların arzu və istəklərinin həyata keçirilməsi yolunda əsaslı dəyişikliklərə nail olmuş, apardığı islahatları daha da dərinləşdirmişdir.**

Axırıncı 4 ildə baş verən mühüm hadisələrdən ikisi haqqında ayrıca danışmağa ehtiyac duyulur.

Bunlardan biri COVID-19 adını almış, dünyanın yaşam tərzini, insanların həyatını dəyişmiş pandemiyadır!

*Heç kim təsəvvür belə etməzdi ki, XXI əsrdə qəflətən meydana çıxan hansısa yoluxucu xəstəlik pandemiyaya çevriləcək, qısa müddətdə dünyanı caynağına alacaq, milyonlarla insanın ölümünə səbəb olacaq, dünyanı özünə qapadacaq, iqtisadiyyata böyük zərbə vuracaq, tibb elmini aciz durumda qoyacaqdır!*

Amma bütün bunlar baş verdi!

Həm də ildırım sürəti ilə!

Çoxları başını itirdi...

Bir çox dövlətlər bu bəlanın öhdəsindən gələ bilmədiklərinə, vaxtında zəruri addımlar atmadıqlarına görə pandemiyaya çevrilmiş COVID-19-un əlində girov qaldılar, ciddi iqtisadi və insan tələfatı verərək çətin və çıxılmaz vəziyyətə düşdülər!

**İlham Əliyevin uzaqgörənliyi və xarizması, hadisələri qabaqlamaq bacarığı və zamanında düzgün qərarlar qəbul etmək məharəti bu məqamda da kara gəldi!**

Pandemiyanın genişlənməsinin, vüsətlənməsinin qarşısına sipər çəkildi, ağırlaşmaların hər dövründə öncədən qabaqlama işləri aparıldı, insanlar və iqtisadiyyat ağır nəticələrdən, sonrakı fəsadlardan uğurla qorundu!

*Dövlət rəhbəri xalqa müraciət etdi, vəziyyətin ciddiliyini və çətinliyini insanlara anlatdı, hamını əlbir, əlaqəli və mütəşəkkil fəaliyyətə səslədi, Azərbaycan səhiyyəsini qısa müddətdə ekstremal vəziyyətə köklədi.*

**Prezident İlham Əliyevin pandemiyanın qarşısını almaq, xalqı bu bəladan sovuşdurmaq üçün gördüyü işlərin sayı-hesabı yoxdur!**

İnfeksiyanın aşkarlandığı ilk gündən təxirəsalınmaz addımlar atıldı:

- Dövlət başçısının sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah fəaliyyətə başladı;
- Xəstəliyin yayılmasının qarşısının alınmasına dair "Fəaliyyət Planı" və "Tədbirlər Planı" təsdiq edildi;
- 19 mart 2020-ci ildə dünyada ilk olaraq Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edildi və Prezidentin Ehtiyat Fondundan oraya 20 milyon manat vəsait köçürüldü;
- Dövlət başçısının tapşırığı əsasında qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirildi, yoluxmuş xəstələrin müalicəsi üçün 46 xəstəxana müəyyən edildi, 11 modul tipli yeni xəstəxana istifadəyə verildi;
- Bu bəlaya qarşı mübarizə məqsədilə dövlət büdcəsindən 4 milyard manat vəsait ayrıldı;
- Koronavirusla mübarizə çərçivəsində məşğulluq və sosial rifahın dəstəklənməsinə 610 mln. manat, səhiyyə məqsədlərinə 754,2 mln. manat, iqtisadi artım və sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə 1,1 mlrd. manat, verilmiş kredit portfeli üzrə 1,5 mlrd. manat, beynəlxalq miqyasda tədbirlərin dəstəklənməsinə 39,3 mln. manat vəsait xərcləndi.
- Prezident İlham Əliyevin göstərişi ilə minlərlə Azərbaycan vətəndaşı, xüsusən də xaricdə təhsil alan tələbələrimiz müxtəlif ölkələrdən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə Vətənə qaytarıldı;
- Cənab İlham Əliyevin dünya miqyasında rəğbətlə qarşılanan mühüm təşəbbüsləri də oldu. Belə ki, 2020-ci ilin aprel ayında koronavirusa qarşı mübarizə ilə bağlı Türk Şurasının Zirvə görüşü, may ayında isə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə Zirvə görüşü keçirildi;
- 2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında Qoşulmama Hərəkatının Sədri qismində Azərbaycan Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin (179 dövlət) dəstəyi ilə qəbul edildi;
- Peyvəndlərə çıxışla əlaqədar dövlətlər arasında dərinləşən qeyri-bərabərliyin aradan qaldırılması üçün Azərbaycan ÜST-ə 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etdi ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım oldu;
- Azərbaycan Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərdi, təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etdi. Son olaraq 2021-ci il dekabrın 6-da Azərbaycan Burkina-Faso dövlətinə 100 min doza "Sinovac" peyvəndi ianə edib.

**Prezident İlham Əliyevin zamanında atdığı addımlar gərəkli və faydalı olmaqla yanaşı, Azərbaycanın və onun rəhbərinin beynəlxalq nüfuzunun və imicinin yüksəlməsinə də töhfə vermiş oldu.**

❖ ❖ ❖

**İlham Əliyevin böyüklüyü həm də ondadır ki, ən çətin, ən ağır, ən mürəkkəb vəziyyətdən belə qələbə ilə çıxmağı bacarır!**

2020-ci il dünya üçün mürəkkəb, qorxulu, iqtisadi cəhətdən sarsıdıcı bir il idi!

COVID-19 insanları çöl-bayırdan məhrum etmiş, iqtisadiyyatın normal ritmini pozaraq inkişaf sürətini aşağı salmış, ümidsiz vəziyyət yaratmışdı!

İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi, nəyi, nə vaxt və necə etmək məharəti dünya üçün ən ağır keçən ili Azərbaycan üçün möhtəşəm qələbə, zəfər ilinə çevirdi!

**İqtidara gəldiyi ilk gündən işğal altındakı torpaqları azad etməyi qarşıya məqsəd qoyan, hər gün, hər saat bu barədə düşünən, əməli iş görərək zəruri, hesablanmış addımlar atan cənab İlham Əliyev pandemiyanın tüğyan etdiyi 2020-ci ili Azərbaycan tarixinin ən şərəfli ili etdi!**

**Öz adını da qızıl hərflərlə tariximizin ən böyük sərkərdələri sırasına yazdı!**

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə:

- Ermənistan ordusunu məhv etdi!
- Azğın düşməni qarşısında diz çökdürdü!
- "Dəmir yumruğ"u ilə başını əzərək kapitulyasiya aktına imza atdırdı!
- Ağdam, Laçın, Kəlbəcər rayonlarını döyüşsüz geri aldı!
- "Məğlubedilməz" erməni ordusunu fərarilər, qorxaqlar yığnağına çevirdi!
- XXI əsrin ən yeni müharibəsini apardı!
- Bu müharibədə tətbiq etdiyi silahlar, taktika və strategiyanı dünya üçün örnəyə çevirdi!
- Azərbaycan xalqını dünyaya məğrur, qalib, qəhrəman xalq kimi tanıtdı!

**Bu müharibədə İlham Əliyevin tərbiyələndirdiyi, idman meydanlarında erməniləri dəfələrlə məğlub edən yeni gənc nəsil əsl rəşadət, qəhrəmanlıq göstərdi!**

*Bu müharibədə multikultural ənənələrə sadiq Azərbaycanın bütün millətlərinin və etnik qruplarının nümayəndələri hünərlə döyüşərək Vətən sevgisini hərb meydanında da nümayiş etdirdilər!*

Yüzlərlə gənc qəhrəmancasına çarpışaraq ərazi bütövlüyünün bərpası, Vətən torpaqlarının murdar düşməndən təmizlənməsi uğrunda ağır döyüşlərdə şəhidlik zirvəsinə ucaldılar!

**İlham Əliyev Azərbaycan xalqının milli birliyinə nail oldu, ölkə vətəndaşlarını Vətən sevgisi, azğın düşmənə qarşı müharibədə yumruq kimi birləşdirdi, indiyədək görmədiyimiz həmrəylik yaratdı!**

❖ ❖ ❖

Son illərdə Azərbaycanın qlobal dünyanın həssas problemlərinin müzakirə olunduğu məkana çevrilməsi, belə görüş və müzakirələrin təşkilində ölkəmizin aparıcı rol alması, dövlət başçısının beynəlxalq səviyyəli nüfuzlu tədbirlərə daim dəvətli olması və çıxış etməsi iftixar doğuran hadisələrdir!

**Artıq Azərbaycan Prezidenti cənab İlham Əliyev dünya miqyasında daha aydın görünən, mövqeyinə, fikirlərinə və təkliflərinə hörmətlə yanaşılan dövlət başçıları sırasındadır!**

*Prezidentimizin Qoşulmama Hərəkatına uğurlu rəhbərliyi, sədrlik dövrünün daha bir il artırılması böyük sevinc və fərəh doğuran haldır.*

*Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının yeni, indiyədək görünməmiş səviyyəyə yüksəlməsi tarixi əhəmiyyətli hadisələrdəndir.*

*Bu yaxınlaşma həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə cənab İlham Əliyevin şəxsi dostluğundan və səmimi münasibətlərindən qaynaqlanır.*

Hər iki dövlətə böyük fayda gətirir, güclərinə güc qatır.

44 günlük Vətən müharibəsində biz türk qardaşlarımızı daim yanımızda gördük, bütün sahələrdə və məsələlərdə köməklərini aldıq.

**Şuşa Bəyannaməsi isə iki qardaş dövləti strateji müttəfiqə çevirərək münasibətləri ən uca zirvəyə yüksəltdi!**

**İki görkəmli liderin qurduğu möhtəşəm birlik artıq hamı tərəfindən etiraf və qəbul olunur:**

**Türkiyə deyəndə Azərbaycan, Azərbaycan deyəndə Türkiyə yada düşür və atılan addımlarda bu vəhdət daim diqqətdə saxlanılır.**

*Prezident İlham Əliyevin ən böyük uğurlarından biri də Rusiya-Azərbaycan dostluğunu daha yüksək səviyyəyə qaldırmaqla müttəfiqlik qarşılıqlı əlaqələrinin yeni imzalanan Moskva Bəyannaməsi ilə daha da möhkəmləndirməsidir.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsindəki Zəfəri, əslində, 3 qat qələbədir!**

Cənab İlham Əliyev təkcə hərb meydanında düşmənin başına od ələyərək onu məhv etmədi!

Həm də diplomatiya sahəsində və informasiya müharibəsində də biabırçı məğlubiyyətə uğratdı!

❖ ❖ ❖

Müharibədən sonrakı dövr isə bu zəfərin müxtəlif sahələrdə və ayrı-ayrı müstəvidə davamıdır:

Yeni yollar çəkilir, dəmir yolu xətti salınır, şəhərlərin baş planı tutularaq təsdiq edilir, bir-birindən maraqlı, baş müəllifi cənab İlham Əliyev olan layihələrin icrasına start verilir, mina sahələri təmizlənərək Böyük qayıdışın tezliklə baş tutmasına şərait yaradılır.

**Bir sözlə, Qarabağa azadlıq gətirən Prezident İlham Əliyev onun dirçəldilməsi və cənnətə çevrilməsi üçün mümkün olanların hamısını fədakarlıqla edir.**

Regionların sosial-iqtisadi inkişafına dair IV Dövlət Proqramı uğurla icra olunur.

Qeyri-ənənəvi enerji istehsalı sahəsində bir-birindən uğurlu layihələr reallaşdırılır.

Şəhid ailələrinə, müharibə əlillərinə xüsusi diqqət və qayğı göstərilir, onlara dövlət hesabına tikilmiş təmirli mənzillər, minik avtomobilləri verilir, sosial ehtiyacları qarşılanır.

*Pandemiyadan uğurla çıxmış, torpaqlarını erməni işğalçılarından azad edərək böyük zəfər qazanmış Azərbaycanı qarşıda daha böyük işlər, yerinə yetiriləsi vəzifələr gözləyir.*

Azərbaycan xalqı əmindir ki, bütün hədəflərə ən tez vaxtda və ən qısa yolla çatacaqdır!

Çünki müstəqil dövlətimizin sükanı arxasında əsl rəhbər, qüdrətli sərkərdə, müasir dünya liderləri sırasında özünə layiqli yer qazanmış cənab İlham Əliyev dayanıb!

Onun güclü əlləri, iti zəkası, müstəqil və uzaqgörən siyasəti, xalqına xidmət amalı ilə döyünən vətənpərvər qəlbi vardır.

Belə rəhbərlə yalnız uğur qazanmaq, qalib gəlmək mümkündür!

**Sözünün sahibi olan, nəyi, nə vaxt və necə etməyi hamıdan yaxşı bilən, doğma Azərbaycanı daim ucaldan, xalqın hər bir arzu və istəyini reallaşdıran Prezidenti olmaq özü də bir xoşbəxtlikdir!**

**İlham Əliyev kimi qüdrətli, müdrik, işıqlı qəlb sahibi olan Prezidenti!**

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə

## Fövqəladə Hallar Nazirliyində müşavirə keçirilib

**Aprelin 11-də Fövqəladə Hallar Nazirliyinin (FHN) inzibati binasında ölkənin kommunal təsərrüfatında, o cümlədən qaz təsərrüfatında mövcud vəziyyət, bununla əlaqədar yarana biləcək fövqəladə hallarla bağlı məsələlərin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, müşavirədə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, FHN-in aidiyyəti strukturlarının rəhbərləri, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev, energetika nazirinin müavini Kamal Abbasov, "Azərişıq" ASC-nin sədr müavini Qədir İsmayılov və "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov iştirak ediblər.

Tədbirdə çıxış edən nazir Kəmaləddin Heydərov müşavirənin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə keçirildiyini qeyd edib. O, hazırda ölkədə kommunal təsərrüfat, o cümlədən qaz təsərrüfatındakı mövcud vəziyyət barədə geniş məlumat verib. Nazir bu il aprelin 3-də Bakı şəhərində yerləşən "Location" gecə klubunda baş vermiş partlayış barədə danışaraq, ictimai-iaşə obyektlərinin, o cümlədən binaların zirzəmi və birinci mərtəbələrində yerləşən obyektlərin xüsusilə qaz təsərrüfatlarında aşkarlanan yanğın təhlükəsizliyi qaydalarının kobud şəkildə pozulması hallarının acı faciələrə yol aça bildiyini, hər an potensial təhlükə mənbəyi olduğunu vurğulayıb. Nazir qeyd edib ki, FHN-in nəzarət qurumlarının sahibkarlıq subyektlərində yoxlama keçirməsi üçün hazırda mövcud olan prosedurdan sui-istifadə edən işbazlar bir sıra hallarda təhlükəsizlik qaydalarına laqeyd yanaşırlar. Obyektdə nəzarət tədbiri həyata keçirən nazirliyin Dövlət Yanğın Nəzarəti Xidmətinin inspektoru aşkar etdiyi çatışmazlıqlar, o cümlədən maye qaz balonu və ya qaz xəttinə qeyri-qanuni qoşulma hallarını yerində aradan qaldırıb, müvafiq sənədləşmə işlərini bitirərək obyekti tərk etdikdən sonra obyekt sahibi yenidən həmin qaz balonu və ya qaz xəttinə qeyri-qanuni qoşulmanı bərpa edir ki, bu da sonda ağır faciələrə gətirib çıxarır.

O da vurğulanıb ki, xüsusilə qaz balonlarının istismarı, onların obyekt daxilində nəzarət tədbirləri zamanı kənarlaşdırılması və utilizasiyası ilə bağlı konkret mexanizm olmadığından bir sıra hallarda inspektor tərəfindən zəruri tədbirlərin görülməsi qeyri-mümkün olur. Odur ki, maye qaz balonlarının doldurulması, istismarı, balonların texniki təhlükəsizlik qaydalarının tələblərinə nəzarət aidiyyəti qurumlar tərəfindən təmin olunmalıdır. Həmçinin ictimai-iaşə obyektlərində qeyri-qanuni olaraq qazdan istifadə halları ilə də ciddi mübarizə aparılmalıdır. K.Heydərov istehlakçıların qaz qurğularının, qaz xətlərinin, tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin müayinə edilərək yoxlanılması funksiyasının bilavasitə "Azəriqaz" İB-yə aid olduğunu nəzərə alaraq, bu sahədə zəruri tədbirlərin görülməsinin vacibliyini qeyd edib.

Nazir vurğulayıb ki, bütün qeyd olunanlar nəzərə alınaraq Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ictimai-iaşə sektorunda fövqəladə hadisələrə səbəb ola biləcək hallarla ilk növbədə yanğın və partlayış təhlükəsi və bu çərçivədə maye qaz balonları və qazdan qeyri-qanuni istifadə halları ilə kəskin mübarizə aparılması barədə ciddi tapşırıqlar verilib.

Tədbirdə nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərləri, o cümlədən Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisi daxili xidmət general-mayoru Hikmət Abbasov, Mülki müdafiə işinin təşkili Baş idarəsinin rəisi general-mayor Niyazi Zamanov, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin rəisi general-mayor Adil Abdullayev, Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağmədən Nəzarəti Dövlət Agentliyinin rəisi Vüsal Ağayev, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov, Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyinin rəisi Vüqar Hüseynov çıxış edərək aidiyyəti sahələrdə fövqəladə hadisələrə səbəb ola biləcək hallar, onları doğuran səbəblər barədə ətraflı məlumat veriblər.

Sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev, energetika nazirinin müavini Kamal Abbasov, "Azərişıq" ASC-nin sədr müavini Qədir İsmayılov və "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov çıxış edərək səsləndirilən məsələlərlə əlaqədar aidiyyəti üzrə ciddi tədbirlərin görüləcəyini qeyd ediblər.

Müşavirənin yekunu olaraq aidiyyəti qurumların mütəxəssislərindən ibarət birgə komissiyalar tərəfindən paytaxt Bakı şəhərindən başlamaqla ictimai-iaşə obyektlərində gücləndirilmiş yoxlama-nəzarət tədbirlərinin keçirilməsi və aşkarlanmış pozuntularla bağlı dərhal qanunamüvafiq tədbirlərin görülməsi qərara alınıb.

# Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

**Aprelin 11-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, səfiri Milli Məclisdə salamlamaqdan məmnunluq duyduğunu bildirən Səməd Seyidov ölkələrimiz arasındakı qardaşlıq və dostluq əlaqələrindən bəhs edib. O, Türkiyə ilə Azərbaycan arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini, iki qardaş ölkənin bütün məsələlərdə bir-birini dəstəklədiyini bildirib.

Səməd Seyidov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan Şuşa Bəyannaməsinin ölkələrimiz arasında qardaşlıq münasibətlərini keyfiyyətcə yeni səviyyəyə yüksəltdiyini vurğulayıb. Həmçinin aprelin 8-də Şuşa şəhərində Milli Məclis komitələrinin ilk dəfə olaraq keçirilən iclasının və iclasda baxılan "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Qafqaz Qartalı" xüsusi təyinatlı qüvvələrin təliminə dair" anlaşma memorandumunun önəminə toxunub.

Komitə sədri Azərbaycanla Türkiyə arasında parlamentlər səviyyəsində də əməkdaşlığın yüksək səviyyədə olduğunu, parlamentarilərimizin beynəlxalq təşkilatlarda bir-birilərini dəstəklədiyini qeyd edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən səfir Cahit Bağçı Azərbaycan ilə Türkiyə arasındakı yüksəksəviyyəli qardaşlıq və dostluq münasibətlərinin daha da genişləndirilməsi üçün görülən işlərdən, qurulan ikitərəfli və müxtəlif formatlı əməkdaşlıq platformalarından bəhs edib. Azərbaycan, Türkiyə və Pakistan parlamentlərinin sədrlərinin birinci üçtərəfli görüşü və görüşün yekunlarına dair Bakı Bəyannaməsinin qəbul edilməsinin əhəmiyyətinə toxunan Cahit Bağçı Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb.

Sonra görüşdə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, bölgədə dayanıqlı sülhün və əməkdaşlığın bərqərar olmasına yönəlmiş təşəbbüslər dəyərləndirilib.

# Mərkəzi Bankın İdarə Heyətinə yeni üzv təyin olunacaq

Aprelin 11-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Komitənin sədri Tahir Mirkişili diqqətə çatdırıb ki, iclasın gündəliyinə 9 məsələ daxil edilib.



Komitə sədri bildirib ki, birinci və ikinci məsələlər ölkə Prezidenti tərəfindən təqdim edilib. Birinci məsələ - Elman Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyündən azad edilməsi ilə bağlı Prezidentin təqdimatı deputatlar tərəfindən müsbət qarşılanıb.

Sonra Tahir Mirkişili qeyd edib ki, növbəti məsələ Taleh Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyünə qəbul edilməsi ilə əlaqədardır. Taleh Kazımovun iş təcrübəsi və peşə keyfiyyətləri barədə məlumat verib. Onun ölkənin bank sistemindəki xidmətlərindən, əldə etdiyi nailiyyətlərdən bəhs edib. Komitə sədri Mərkəzi Bankla Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi arasında sıx əlaqələrin olduğunu, bir sıra məsələlərin həllində faydalı əməkdaşlıq etdiklərini qeyd edib və bunun gələcəkdə uğurla davam edəcəyinə əminliyini söyləyib.

Müzakirələr zamanı çıxış edən komitə sədrinin müavini Əli Məsimli, komitə üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Elnur Allahverdiyev, Vüqar Bayramov, Rüfət Quliyev, Aydın Hüseynov Taleh Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyünə namizədliyini dəstəklədiklərini, bu təyinatın bank sisteminin fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət edəcəyini bildiriblər

Komitə sədri müasir çağırışları nəzərə alaraq xüsusən pandemiyadan sonrakı dövrdə Mərkəzi Bankın daha aktiv fəaliyyət göstərməsinin, informasiya texnologiyalarından daha çox faydalanmasının əhəmiyyətindən danışıb. O, mövcud problemlərin həllində Milli Məclis, hökumət və Mərkəzi Bankın qarşılıqlı əməkdaşlığının rolunu xüsusi qeyd edib.

Sonra Tahir Mirkişili bu məsələ ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini təqdim edib. Qeyd olunub ki, Taleh Kazımovun Mərkəzi Bankın İdarə Heyətinin üzvü təyin olunması məqsədəuyğun hesab edilir.

İclasda iştirak edən Taleh Kazımov ölkə Prezidentinə ona göstərdiyi etimada görə minnətdarlığını ifadə edib, komitə üzvlərinə müsbət rəyə görə təşəkkürünü bildirib. Fəaliyyəti dövründə Mərkəzi Bankla parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi arasında daha sıx və səmərəli əlaqələrin qurulmasında səylərini əsirgəməyəcəyini söyləyib.

Daha sonra iclasda üçüncü oxunuşda olan bir sıra qanun layihələrinə, o cümlədən "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", habelə "Antiinhisar fəaliyyəti haqqında", "Yeyinti məhsulları haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb və həmin sənədlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitə üzvləri birinci oxunuşda təqdim olunan "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələni də müzakirə ediblər. Məsələnin mahiyyəti barədə danışan komitə sədri bildirib ki, təklif olunan dəyişikliyə görə, kolxoz və sovxozların özəlləşdirilməsi zamanı pay torpağı almış insanların bu torpaqlar üzərində mülkiyyət hüququnun rəsmiləşdirilməsi zamanı rüsum alınmayacaq.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin iclasında baxılmaq üçün tövsiyə olunub.

İclasda "Beynəlxalq Telekommunikasiya İttifaqının Radiorabitə Reqlamentinin və Ümumdünya Radiorabitə Konfransının Yekun Aktlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi də müzakirəyə çıxarılıb. Məsələni parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin əməkdaşı Mahir Süleymanlı təqdim edib. Bildirilib ki, təklif olunan reqlamentin əsas məqsədi ittifaqın üzvləri üçün ən son texniki nailiyyətlər əsasında tezliklərdən istifadəni lazımi şəkildə təmin etməkdir.

Sənəd Milli Məclisin iclasına tövsiyə olunub.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Dövlət Statistika Komitəsi Avropa İttifaqı ilə iki tvininq layihəsi və bir texniki yardım layihəsi həyata keçirib

Aprelin 11-də Bakıda "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" tvininq layihəsinin bağlanış mərasiminə həsr olunan konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək müstəqil dövlətimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Sonra Şəhidlər xiyabanına gedən tədbir iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad ediblər.

Konfransda açılış nitqi ilə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan sosial-iqtisadi islahatlar nəticəsində müasir Azərbaycan dünyada inamla inkişaf edən, qlobal maliyyə-iqtisadi böhranlardan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərdən biri kimi tanınır. Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2030-cu ilədək dövrü əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir. Hazırkı mərhələdə əsas məqsədlərdən biri uzunmüddətli perspektivdə dinamik sosial-iqtisadi inkişafın dayanıqlığının təmin edilməsidir ki, bu işlərin planlaşdırılmasında, nəticələrin qiymətləndirilməsində və təhlil olunmasında rəsmi statistika xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunub ki, layihənin məqsədi Azərbaycanda özəl sektorun, o cümlədən kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılması, statistik biznes reyestrlərinin təkmilləşdirilməsi və istifadəçilərin biznes statistikasına olan tələbatı nəzərə alınmaqla biznes statistikasının metodologiyasının Avropa İttifaqının standartlarına uyğunlaşdırılması məqsədilə Dövlət Statistika Komitəsinin və Dövlət Vergi Xidmətinin potensialının artırılmasından ibarət olub. Tvininq layihəsinin icrasına 2020-ci ilin iyun ayından başlanılıb və 3 komponentdən ibarət olan layihə 22 ay davam etməklə tam icra edilib.

Dövlət Statistika Komitəsinin Avropa İttifaqı ilə əməkdaşlığı çərçivəsində daha öncə iki tvininq layihəsinin və bir texniki yardım layihəsinin həyata keçirildiyini xatırladan T.Budaqov milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymətləri indeksi sahələrinin Avropa standartlarına çatdırılmasına həsr olunmuş birinci tvininq layihəsi, statistik keyfiyyətin idarə olunması sisteminin və coğrafi informasiya sistemi vasitəsilə statistik məlumatların yayımlanmasınıntəkmilləşdirilməsi, əhalinin gəlirləri və həyat şəraiti, əlillik, turizm sahələrində rəsmi statistikanın Avropa standartlarına uyğunlaşdırılması məsələlərini əhatə etmiş ikinci tvininq layihəsi haqqında qısa məlumat verib.

Bildirilib ki, COVID-19 pandemiyası ilə əlaqədar olaraq "Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək" layihəsi çərçivəsində nəzərdə tutulmuş tədbirlərin bir qismi onlayn formatda həyata keçirilib. 2021-ci il sentyabrın 9-dan etibarən isə layihənin rezident tvininq müşaviri Dövlət Statistika Komitəsində fəaliyyətinə başlayıb, xarici ekspertlərin Azərbaycana səfərləri təşkil olunub, ölkə mütəxəssislərinin layihə üzrə tərəfdaş ölkələrə təlim səfərləri baş tutub. Pandemiya ilə əlaqədar baş verən problemlərin olmasına baxmayaraq, layihə çərçivəsində qarşıya qoyulan məqsədlərə nail olunub. Belə ki, Dövlət Vergi Xidməti ilə Dövlət Statistika Komitəsi arasında mövcud olan məlumat mübadiləsinin keyfiyyətinin yaxşılaşdırılması üçün konkret tədbirlər həyata keçirilib, biznes statistikasının, o cümlədən kiçik və orta biznes üzrə statistikanın məzmunu və təşkili prosesləri yenilənib və Dövlət Statistika Komitəsinin, Dövlət Vergi Xidmətinin və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin işçilərinin biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması ilə bağlı potensialı artırılıb.

Konfransda Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq şöbəsinin rəhbəri Viktor Bojkov, Dünya Bankının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Sara Maykl, Finlandiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kirsti Narinen, Litvanın ölkəmizdəki səfiri Egidijus Navikas, Niderland Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Pauline Eizema, Finlandiya Statistika İdarəsinin baş direktoru Markus Sovala, Litva Statistika Departamentinin Baş direktoru Jurate Petrauskiene çıxış ediblər.

Sonra Finlandiya Statistika İdarəsinin əməkdaşları xanım Hannele Orjala, Ville-Matti-Pilvio, Litva Statistika Departamentinin əməkdaşı Raimonda Simiene, Niderland Mərkəzi Statistika Bürosunun əməkdaşı Guusvan de Burgt, Dövlət Statistika Komitəsinin əməkdaşları Qasım Əliyev və Nuru Süleymanovun layihə komponentləri üzrə görülmüş işlər haqqında təqdimatları nümayiş olunub.

Konfransda dövlət qurumlarının nümayəndələri ilə yanaşı, Azərbaycanda akkreditə olunmuş bir sıra səfirlik və beynəlxalq təşkilatların rəhbərləri, xarici ölkələrin statistika qurumlarının təmsilçiləri, Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvləri iştirak ediblər.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq baş prokuror Kamran Əliyev aprelin 11-də Ağdam Rayon Prokurorluğunun inzibati binasında Ağdam, Ağcabədi və Laçın rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib. Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabeli prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 116 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Qəbuldan sonra baş prokuror Ağcabədi və Laçın rayon prokurorluqlarında olmaqla əməkdaşlarla görüş keçirib, bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları diqqətə çatdırılıb.

# Müzəffər Komandanın quruculuq missiyası

## Qarabağ və Şərqi Zəngəzurda yeni iqtisadiyyat bərqərar olacaq

**2018-ci il aprelin 11-də Azərbaycanda keçirilmiş Prezident seçkilərində xalqımız növbəti dəfə İlham Əliyevə yüksək etimad göstərərək onu Azərbaycan Respublikasının Prezidenti seçdi. Ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən cənab Prezident haqlı olaraq qeyd edirdi ki, "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm.**

*Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq... Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!".*

Doğrudan da, cənab Prezidentin dediyi kimi, ötən 4 ildə də Azərbaycan onun rəhbərliyi ilə böyük qələbələr və inkişaf yolu keçdi, Qarabağ uğrunda 44 günlük Vətən müharibəsi böyük qələbə ilə başa çatdı, torpaqlarımız düşmən işğalından azad olundu. Bu gün isə Qarabağda böyük sürətlə bərpa və yenidənqurma işləri aparılır, ən yüksək standartlar səviyyəsində regionun gələcəyi qurulur. Yaxın gələcəkdə biz Qarabağı cənnətə çevirəcəyik və bu torpaqlarda əbədi yaşayacağıq.



### İşğal nəticəsində məhv edilmiş yerli iqtisadiyyat

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzünə məruz qalmış, torpaqlarımızın 20 faizi işğal edilmiş, bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma yurdlarından didərgin düşmüşdür. İşğal nəticəsində Qarabağda bütün kənd və şəhərlər tamamən dağıdılmış və ərazinin ekosisteminə çox ciddi ziyan vurulmuşdur. 30 illik erməni işğalı nəticəsində dağıntıların miqdarı böyük rəqəmlərlə ifadə olunmuşdur. İşğal nəticəsində dəyən ziyan təxminən 300 milyard ABŞ dollarından çox qiymətləndirilmişdir.

Postkonflikt ərazilərdə işğaldan öncə təxminən 617 min əhali, 159 min ailə yaşayıb, onlardan 76 faizi kənd, 24 faizi isə şəhər yerlərində məskunlaşmışdı. 900-dən çox yaşayış məntəqəsində təxminən 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü, 5.2 min km avtomobil yolu, 286 km dəmir yolu xətti, 7.6 min km su xətti, 2 min km qaz kəməri xətti, 76.9 min km elektrik xətti, 2.5 min ədəd transformatorlar və digər infrastruktur obyektləri tamamilə dağıdılmış, talan edilmişdir. Bütün bunlarla yanaşı, respublikamızın kənd təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi potensialına da çox ciddi ziyan vurulmuşdur. Təqribən 1,3 milyon hektar kənd təsərrüfatı üçün yararlı torpaq, 34.6 min hektar meyvə və üzüm bağları, 220 min baş mal-qara, 280 min hektar meşələr, 1200 km irriqasiya sistemləri işğal nəticəsində tamamilə məhv edilmişdir.

İşğaladək bu ərazilərdə fəaliyyət göstərən sənaye sahələri ölkə iqtisadiyyatında mühüm rola malik olub. Qarabağda, əsasən, yeyinti, yüngül, tikinti materialları kimi sənaye sahələri güclü inkişaf etmişdir. İşğaladək bu ərazilərin sənaye sahələri yerli əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət daşıyırdı. Həmin ərazilərdə İstisu və Turşsu mineral suyunun qablaşdırılması müəssisələri, mərmər, mişar daşı zavodları, şərab zavodları, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və digər müəssisələr fəaliyyət göstərirdi.

Kənd təsərrüfatına gəldikdə, bu ərazilərdə, əsasən, taxılçılıq, yem istehsalı, tütünçülük, üzümçülük, pambıqçılıq, kartofçuluq, bağçılıq və bostançılıq, heyvandarlıqda ətlik, südlük mal-qara, habelə qoyunçuluq üstünlük təşkil edirdi. Bütövlükdə isə işğaldan əvvəl bu bölgələrdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının təqribən 15-20 faiz, o cümlədən ət, süd və taxılın 14 faizi, baramanın 17 faizi, üzümün 26 faizi, yunun 19 faizdən çoxu istehsal edilirdi.

### Bərpa və quruculuq işlərinə hazırlıq

Azərbaycan hökuməti torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Qarabağ bölgəsində bərpa və yenidənqurma işlərinə başlamışdır. Faktiki olaraq postkonflikt ərazilərin bərpası və yenidən qurulması dövlətin strateji hədəfinə çevrilmişdir. Heç təsadüfi deyil ki, "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" Azərbaycan hökumətinin 2021-2030-cu illər üzrə müəyyən etdiyi beş milli prioritedən biri olaraq qəbul edilmişdir. Eyni zamanda bərpa və yenidənqurmanın instutisional əsasları hazırlanmışdır:

- "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmış;
- Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamı ilə Əlaqələndirmə Qərargahı, onun nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz və mərkəzin nəzdində 17 işçi qrupu yaradılmış;
- 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 noyabr tarixli 2292 nömrəli sərəncamına əsasən, dövlət qurumlarının səlahiyyətli nümayəndələrindən ibarət Dövlət Komissiyası formalaşdırılmış;
- Azərbaycan Respublikası Prezidenti "İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" 18.03.2021-ci il tarixli 1304 nömrəli fərman imzalamış;
- Qarabağ Rəqəmsal Geoinformasiya Sistemi yaradılmış;
- Azərbaycan Respublikası Prezidenti "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10.12.2021-ci il tarixli sərəncam imzalamış;
- Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10.12.2021-ci il tarixli sərəncamının icrasının təmin edilməsi barədə qərar qəbul etmiş;
- Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 04.10.2021-ci il tarixli fərmanı imzalanmış;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 dekabr tarixli 753 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin 2022-ci ildə minalardan və partlamamış hərbi sursatlardan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi Planı" təsdiq olunmuş;
- Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji mənbələrinin potensialının qiymətləndirməsi (beynəlxalq) aparılmış;
- Energetika Nazirliyi aparıcı beynəlxalq şirkətlərlə birlikdə Qarabağ və Şərqi Zəngəzurda "Yaşıl enerji" zonası üçün konseptual proqnoz və bu əsasda xüsusi proqram hazırlamış;
- 2021-ci və 2022-ci illərin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq layihələrinin maliyyələşdirilməsinə 2,2 milyard manat vəsait ayrılmışdır.

### Qələbədən sonra görülən işlər

Qələbədən dərhal sonra ilk olaraq Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA), Müdafiə Nazirliyinin bir neçə xüsusi batalyonu və Fövqəladə Hallar Nazirliyinin Bərdə şəhərindəki Xüsusi riskli Minalardan Təmizləmə Alayı tərəfindən icra olunmaqla Qarabağda işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işlərinə başlanılmışdır. Bu günə qədər təxminən Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Xocavənd rayonlarında on min hektarlarla sahə təmizlənib istifadəyə verilmişdir.

Füzuli Beynəlxalq Hava Limanı inşa olunmuş, Zəngilan və Laçın Hava limanlarının inşası ilə bağlı işlər isə davam etdirilməkdədir. Hazırda Bərdə-Ağdam (47,1 km) və Horadiz-Ağbənd dəmir yolu xətlərinin (110,4 km) tikintisi gedir. Eyni intensivliklə digər 11 istiqamət üzrə avtomobil yollarının da tikintisi davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su-Elektrik stansiyaları təmir edilərək istismara verilib. Qarabağ və Şərqi Zəngəzurda 9 rəqəmsal yarımstansiya, o cümlədən Ağdam və Cəbrayıl rayonlarında "Ağdam-1", "Ağdam-2" və "Cəbrayıl" yarımstansiyalarının, həmçinin "Qarabağ" Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi başa çatdırılıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Daşaltı Turizm İnkişaf Konsepsiyası əsasında Daşaltı Memarlıq Planının, Tuğ Turizm İnkişaf Konsepsiyası əsasında isə Tuğ Memarlıq Planının icrasına başlanılıb. Kəlbəcərdəki Qaşqaçay filiz yatağı "Eti Bakır A.Ş." şirkətinə, Elbəydaş və Ağduzdağ filiz yataqları "Artvin Maden A.Ş." şirkətinə öyrənilmə, tədqiq, kəşfiyyat, işlənmə və istismar məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilib.

Ağdam rayonunda 190 hektar sahədə yaradılmış Ağdam Sənaye Parkının tərkibində prioritet hesab edilən 74 hektar sahənin qısa müddət ərzində mina və partlamamış hərbi sursatlardan tam təmizlənməsi Qarabağda iqtisadiyyat quruculuğu sahəsində dövlətin yüksək əzmindən xəbər verir. Qısa müddət ərzində görülən işlər bura sahibkarların marağının artmasına səbəb olub. Artıq bir sıra şirkətlər tərəfindən özlərinin təqdim etdikləri layihələrin icrasına başlanıb.

Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2021-ci il tarixli 1453 nömrəli fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində gələcəkdə buraya investisiyaların cəlb olunması üçün böyük imkanlar yaradacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı üçün ayrılmış 200 hektar ərazidə mina və partlamamış hərbi sursatlardan təmizləmə işləri tamamlanmış və parkın konseptual planı hazırlanmışdır.

İşğaldan azad olunmuş ərazilərə ilk məskunlaşma Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası çərçivəsində icra edilən və artıq yekunlaşdırılan "Ağalı ağıllı kəndi"ndə baş tutacaq. Zəngilan torpaqlarının daha çox minalardan təmizlənməsi bu rayonda "ağıllı kənd"in tikintisi və "Dost aqropark"ın salınması ilə bağlıdır. Aqroparkda birinci mərhələdə 4 min baş cins qaramal yetişdiriləcək, 6 min hektar sahədə əkin aparılacaq. İkinci mərhələdə isə 10 min baş cins heyvan yetişdiriləcək, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq, ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı inşa ediləcək. Həmin sahələr hesabına Qarabağda taxılçılıq, pambıqçılıq və tütünçülük sahələrinin üstün inkişafı hədəflənir.

Enerji sahəsində həyata keçirilən digər vacib layihə Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin yaradılmasıdır. Cənubi Qafqazda ilk dəfə tətbiq olunan bu layihə avtomatlaşdırma hesabına insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığı artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri məhdudlaşdırmağa imkan verir.

İşğaldan azad edilmiş ərazilərdə daşınmaz əmlak və infrastruktur obyektlərinin ilkin inventarlaşdırılmasının aparılması, məlumatların toplanması və idarə edilməsi məqsədilə istifadəyə verilmiş Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə 31 dövlət qurumu və təşkilatından 30 dövlət qurumunun qoşulması, 30 qurum və təşkilata sistemdə işləməklə bağlı təlimlərin keçirilməsi, 23 qurum tərəfindən məlumatların sistemə daxil edilməsi, digər aidiyyəti dövlət qurumları və təşkilatlarının da sistemə qoşulması istiqamətində işlərin davam etdirilməsi rəqəmsallaşma sahəsində yeni imkanlar yaradır. Əvvəllər işğal olunmuş rayonların əhalisinə aid 700 minə yaxın vətəndaşlıq vəziyyəti akt qeydi bərpa olunub.

Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad olunmuş ərazilərdə turizm potensialının öyrənilməsi ilə əlaqədar icra olunan layihə çərçivəsində Tərtər rayonunun Suqovuşan qəsəbəsinin, Xocavənd rayonunun Hadrut qəsəbəsinin, Ağbulaq, Edilli, Tuğ, Azıx kəndlərinin, Zəngilan rayonunun Oxçuçay və Bəsitçay vadilərinin, Şuşa şəhəri və Daşaltı kəndinin turizm potensialının qiymətləndirilməsi üçün ilkin zəruri işlər aparılmışdır. Bölgədə eyni zamanda tarixi-dini abidələrin bərpası sahəsində müvafiq tədbirlər görülməkdədir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 45 min şəxsi əhatə edən sosial müdafiə tədbirləri həyata keçirilmişdir. 86-sı mülki şəhid olmaqla, 3021 şəhidin 7942 ailə üzvünə 15843 sosial ödənişlər (pensiya, müavinət, təqaüd), 2601 müharibə əlilinə 5202 sosial ödənişlər təyin edilmişdir. Eyni zamanda müharibə əlillərinin reabilitasiya vasitələri ilə təmin olunması həyata keçirilmişdir. Müxtəlif şirkətlər tərəfindən təqdim olunan iş yerlərində 1315 qazi və 305 şəhid ailəsi üzvü olmaqla, ümumilikdə 1620 nəfər şəxs işlə təmin edilmişdir.

### Potensial imkanlar

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyat quruculuğunun təmin edilməsi ölkənin ümumi istehsal-təsərrüfat dövriyyəsinin inkişafının əsas hərəkətverici qüvvələrindən biri kimi qiymətləndirilir. Qeyd edək ki, yeni iqtisadiyyat quruculuğunun təmin edilməsi və ölkənin ümumi istehsal-təsərrüfat dövriyyəsinə reinteqasiyası üçün həmin ərazilərdə kifayət qədər potensial imkanlar mövcuddur.

Ümumi ərazi 1,213 milyon ha torpaq sahəsidir, o cümlədən kənd təsərrüfatına yararlı cəmi torpaq sahəsi 591,776 ha, əkin sahəsi 231,056 ha, örüş-otlaq və biçənək sahəsi 351,822 ha, həyətyanı sahələr 8,898 ha, 232,287 ha meşə fondu, 35888,4 min m3 oduncaq fondu, ümumi dəyəri 50,782 milyard ABŞ dolları qiymətləndirilən mineral xammal ehtiyatı, 1623 min ABŞ doll/gün qiymətləndirilən içməli şirin su, 526, 1 min ABŞ doll/gün qiymətləndirilən termal mineral su ehtiyatı, 13 iri çay, 9 su anbarı və relyefə uyğun yeni su anbarlarının tikintisi imkanları, təxminən 7200 meqavat külək, 2000 meqavat günəş enerjisi hasil etmək potensialı mövcuddur. Məskunlaşması gözlənilən toplam bir milyon, o cümlədən 617 min məcburi köçkün (159 min ailə) və bunlardan kənd təsərrüfatında 34,9 faiz, sənayedə 3,5 faiz, tikintidə 8,0 faiz, ticarət və ictimai iaşədə 12,4 faiz, nəqliyyat və rabitədə 5,9 faiz, təhsil, səhiyyə və mədəniyyətdə 13,3 faiz, başqa sahələrdə çalışmaq istəyən 22 faiz əhali var.

İndiyə qədər işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan KOBİA-ya 990 müraciət daxil olub ki, onun da 663-ü yerli, 327-si xarici müraciətlərdir. Layihələrin 440-ı investisiya layihəsi, 550-i isə digər iş və xidmətlərlə bağlıdır. Daxil olan müraciətlərin 27 faizi tikinti işlərini, 27 faizi ticarət və xidmət sahəsini, 21 faizi sənayeni, 18 faizi kənd təsərrüfatını və digər 7 faizi turizm, səhiyyə, təhsil, mədəniyyət, nəqliyyat və logistika sahələrini əhatə edir.

Aparılan sorğunun nəticələri göstərir ki, Qarabağda sahibkarların 46,6 faizi gələcək fəaliyyət sahəsi kimi kənd təsərrüfatına üstünlük verir. Sənaye (8,8%), inşaat (7,6%), ticarət (6,7) və təhsil (5,9) sahələri də sahibkarların maraq dairəsindədir.

Bütövlükdə Qarabağ regionu, xüsusilə də Şuşa, Hadrut, Füzuli, Suqovuşan, Şərqi Zəngəzur region, Kəlbəcər və Laçın bölgələri turizmin müxtəlif növlərinin - eko, sağlamlıq, mədəni, təbiət, dağ və qış turizminin inkişafı üzrə zəngin resurslara, geniş imkanlara malikdir.

Qarabağda 2500-ə qədər bitki növü, 13197,5 hektar qiymətli ağac növü, 12 balıq növü, 288 quş növü, 63 məməli heyvan növü, 34,7 mln.m3/il su verə biləcək 332 kəhriz var. Uzunluğu 700 kilometrdən artıq olan və ən yüksək standartlara uyğun inşa edilən avtomobil yolları, 200 kilometrdən artıq müasir standartlara cavab verən dəmir yolları və beynəlxalq standartlara cavab verən Füzuli, Zəngilan və Laçın Hava limanları şəbəkəsi müasir nəqliyyat habı yaratmaqla postkonflikt ərazilərin potensial imkanlarının önəmli hissəsini təşkil edir.

### Repatriasiya potensialı

Postkonflikt ərazilərdə əhalinin effektiv məskunlaşdırılması bir tərəfdən həmin ərazilərin bərpa və yenidən qurulmasından, digər tərəfdən isə bərpa və yenidənqurma ilə bağlı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən çox mürəkkəb, çoxşaxəli, böyük əmək, vəsait və zaman tələb edən işlərdən, işğaldan azad olunmuş ərazilərə potensial (617 min əhali, 159 min aillə) qayıdacaq əhalinin sayı və qayıdış şərtlərindən asılıdır. Fövqəladə dərəcədə mürəkkəb və dövlət əhəmiyyətli repatriasiya potensialının proqnozunun müəyyən edilməsi Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən "Elm, Təhsil və Mədəniyyət məsələləri" üzrə İşçi Qrupuna həvalə edildi və bu məqsədlə ADA Universitetinin nəzdində ADA-nın, AMEA-nın İqtisadiyyat İnstitutunun, UNEC-in və Qafqaz Strateji Tədqiqatlar İnstitutunun və xarici beyin mərkəzlərinin aparıcı mütəxəssislərindən ibarət tədqiqat qrupu yaradıldı.

Tədqiqat qrupu tərəfindən repatriasiyanı proqnozlaşdırmanın zəruriliyi, repatriasiya problemini çətinləşdirən amillər, analoji tədqiqatların metodologiyası və beynəlxalq təcrübə təhlil edilərək müəyyənləşdirildi ki, repatriasiya potensialının məcburi köçkünlər haqqında statistik informasiya əsasında qiymətləndirilməsi mümkün deyil. Ona görə də tədqiqatlar empirik üsullarla, əsas etibarilə sosioloji sorğular vasitəsilə aparıldı, tədqiqatların mühüm nəticəsi olaraq dövlət qurumlarında xidməti istifadə üçün 4 kitab nəşr olundu. Tədqiqat qrupu bu dövlət əhəmiyyətli məsələni vaxtında və yüksək keyfiyyətlə yerinə yetirdi.

### Yeni iqtisadiyyat quruculuğu

AMEA İqtisadiyyat İnstitutu Qarabağda yeni iqtisadiyyat quruculuğu prosesinə elmi dəstək vermək üçün dövlət qurumları ilə yaxından əməkdaşlıq edir. Belə ki, İqtisadiyyat Nazirliyinin sifarişi ilə AMEA İqtisadiyyat İnstitutu tərəfindən həyata keçirilən "Postkonflikt ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi və müqayisəli üstün sahələrinin müəyyənləşdirilməsi" layihəsi yekunlaşmaq üzrədir. Bu layihənin rəhbəri İqtisadiyyat İnstitutunun baş direktoru, professor N.Müzəffərlidir.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyat quruculuğu və tikinti-bərpa işləri müasir standartlar, yenilikçi meyillər və unikal istehsal üsullarını əhatə etməlidir. Bu baxımdan da həmin ərazilərdə bərpa-quruculuq işləri və iqtisadi inkişafın innovativ xarakter daşıması zəruridir. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyat quruculuğunun innovativ meyillər əsasında təşkili ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsində və dayanıqlı, artan inkişafının təmin edilməsində müstəsna rol oynayacaqdır. İşğaldan azad edilmiş ərazilərin iqtisadiyyat quruculuğunun innovativ əsaslarla təşkili dövlət siyasətinin tərkib hissəsi olmaqla, bu ərazilərə "Böyük qayıdış"a da xüsusi təkan verəcəkdir. Qarabağda maddi və qeyri-maddi istehsal sahələrinin innovativ meyillər əsasında təşkili bütövlükdə ölkə iqtisadiyyatının inkişafını təmin etməklə, dünya iqtisadiyyatına inteqrasiya prosesini əhəmiyyətli dərəcədə sürətləndirəcəkdir. Onu da xüsusi vurğulamaq lazımdır ki, mövcud ərazilərdə yeni iqtisadiyyat quruculuğu ümumi iqtisadi səmərəliliyin əldə olunması ilə yanaşı, məşğulluğun da səviyyəsinin artırılmasında həlledici rol oynayacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğunun formalaşması məsələləri "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında da öz əksini tapmışdır. Sərəncama əsasən, sahibkarlara əlverişli şəraitin yaradılması, maliyyə mənbələrinə çıxışın təmin edilməsi və yenilikçi ideyalara malik şəxslərin Qarabağda yeni iqtisadiyyat quruculuğuna cəlb edilməsi prioritet istiqamətlər kimi müəyyənləşdirilib.

Qarabağda yeni iqtisadiyyat quruculuğu prosesi başlanmışdır. Regionun demək olar ki, sıfırdan bərpası böyük maliyyə vəsaiti tələb edir. Lakin bunun bir sıra üstünlükləri də var. Belə ki, yeni, innovativ və rəqəmsal texnologiyalara əsaslanan bərpa və quruculuq işlərinin aparılması, dünyanın ən müasir şəhər və kəndlərinin tikilməsi imkanları genişdir.

Qarabağın azad və innovativ iqtisadiyyat mərkəzinə çevrilməsi üçün Azərbaycanın imkanları mövcuddur. Regionun təbii sərvətlərlə zəngin olması bir sıra istiqamətlərdə, xüsusilə sənaye və xidmət sahələrində innovativ məhsul istehsalı və xidmətlərin göstərilməsi üçün müqayisəli üstünlükləri yaradır. Qarabağın regionun elektronika sənayesi, İKT xidmətləri və ticarət-logistika mərkəzinə çevrilməsi imkanları var. Burada elektronika və İKT xidmətləri üzrə laboratoriyaların, beyin mərkəzlərinin, qeyd olunan istiqamətlərdə ixtisaslaşmış Startap inkubatorlarının yaradılması məqsədəuyğundur. Qeyd olunan istiqamətlər Qarabağda qurulacaq "ağıllı şəhər", "ağıllı kənd", "ağıllı fabrik" konsepsiyalarının reallaşması və gələcək inkişafı baxımından da əhəmiyyətli hesab olunur. Çünki elektronika məhsulları (buraya mikrosxemlər, videomüşahidə texnologiyaları, internet əşya texnologiyaları, məişət əşyaları və s. daxil ola bilər) və İKT xidmətləri "ağıllı" şəhər, kənd, fabriklərin idarə olunması, zəruri avadanlıqlarla təchiz edilməsi və gələcəkdə Azərbaycanın digər regionlarına transformasiya imkanlarını genişləndirəcək. Qarabağın müasir texnologiyalara əsaslanan əczaçılıq, kosmetik vasitələr və təbii bitki dərmanlarının istehsalı üçün əlverişli florası vardır. Bunlardan yaralanaraq əczaçılıq və kosmetik vasitələr istehsal etmək, dünya bazarına ixrac etmək imkanları var.

### Dövlət-özəl əməkdaşlığının effektiv formaları

Dövlət özəl əməkdaşlığı bazar iqtisadiyyatı seçmiş ölkələrdə, o cümlədən də ölkəmizdə iqtisadi inkişafın fundamental hərəkətverici qüvvələrindən biridir. Ona görə də heç təsadüfi deyil ki, ölkəmizdə hökumət tərəfindən bu istiqamətdə bir çox zəruri işlər görülmüş və təkmil normativ - hüquqi baza yaradılmışdır (Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 9 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında Əsasnamə", "Dövlət satınalmaları haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunları və s.). Lakin postkonflikt ərazilərin bərpası və yenidən qurulmasının yaratdığı reallıq burada da münasibətlərin təkmilləşməsini zərurətə çevirmişdir. Beynəlxalq təcrübə də göstərir ki, postkonflikt ərazilərin bərpa və yenidən qurulmasına tələb olunan on milyardlarla vəsaitin yalnız dövlət tərəfindən təmin olunması mümkün deyil və bu prosesdə risk və təhlükəsizlik xüsusiyyətləri nəzərə alınmaqla özəl sektorun iştirakı xüsusi əhəmiyyət daşıyır. Bu halda isə dövlət özəl əməkdaşlığının müvafiq formalarının (dövlət maliyyəsi və ya öz vəsaiti ilə iştirak) müəyyən edilməsi Azərbaycan hökumətinin bərpa və quruculuq işlərinin indiki mərhələsində önəm verdiyi əsas məsələlərdən biridir. Bu məqsədlə hökumətin tapşırığı ilə tədqiqat qrupu tərəfindən özəl sektorun istək və gözləntilərini, investisiya imkanlarını, fəaliyyət sahələrini, effektiv repatriasiya və məskunlaşmada iştirak formalarını müəyyənləşdirməyə imkan verən sahibkarların arasında xüsusi sorğu keçirilərək toplanmış məlumatlar təhlil edilmiş və müvaviq tövsiyələr hazırlanmışdır.

Təhlil göstərir ki, vergi güzəştləri, maliyyə yardımı, güzəştli kreditlər və ödənişsiz torpaq sahələri, eləcə də, ixrac-idxal prosedurları və sertifikatlaşdırmanın sadələşdirilməsi sahibkarların investisiya yatırmaqda əsas gözləntilərini ifadə edir. Sahibkarların qeyd olunan istək və gözləntilərinin nəzərə alınması işğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğunun sürətli inkişafını təmin etməklə yanaşı, dövlət-özəl münasibətlərinin effektiv təşkilinə (qurulmasına) şərait yaradacaqdır. Dövlət postkonflikt ərazilərin bərpa və yenidən qurulmasında və ölkənin ümumi iqtisadi sisteminə reinteqrasiyasında özəl sektorun və xarici sərmayelərin iştirakını stimullaşdırmaq məqsədilə geniş spektrli güzəşt paketlərinin hazırlanmasını və tətbiqini nəzərdə tutur. Dövlət Qarabağda yeni iqtisadiyyat quruculuğu prosesində sahibkarların bilavasitə yaxından iştirakında, eləcə də məşğulluğun, məskunlaşmanın, təhlükəsizliyin, məmnunluğun, etimadın, cavahdehliyin, müasirliyin, maliyyə təminatının, effektiv reinteqrasiyanın, minimum regional liderliyin təmin olunması və qlobal dünyanın çağırışlarına cavab verən iqtisadiyyat quruculuğunda maraqlıdır. Bu istiqamətdə təşviq tədbirləri həyata keçiriləcək, səmərəli dövlət-özəl sektor əməkdaşlığı qurulacaq ki, son nəticədə regionun sosial-iqtisadi inkişafına nail olunsun.

***Akif MUSAYEV,***
***AMEA-nın müxbir üzvü, professor, AMEA-nın İqtisadiyyat İnstitutunun Postkonflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri***



# Yeni inkişaf, yeni intibah mərhələsi

**Müdrik və qədirbilən Azərbaycan xalqı 11 aprel 2018-ci il seçkilərində növbəti dəfə dövlət başçısı cənab İlham Əliyevə etimad göstərərək və səs verərək onu daha 7 illik müddətinə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçdi.**

Seçkilərdə iştirak edən seçicilərin böyük əksəriyyəti - 86,02 faizi növbəti dəfə Ümummilli Lider Heydər Əliyev siyasi kursuna və onun layiqli davamçısı cənab İlham Əliyevə səs verərək etimad göstərməklə, seçimlərində yanılmadıqlarını bir daha nümayiş etdirdilər.

Ötən 4 ildə, bütövlükdə son 18 ildə baş verənlər, yaşananlar Azərbaycan vətəndaşlarının seçiminin nə qədər doğru və düzgün olduğunu ortaya qoydu.

Azərbaycan xalqı, Azərbaycan seçicisi 90-cı illərin əvvəllərindən fərqli olaraq populist, boğazdan yuxarı, aldadıcı, qeyri-real vədlərə deyil, konkret əmələ, Azərbaycanın inkişafına, gələcəyinə səs verməklə, öz addımlarında, öz qərarlarında stabil olduğunu bir daha gözlər önünə sərdi.

Qeyd etdiyimiz kimi, bizi prezident seçkilərindən 4 il ayırır və ötən bu illər müstəqil Azərbaycanın inkişafının, tərəqqisinin yeni mərhələsi hesab oluna bilər.

Daim Azərbaycan vətəndaşlarının yanında olan ölkə Prezidenti 4 ildə də insanlarımızın sosial rifah halının, güzəranının daha da yaxşılaşdırılması istiqamətində bütün addımları atdı və atmaqdadır.

Ölkə vətəndaşlarının, xüsusilə həssas təbəqədən olan insanların əməkhaqları, pensiyaları, müavinətləri dəfələrlə artırıldı. 2015-ci ildə baş vermiş iki dağıdıcı devalvasiyadan sonra yaşanmış və cəmiyyətin böyük kəsimini əhatə etmiş, onların narazılığına səbəb olmuş problemli kreditlər məsələsi 2019-cu ilin əvvəllərində birdəfəlik və kökündən həll edildi. Ölkə Prezidentinin analoqu olmayan tarixi fərmanı ilə yüz minlərlə Azərbaycan insanı bank asılılığından canlarını qurtardı.

Eyni zamanda ölkədə kadr və struktur islahatlarının yeni-inqilabi mərhələsinə start verildi. Paralellik təşkil edən strukturlar ləğv edildi və ya başqa qurumlara birləşdirildi, yerində olmayanlar və zamanın, islahatların tələblərinə cavab verməyənlər dövlət idarəçiliyindən uzaqlaşdırıldı, kənarlaşdırıldı. 2019-cu ilin sonlarında islahatlar ab-havasına uyğun olaraq 5-ci çağırış Milli Məclis vaxtından əvvəl buraxıldı və 2020-ci ilin fevralında tam demokratik əsaslarla, şəffaf şəkildə növbədənkənar 6-cı çağırış Milli Məclisə seçkilər keçirildi.

6-cı çağırış Milli Məclisin açılış iclasında iştirak edən ölkə Prezidenti öz tarixi nitqində ölkədə siyasi həmrəyliyin əldə edilməsi üçün bütün qüvvələrə dialoq çağırışı etdi. Parlamentin rəhbərliyindən tutmuş komitə və komissiyalarına qədər hamısı müxtəlif partiyaların Milli Məclisdəki nümayəndələrinin təmsilçiliyi ilə formalaşdırıldı. 30 ildən sonra ilk dəfə olaraq parlamentə xanım millət vəkili Sahibə xanım Qafarova sədr seçildi.

2020-ci ilin əvvəllərindən bütövlükdə dünyanı ağuşuna almış "gizli düşmən" - koronavirus pandemiyası ölkəmizə də təsirsiz ötüşmədi, bizlərin də qapısını "çağırılmamış qonaq" kimi döydü. Dünyanın aparıcı, nəhəng dövlətlərindən fərqli olaraq Azərbaycan dövləti, Azərbaycan Prezidenti bu bəlaya çox ciddi yanaşdı və onun qarşısının alınması üçün ilk gündən önəmli önləyici addımların atılmasına başladı.

Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı, bütün məsələlərdə örnək və nümunə olan Azərbaycan Prezideti və onun ən sadiq, ən yaxın silahdaşı birinci xanım, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bir illik əməkhaqlarını həmin fonda ianə etdilər. Eyni zamanda hər ikisi qapalı məkanlarda tibbi maska və əlcəklərdən istifadə etməklə hər kəsə nümunə və örnək oldular. Bütövlükdə 5 milyona yaxın insanı əhatə edən bir neçə milyardlıq sosial paket icraya yönəldildi. Bununla belə, beynəlxalq təşkilatlara, bir sıra dövlətlərə bu dağıdıcı və qorxulu bəlaya qarşı mübarizə məqsədilə kömək, yadım əli uzadıldı, onlara maliyyə dəstəyi göstərildi, növbəti Azərbaycan nümunəsi, Azərbaycan modeli ortaya qoyuldu. Dünya bir daha Azərbaycanı gördü, tanıdı və etiraf etdi.

Son 4 ilin, bütövlükdə isə 31 illik müstəqilliyimizin ən mühüm hadisələrindən biri və bəlkə də birincisi yaşandı, 30 illik qanlı Qarabağ münaqişəsinə son qoyulması istiqamətində tarixi qərar verildi, bu məsələyə son nöqtə qoyuldu. 2020-ci il sentyabrın 27-də səhər saatlarında Ermənistanın növbəti dəfə törətdiyi qanlı təxribatlara və fitnəkarlıqlara cavab olaraq Ali Baş Komandan tərəfindən Azərbaycan Ordusuna "Vur!", "Hücum!" əmri verildi. Azərbaycan Ordusu bütün cəbhəboyu əks-hücum əməliyyatına keçdi, İkinci Qarabağ Savaşına, Qarabağ və ona bitişik ərazilərin işğaldan azad edilməsinə başladı.

Cəmi 44 günə Azərbaycan torpaqları, Qarabağımız murdar yağı tapdağından, erməni işğalından, erməni əsarətindən qurtuldu. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi onun bütün ərazilərində təmin olundu, ay-ulduzlu, üçrəngli bayrağımız bütün yurd yerlərimizdə qürurla dalğalandırıldı. Düşmən və onun qanlı himayədarları üzərində tarixi və müqəddəs Qələbə və Zəfər əldə edildi. Dağlı-aranlı Qarabağ Vahid Azərbaycan oldu. 10 noyabr Bəyanatı ilə işğalçı və təcavüzkar ölkə Azərbaycan qarşısında təslimiyyətini, məğlubiyyətini elan etdi. 10 dekabr tarixi Zəfər paradı ilə Azərbaycan bir daha dünyaya nələrə qadir olduğunu və ola biləcəyini nümayiş etdirdi.

Bu gün artıq nə Dağlıq Qarabağ deyilən coğrafi anlayış var, nə status-kvo, nə status var, nə cəbhə, nə də ki təmas xətti var. Hamısı cəhənnəmə göndərildi, gorbagor edildi. Bu gün 86,6 kvadratkilometrlik vahid Azərbaycan var. Bu gün məğlub Azərbaycandan Qalib Azərbaycana çevrilmiş əzəmətli Azərbaycan var!

10 noyabrdan, tarixi Qələbə və Zəfərdən sonra Qarabağın dirçəldilməsi, bərpa edilməsi işlərinə start verildi. Ölkə Prezidentinin işğaldan azad edilmiş yurd yerlərimizə səfərləri başladı. Hər bir səfər də öz tarixiliyi ilə yaddaşlara həkk olundu. Tarixi açılışlar, təməlatmalar baş verdi və verməkdədir. Qarabağın, bütövlükdə Azərbaycanın təhlükəsizliyinin təminatı istiqamətində tarixi "Şuşa - Müttəfiqlik Bəyannaməsi" imzalandı. Şuşa şəhərində bir araya gələn Azərbaycan və Türkiyə liderləri-cənab İlham Əliyev və hər zaman yanımızda olan cənab Rəcəb Tayyib Ərdoğan qardaşlığımızın, birlik və bərabərliyimizin daha da dərinləşdirilməsi istiqamətində "Şuşa-Müttəfiqlik Bəyannaməsi"nə mübarək imzalarını atmaqla, bir daha dünyaya "Bir millət-iki dövlət" olduğumuzu əyan və bəyan etdilər.

Uğurlarımızı, nailiyyətlərimizi, Qələbə və Zəfərlərimizi saymaqla bitirib-qurtarmaq olmur. Qalib sərkərdə müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, müdrik və uzaqgörən siyasəti ilə bütün müstəvilərdə hər gün, hər an tarix yazılır, Qələbə və Zəfərlər əldə edilir.

Bundan sonra da cənab İlham Əliyevin rəhbərliyi altında daha çox Zəfərlərə imza atacaq, imzamızı imzalar içində daha da bərqərar edəcəyik!

*Eldar İBRAHİMOV,*
*Milli Məclisin İntizam komissiyasının sədri, iqtisad elmləri doktoru, professor*

# Regiona sülh gətirən qətiyyətli Lider

**Hər bir tarixi qələbənin qazanılması və möhkəmləndirilməsi uzunmüddətli proseslərin nəticəsidir. Dövlətimiz torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi ilə bunu bir daha dünyaya nümayiş etdirdi.**

Təxminən 30 ilə yaxın çəkən münaqişənin cəmi ayyarım ərzində və mümkün qədər az insan itkisi ilə yoluna qoyulması Azərbaycan Respublikasının Prezidenti, müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyevin bu müharibəyə illərlə apardığı hazırlıq prosesinin məntiqi yekunu idi.

## Qələbəyə gətirən yollar

Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfər milli birliyimizin təntənəsinə çevrildi. O tarixi günlərdə Azərbaycan xalqı bir nəfər kimi Ali Baş Komandanla həmrəylik, inam, etibar, yüksək vətənpərvərlik, əzmkarlıq nümayiş etdirdi. Bütün gücü, imkanları, güvəni ilə dövlət başçısının yanından çəkilmədi. Əli silah tutan hər bir insan ordu sıralarına yazılmaq üçün növbəyə durdu. Bu, yeni şanlı tarixin başlanğıcı, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi və böyük liderin qələbəsiydi.

Həmin günlərdə Ali Baş Komandan mahir sərkərdə kimi təkcə döyüşləri idarə etmirdi, durmadan irəliləyən ordumuzun apardığı hərbi əməliyyatları yönləndirmirdi, eyni zamanda özü də diplomatiya səngərində vuruşurdu, informasiya savaşı aparırdı. Ermənistanın və onun saysız-hesabsız havadarlarının informasiya təxribatlarını uğurla dəf edirdi, xarici KİV-ə verdiyi müsahibələrlə təxribatçıları susdururdu. Düşmənin uydurma miflərini ifşa edirdi. Azərbaycanın bu savaşda haqlı olduğunu, ədalət uğrunda çarpışdığını bütün dünyaya faktlar, aydın dəlillərlə çatdırırdı.

Prosesin döyüş əməliyyatları hissəsi cəmi 44 gün çəkdi və şanlı ordumuzun tarixi Zəfəri ilə tamamlandı. Başqa cəbhələrdə isə Azərbaycan elə 30 ilə yaxın müddət idi ki, mübarizə aparırdı. Vəziyyəti addım-addım xeyrimizə dəyişirdi.

İlk növbədə, Azərbaycan bu qələbəyə Ulu Öndər Heydər Əliyevin ötən əsrin ortalarından başlayaraq ölkəmizə qazandırdığı iqtisadi güc hesabına nail oldu. O dövrdə mənasız insan itkilərinin qarşısını almaq üçün Ermənistanla bağlanmış atəşkəs sazişi Azərbaycana əsas diqqəti yeni neft strategiyasını həyata keçirməyə, irimiqyaslı sosial-iqtisadi layihələri reallaşdırmağa, cəmiyyətimizdə müəyyən narahatlıqlar yaradan problemləri aradan qaldırmağa, demokratik hüquqi dövlət quruculuğu proseslərinə yönəltməyə, milli birliyə nail olmağa imkan verdi. Azərbaycan dövləti getdikcə artan iqtisadi potensialından istifadə edərək güclü nizami ordu yaratdı. Münaqişənin ilk vaxtlarında erməni lobbisinin ölkəmiz ətrafında qurduğu informasiya blokadasını yarmaqdan ötrü cəhdlərini intensivləşdirdi. Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa başladı.

Bütün bu proseslər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə daha da genişləndi və gücləndi. Dövlət rəhbərimiz Azərbaycan torpaqlarının işğalçılardan təmizlənməsinə daim əsas prioritet, mühüm məsələ kimi yanaşdı. Ölkəmizin iqtisadi gücünü, potensialını bu məqsədə yönəltdi. Azərbaycanda ölkəmizə qarşı yol verilmiş haqsızlıqları, tarixi ədalətsizlikləri bir an da olsun unutmayan, torpaqlarımızın azadlığı üçün döyüşlərə atılmağa hər zaman hazır olan güclü, vətənpərvər gənc nəsil yetişdirdi. 44 günlük müharibədə Azərbaycan erməni işğalçılarını öz torpaqlarından bu nəslin döyüş ruhu, mübarizə əzmi ilə qovub çıxartdı. Prezident İlham Əliyev Azərbaycanda dünyanın ən qüdrətli ordularından birini qurdu. Hərbi qüvvələrimizin malik olduğu innovativ silah və texnologiyalarla ölkəmiz 44 günlük Vətən müharibəsində XXI əsrin müharibəsini apardı. Mülki əhaliyə heç bir xətər toxundurmadan, qarşı tərəfin yalnız hərbi obyektlərini hədəf seçməklə Ermənistan ordusunu, demək olar ki, sıradan çıxardı. Bütün dünya gördü ki, haqqı sübuta yetirməkdən ötrü təkcə beynəlxalq hüquq normaları kifayət etmir. Doğrunun, ədalətin sənin tərəfində olması ilə hələ iş bitmir. Qələbə arzusuna çatmaq üçün həm də güclü, qüdrətli olmalısan. Yeri gələndə vuran "dəmir yumruğ"un zərbəsini də göstərməlisən.

Prezidentimizin daxili və xarici siyasətinin uğurları hesabına regionun lider dövlətinə, nüfuzlu söz sahibinə çevrilmiş ölkəmizin qlobal dünya üçün daşıdığı əhəmiyyət, dövlətimizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji-kommunikasiya layihələrinin beynəlxalq səviyyədəki önəmi bu məsələlərdə Azərbaycanın əlini daha da gücləndirdi.

## Qətiyyətin gücü

2003-cü ildən bəri ölkəmizə rəhbərlik etdiyi dövrdə Prezident İlham Əliyev öz qətiyyətindən, Azərbaycanın haqlı mövqeyindən bir an da olsun geri addım atmadı. Bütün təzyiq və təhdidlərə rəğmən, hamıya göstərdi ki, Azərbaycanı heç bir güzəştə məcbur etmək mümkün deyil. Doğru olanı dilə gətirdi, düzgün qərarlar verdi və başqalarına da bu yolun ən doğrusunu göstərdi. Bəyan etdi ki, ölkəmiz nə yolla olur-olsun, torpaqlarını işğalçılardan azad edəcək. Dövlət rəhbərimiz bunun üçün illər boyu bütün istiqamətlərdə hazırlıqlar apardı. Sülh danışıqlarına sadiq qaldı. Məsələnin qansız-qadasız yoluna qoyulmasından ötrü ən kiçik imkanları belə dəyərləndirməyə çalışdı. Ermənistana düşünmək, öz işğalçı mövqeyindən geri çəkilmək, əsassız yerə insan ölümlərinə bais olmamaq üçün dəfələrlə şans verdi. Əgər aparılan danışıqlar səmərə verməzsə torpaqlarımızın hərbi yolla azad olunması üçün eyni zamanda ordu quruculuğuna diqqəti artırdı. Cəmiyyətimizdə əsas amilə çevrilən milli birliyə nail oldu. İnsanları ümumi ideya, prinsip, məqsəd ətrafında birləşdirməyi bacardı. Dəyişən qlobal və reqional reallıqlar şəraitində ölkənin milli maraqlarını qoruya bildi.

Liderin nüfuzu həm də onun təsir imkanlarının əhatə dairəsi ilə ölçülür. Güclü dövlət adamının fəaliyyətinin təsir dairəsi isə bir ölkə ilə məhdudlaşmır, bütövlükdə regional, hətta qlobal əhəmiyyət daşıya bilir. Bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət regionda gedən siyasi, iqtisadi proseslərin axarına həlledici təsirini göstərir. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər yerində, məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə də dünya liderləri dövlət başçımızın baxışlarına, təklif və təşəbbüslərinə böyük önəm verirlər. Prezident İlham Əliyev bu illər ərzində ölkəni lider dövlətlər sırasına yüksəltdi. Azərbaycan indi Avropa ilə Asiya qitələrini siyasi, iqtisadi, mədəni nöqteyi-nəzərdən birləşdirən regional güc mərkəzidir.

## Düzgün siyasət

Azərbaycanın sürətli inkişafı və əldə edilmiş mühüm tarixi nailiyyətlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi və iqtisadi kursun qanunauyğun nəticəsidir. Dövlət başçısının qeyd etdiyi kimi: "Düşünülmüş siyasət, siyasi və iqtisadi islahatlar, xalqla iqtidar arasında birlik, xalq tərəfindən ölkədə aparılan iqtisadi islahatlara dəstəyin verilməsi, liberal iqtisadiyyat, eyni zamanda güclü hakimiyyət, sabitlik - budur bizim uğurlarımızı şərtləndirən əsas amillər".

Bu gün xalq-iqtidar birliyi daxili və xarici siyasət kursunun səmərəliliyini təmin edən əhəmiyyətli strateji faktor kimi çıxış edir. Eyni zamanda mütəmadi surətdə həyata keçirilən islahatlar mövcud inkişafı sürətləndirməklə yanaşı, yeni inkişaf perspektivlərinin müəyyənləşdirilməsini şərtləndirir. İlk növbədə, rasional iqtisadi islahatlar Azərbaycan iqtisadiyyatının dinamik inkişafını təmin edən mühüm amil qismində çıxış edir. Ölkə iqtisadiyyatının inkişafı üçün mütəmadi surətdə reallaşdırılan praqmatik islahatlar modeli formalaşdırılıb. Bu da bütövlükdə milli inkişafa təkan verən əhəmiyyətli amildir. Eyni zamanda güclü iqtisadi inkişafa əsaslanan bir sıra tədbirlərin görülməsi Azərbaycanın milli tərəqqisini sürətləndirən, gücünü artıran başlıca strateji komponent qismində özünü büruzə verir. Makroiqtisadi sabitliyin qorunub saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə ardıcıl inkişaf strategiyası uğurla həyata keçirilməkdədir.

Digər mühüm məsələ ölkədə hökm sürən ictimai-siyasi sabitliklə bağlıdır. Azərbaycan bu gün ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasında ilk yerlərdən birini tutur. Dövlətimizin beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdədir. Prezident İlham Əliyevin xarici siyasət kursu bütün dünyada bizə xoş münasibət bəsləyən, Azərbaycanın haqlı mövqeyini dəstəkləyən dostlarımızın sayını artırdı. "Bir millət-iki dövlət" olan, hər zaman yanımızda qərar tutub haqq işimizə dəstək verən, bu gün qlobal proseslərə təsir imkanları ilə qürur duyduğumuz Türkiyə ilə qardaşlığımızı ən yüksək mərhələyə qədər inkişaf etdirdi. Dövlət rəhbərimizin Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla şəxsi münasibətləri, bir-birinə olan sonsuz sayğısı, hörməti, inam və güvəni bu münasibətlərə yeni dəyərlər qatdı.

Prezident İlham Əliyev beynəlxalq təşkilatların işğal faktına münasibətdə Azərbaycanın xeyrinə müvafiq qərar və qətnamələr qəbul etməsinə nail oldu. İştirak etdiyi bütün tədbirlərdə bu məsələni gündəmə gətirdi. Ölkəmizin ədalətli mövqeyini çatdırdı. Ermənistanın illərdən bəri yaratdığı saxta mifləri ifşa etməyi, dünya ictimaiyyətini Azərbaycanın haqlı mövqeyinə inandırmağı bacardı. Eyni zamanda gələcəyə aydın baxışı ilə regionun inkişaf mənzərəsini müəyyən edə bildi. Bu regionda strateji maraqları olan bütün ölkələrə aydın dəlillərlə göstərdi ki, əgər münaqişə ədalətli qaydada öz həllini taparsa, bölgəmizdə bütün qonşular və ümumən, dünyanın əhəmiyyətli bir hissəsi üçün son dərəcə faydalı olan yeni tarixi reallıqlar yaranar. Prezident İlham Əliyev sarsılmaz qətiyyəti, səbri, təmkini, diplomatik məharəti ilə bu yeni reallıqları yaratmağı bacardı. Əslində, 30 ilin deyil, təxminən 200 ildən də artıq zamanın problemini həll etdi. Azərbaycan ilk dəfə öz itirilmiş torpaqlarını geri almağa müvəffəq oldu.

## Yeni tarixi reallıqlar

Prezidentimizin yaratdığı tarixi reallıqların aynasında bu gün hər kəs görür ki, Azərbaycan torpaqlarının illərdir işğal altında saxlanması, münaqişənin həllini tapmadan qalması kimsənin marağında deyilmiş. Ermənistan bu illərdə Azərbaycan torpaqlarında dağıdıcılıqdan, vandalizmdən başqa heç bir fəaliyyətlə məşğul olmayıb. Bu torpaqların zəngin resurslarından istifadə üçün heç bir iş görülməyib. Burada daş-daş üstünə qoyulmayıb, əksinə, şəhər, qəsəbə və kəndlərimiz yerləyeksan edilib. Ərazilərin qurulu infrastrukturu vəhşicəsinə talan olunub. Ermənistanın işğalçı mövqeyi ucbatından dünya iqtisadiyyatı üçün çox əlverişli, səmərəli bir kommunikasiya kanalı hamının üzünə qapanıb, özünü bütün imkanlardan təcrid edib, regional layihələrdən kənar düşüb. Sosial-iqtisadi cəhətdən tamamilə asılı, əhalisi sürətlə xarici ölkələrə qaçıb gedən və heç bir gələcəyi olmayan, eyni zamanda aqressiv mövqeyi ilə regionda sülh, təhlükəsizlik, davamlı inkişaf üçün böyük təhdidlər doğuran ölkəyə çevrilib.

Azərbaycan əgər iki ölkə arasında daimi sülh əldə olunarsa, Ermənistan aqressiv mövqeyindən əl çəkib haqq yoluna gələrsə, regionun bir parçasına çevrilməyi istəyərsə, bölgədə yarana biləcək inkişaf mənzərəsini, qarşılıqlı faydaları da hər kəsə göstərməyi bacarır. Ermənistandakı bir qrup revanşistin saxta hüy-küyü fonunda dünyaya da, Ermənistan cəmiyyətinə də böyük perspektivlər təqdim edər. Bu gün tarixi qələbəmiz bütün dünyada qəbul olunur, prosesin yeni mərhələyə daxil olması, Azərbaycanla Ermənistan arasında daimi sülhün əldə edilməsi, kommunikasiyaların açılması, yeni regional əməkdaşlıqların qurulması üçün ölkəmizin mövqeyi beynəlxalq aləmdə dəstəklənir. Hərbi qələbəmizin ardınca ölkəmizin diplomatik uğurlarının da sırası genişlənir. Tezliklə daimi sülhün əldə olunmasına doğru aydın yol görünür.

## Əbədi sülhün təməli

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev adını tarixə torpaqlarımızı işğaldan azad edən dövlət rəhbəri kimi yazdı. Yeni strateji mərhələdə isə bu ad Qafqazın tarixinə torpaqlarında əbədi sülhün təməlini qoymuş Lider kimi yazılacaq. Prezidentimizin bu günlərdə Brüsselə səfəri, burada Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Ermənistanın baş naziri Nikol Paşinyanla keçirdiyi görüşlər, həmin görüşlərin pozitiv nəticələri bunun daha bir təzahürü oldu.

Brüssel görüşləri ilk növbədə Prezident İlham Əliyevin dünyadakı böyük nüfuzunun göstəricisi, Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğurudur. Bu uğurun miqyasını və böyük perspektivlərini tam görmək üçün tarixi xronologiyaya qısaca nəzər salaq. Belə ki, Prezident İlham Əliyevin görüşləri və apardığı danışıqlar nəticəsində postmüharibə dövründə yeni format - Brüssel sülh gündəliyi yarandı. İlk üçtərəfli görüş 2021-ci ilin14 dekabrında keçirildi. Beləliklə də Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyuldu. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar başlandı, müntəzəm olaraq telefon danışıqları aparıldı.

Aprelin 6-da keçirilən sonuncu görüşün nəticələri artıq sülh məqsədinə doğru xeyli irəliləyişlərin əldə edildiyini göstərdi. 4 saat yarımdan artıq davam edən görüşün nəticəsi olaraq Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılması qərara alındı. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan XİN-inə müvafiq təlimatlar verildi.

## Azərbaycanın ərazi bütövlüyü əsas məqamdır

İndiyə qədər də mətbuatda açıqlanan mövqelərdə qeyd edildiyi kimi, sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Azərbaycanın ərazi bütövlüyü bu sənədin əsas məqamıdır.

Tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, ilk növbədə sərhədlərin delimitasiya prosesinə başlaması barədə artıq razılıq əldə olunub. Bunun nəticəsi olaraq sərhəddə gərginlik aradan qaldırılır. Brüssel razılaşmalarında Avropa İttifaqının minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcə də azad yurdlarımızdakı quruculuq işlərində Azərbaycana dəstək göstərməsi öz əksini tapıb. Həmçinin nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, İqtisadi Məşvərət Şurası mexanizminin təşkili qərara alınıb.

Sənədin ən önəmli cəhətlərindən biri də budur ki, onun məzmununda "Dağlıq Qarabağ" ifadəsi və ya keçmişin qalığı olan ATƏT-in Minsk qrupu həmsədrlik institutuna hər hansı istinad yoxdur. Bu da Avropa İttifaqının 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul etdiyini, öz mövqeyində də bunu əsas götürdüyünü göstərir. Həmçinin münaqişə həll olunduğundan ATƏT-in Minsk qrupunun artıq lazımsız bir təsisata çevrildiyinin hər kəs fərqindədir. Avropa İttifaqının dəstəyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranmışdır ki, hazırkı reallıqlar fonunda bu daha səmərəli, çevik və ümidvericidir. Sülh sazişinin hazırlanması ikitərəfli formatda həyata keçiriləcək. Bu da bölgədə maraqlı tərəflərin prosesdə birbaşa iştirak etməməsi deməkdir. Avropa İttifaqının qlobal proseslərdəki çəkisi, sanbalı, proseslərə təsir imkanları, eyni zamanda sülhün əldə edilməsi arzusunda qərarlı və ardıcıl görünməsi də bu ümidləri artırır. Belə ki, Avropa İttifaqı müasir dünyamızın ən böyük siyasi və iqtisadi mərkəzlərindən biridir. Qərəzsiz və bitərəfliyini qoruduğundan həm Azərbaycanda, həm də Ermənistanda bu təşkilata etimad var. Avropa İttifaqının da əsas məqsədi ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır.

## Azərbaycan Prezidentinə beynəlxalq inam

Burada mühüm bir amili də unutmaq olmaz. Son illər Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər yeni inkişaf səviyyəsinə yüksəlib. Avropa İttifaqına daxil olan ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin rolu genişlənib. Bütün bunlar belə bir nüfuzlu təşkilatın regionda sülh, qarşılıqlı əməkdaşlıq istəyini şərtləndirən amillərdəndur.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə Prezident İlham Əliyev arasında intensiv dialoq və təmaslarda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanması, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və digər məsələlərin həlli istiqamətində əməli addımlar atılması üçün mühüm şərtdir.

Avropa İttifaqının dövlət rəhbərimizə münasibəti bu qurumun cənab İlham Əliyevin regional liderliyini qəbul etdiyini, ona inandığını göstərir. Bu, həm də Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsində, burada davamlı inkişaf və qarşılıqlı əməkdaşlıq mühitinin qurulmasında Prezident İlham Əliyevin şəxsiyyətinin müstəsna önəminə dəlalət edir. Ona görə də Avropa İttifaqı Azərbaycan Prezidenti ilə təmasların davam etdirilməsində maraqlıdır. Son iki ayda dövlət başçımızla dünya liderləri, dövlət və hökumət rəhbərləri arasında gedən sıx dialoqlar, telefon danışıqları, ünvanlanmış məktublar da Azərbaycan Prezidentinin dünyadakı böyük nüfuzunun göstəricisidir.

Hazırda Ermənistanda gedən müzakirələr də Azərbaycan Prezidentinin siyasi-diplomatik səylərinin böyük səmərə verdiyini, qonşu dövlətin müxtəlif iddialarla prosesi ləngitmək cəhdlərinin alınmadığını sübuta yetirir.

Azərbaycan Prezidenti bəşəriyyətin xoşbəxt gələcəyini qarşıdurmalarda, ziddiyyətlərdə deyil, məhz əməkdaşlıqda, problemlərə birgə həllər axtarmaqda görür. Bu reallıq, ümumən, Cənubi Qafqazın xoşbəxt gələcəyi üçün xoş bir başlanğıcdır. Əsas amal, əsas niyyət Cənubi Qafqazı sülh, əməkdaşlıq, davamlı inkişaf məkanına çevirməkdir.

Bütün bunlar yeni bir tarixdir. Bu tarixin müəllifi isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir!

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*



# Cəlilabadlılar deyirlər: "Biz İlham Əliyevə Ulu Öndər Heydər Əliyev qədər inanırıq"

**İnam. O elə bir hissdir ki, illərin sınağından keçərək yaranır, ürəklərdə məskən salır. 1970-ci planədək Azərbaycan tərkibində olduğu ittifaqın geridə qalan respublikaları sırasında idi. O zaman yalnız neftinə görə Bakını, nəğmələrinə görə Rəşid Behbudovu tanıyırdılar.**

Bu cümlələri yazarkən tarixdə şəxsiyyətin rolu ifadəsi yadıma düşür. Tarixmi şəxsiyyətləri, yoxsa şəxsiyyətlərmi tarixi yaradır? 1969-cu ildən sonra respublikamızdakı mühit, yeni canlanma, dirçəliş gözlərimin önündən gəlib keçir. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra gərgin əməyi, polad iradəsi, böyük siyasəti ilə Azərbaycanı süstlük, laqeydlik, gerilik bataqlığından çıxardı. Hər sahədə uğurlar əldə olundu, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artdı. Şəhər və kəndlərimiz abadlaşdı, insanların həyat şəraiti xeyli yaxşılaşdı. Azərbaycan keçmiş SSRİ-də ən öncül sıralara çıxdı. Buna görə yüksək nəticələr əldə edən əmək adamları Sosialist Əməyi Qəhrəmanı kimi fəxri ada layiq görüldülər, orden-medallarla təltif edildilər, mükafatlar aldılar, yuxarı orqanlara seçildilər. Təkcə əmək adamları deyil, onlarca yazıçı və şairlər, rəssam və bəstəkarlar, sənət adamları və ziyalılar da mükafatlandırıldılar.

Xalqımızın böyük oğlu SSRİ kimi super gücə malik olan, dünyanın nizamını düzənləyən bir ölkənin rəhbərliyinə - Moskvaya çağırıldı. Sov. İKP Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi ona tapşırılan ən ağır sahələrin idarə olunması üçün bütün qüvvə və bacarığını əsirgəmədi. Amma ermənilərin hiyləgərlik toruna düşən M.Qorbaçov bu böyük şəxsiyyəti vəzifədən uzaqlaşdırmaq üçün ən çirkin əməllərə əl atdı. Bədnam qonşularımızın başbilənləri qarşılarındakı maneənin aradan götürüldüyünü görüb Azərbaycana qarşı əsrlərlə içlərində yaşatdıqları nifrətin tonqalını yandırdılar, keçmiş Dağlıq Qarabağı Ermənistana birləşdirmək arzusunu reallaşdırmağa başladılar. Havadarlarının köməyi ilə 1990-cı illərin ilk illərində rayonlarımızı bir-bir işğal etdilər.

Bunun bir səbəbi də respublikamızın daxilindəki çəkişmə, vəzifə, hakimiyyət üstündə gedən dava və bunun nəticəsində yaranan xaos, özbaşınalıq, hərc-mərclik və s. idi. Vəziyyəti belə görən xalq çıxış yolunu Vətəni Azərbaycanı canından artıq sevən Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. "Haqq incələr, ancaq üzülməz", - deyiblər. Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın vətəndaş müharibəsinin astanasında olduğunu görən xalq təkidlə Heydər Əliyevi Naxçıvandan Bakıya çağırdı.

Ölkədə isə vəziyyət yaxşı deyildi. Gəncədə, Lənkəranda baş qaldıran ayrı-ayrı qruplar, separatçı qüvvələr Azərbaycanı parçalanmaq təhlükəsi qarşısında qoymuşdular. Həyatını təhlükəyə atan Ulu Öndər bütün qarşıdurmaları aradan qaldırdı, siyasi iradəsi, təcrübəsi və səriştəsi ilə vəziyyəti sabitləşdirdi, ölkəni məhv olmaq, dünya xəritəsindən silinmək bəlasından xilas etdi. Adını müxalifət qoymuş düşmən dəyirmanına su tökən radikal qüvvələr tədricən zərərsizləşdirildi, cəbhədə ermənilərlə atəşkəs əldə olundu, ölkədə sabitlik yarandı. Bu tədbirlər iqtisadiyyatı dağılmış, bərbad hala düşmüş Azərbaycana hava və su kimi lazım idi. Yaranan sabitlik inkişafa şərait yaratdı. Neft müqavilələri imzalandı, islahatlar həyata keçirildi. Deyilənlər o zaman görülən böyük işlərin ən yığcam xronikasıdır. Heydər Əliyevin xalq, millət, dövlət üçün gördüyü işlər ölçüyəgəlməzdir. O, bugünkü Azərbaycan Respublikasının banisidir desək, səhv etmərik. İllər keçdikcə bu böyük şəxsiyyətin xalqımız, dövlətimiz üçün gördüyü nəhəng işlərin yeni-yeni tərəfləri açılır. Zaman onu bizdən uzaqlaşdırdıqca, o, bizə daha da yaxın görünür.

Yazının sərlövhəsində cəlilabadlıların Ulu Öndərə böyük inam bəslədiklərini qeyd etməyimiz səbəbsiz deyil. Heydər Əliyev hələ keçən əsrin ortalarında rəhbər vəzifələrdə işləyərkən sərhəd rayonu Cəlilabada tez-tez gəlib-gedirdi. Hətta rayonda yaxından tanıdığı adamlar da olub. Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə Cəlilabadın sosial-iqtisadi inkişafı üçün mühüm qərarlar qəbul etmişdir. Nəticədə rayonda taxılçılıqla yanaşı, kənd təsərrüfatının digər sahələri, o cümlədən üzümçülük sürətlə inkişaf etmişdir. Yaradılan şərab zavodları yeni iş yerlərinin açılmasına, adamların gəlirlərinin artmasına səbəb olmuşdur. Nəticədə Cəlilabad şəhəri, qəsəbə və kəndlər abadlaşaraq simasını dəyişmişdir. Qışda palçıq, yayda toz-torpaqlı olan küçələr asfaltlaşdırılmış, yeni sosial əhəmiyyətli binalar, obyektlər, yaşayış evləri tikilmiş, əhalinin həyat şəraiti, gün-güzəranı yaxşılaşmışdır.

Müstəqilliyimizin ilk illərində respublikaya rəhbərliyinin ikinci dövründə də Ulu Öndər rayonu həmişə diqqət mərkəzində saxlamış, mövcud çətinliklərin aradan qaldırılması üçün tədbirlər görmüşdür. Qədirbilən Cəlilabad camaatı bunları heç vaxt unutmur. Yaşlı nəslin nümayəndələri o illəri ən əziz xatirələrtək ürəklərində saxlayır, xeyirdə-şərdə yeri gəldikcə bu barədə söz açırlar.

Baxış Mustafayev, Cəlilabad rayonunun Alar kənd sakini, əmək veteranı: "Ağıllı, müdrik adamlar həyatın, ömrün əbədi olmadığını yaxşı bilərək xalqa, dövlətə nümunəvi xidmət etməklə bərabər, özlərinin varislərini yetişdirmək haqda da düşünürlər. Ulu Öndər Heydər Əliyev hələ hakimiyyətinin birinci dövründə Cəlilabada səfərləri zamanı İlham Əliyevi də özü ilə gətirərdi. Taxıl, üzüm sahələrində sadə əmək adamları ilə etdiyi söhbətləri, şux zarafatları hamı kimi gənc İlham da maraqla dinləyirdi. "Ot kökü üstündə bitər" deyiblər. Zaman keçdi, İlham Əliyev 2003-cü ilin oktyabr ayında Prezident seçildi. Etiraf edək ki, o vaxt ölkəmiz iqtisadi cəhətdən indiki kimi qüdrətli deyildi. Həmin ilin sonlarından neftdən gələn gəlirlər ölkə büdcəsinə daxil olmağa başladı. Növbəti ilin, yəni 2004-cü il fevral ayının 11-də regionların sosial-iqtisadi inkişafı ilk dövlət proqramı qəbul edildi. Proqram çərçivəsində Cəlilabadda da başqa rayonlarımızda olduğu kimi tikinti-quruculuq, abadlıq işlərinə başlanıldı. Yeni məktəblər, xəstəxanalar, sosial əhəmiyyətli obyektlər tikildi, müasir müəssisələr yaradıldı, sıradan çıxmış üzüm bağları bərpa edildi, yollar salındı. Sadaladığımız bu işlər sonra qəbul olunan dövlət proqramları çərçivəsində daha geniş və davamlı şəkildə davam etdi. Cəlilabad şəhəri, qəsəbə və kəndlər simasını dəyişdi. Torpaq mülkiyyətçiləri, fermerlər dövlətin onlar üçün yaratdığı imkanlardan yararlanaraq yaxşı qazanc əldə etdilər ki, bu da onların gün-güzəranlarının yaxşılaşmasına səbəb oldu.

Lakin uzun zamandan bəri adamların ürəyində bir nisgil, bir həsrət vardı. O da Qarabağ dərdi idi. İnsanların ümidi get-gedə tükənirdi. Sən demə, Prezident, Ali Baş Komandan İlham Əliyev Qarabağ probleminin həlli yolunu zərgər dəqiqliyi ilə ölçüb-biçirmiş. 27 sentyabr 2020-ci il tarixdə başlayan müharibədə iqtidar, ordu, xalq birliyi özünü aydın göstərdi. Hamı dövlət başçısının ətrafında "dəmir yumruq" kimi birləşdi. 30 ilə yaxın düşmən tapdağı altında qalan torpaqlarımız 44 günlük döyüşlə azad edildi. Bu, Azərbaycan tarixində indiyədək görünməmiş bir hadisə idi.

İllər, qərinələr, əsrlər keçəcək, bu cahanşümul qələbə nəsillər üçün örnək olacaq. Bəli, İlham Əliyevin rəhbərliyi altında şanlı bir qələbə qazanıldı. Özü də təkcə döyüş meydanında yox. Prezident siyasət, kütləvi informasiya cəbhəsində də sözünü dedi. Dövlət başçısının həmin günlər bəzi xarci ölkələrin başçılarına, öyrədilib üstümüzə göndərilən KİV nümayəndələrinə verdiyi tutarlı, məntiqli cavablarını eşidəndə adamın ürəyi dağa dönürdü".

Fazil Əsədov, əmək veteranı, təcrübəli üzümçü: "İlham Əliyev 2003-cü ilin payızında böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilib fəaliyyətə başladığı ilk gündən Ümummilli Lider Heydər Əliyevin siyasətini davam etdirir. Ölkəmizin hərtərəfli inkişafı üçün ardıcıllıqla və düşünülmüş, planlı və hesablanmış, elmi cəhətdən əsaslandırılmış tədbirlər həyata keçirir. Onlardan biri də regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarıdır. Bu proqramlarla sakini olduğum Cəlilabad rayonu da sürətlə inkişaf etmişdir. İlham Əliyev rayonumuzda dəfələrlə olmuş, neçə-neçə məktəbin, xəstəxananın, digər mühüm əhəmiyyətli obyeklərin təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir. Bunlar hamısı göz qabağındadır. Mən 30 ilə yaxın düşmən əsarətində qalan Qarabağın azad edilməsi üçün Prezident, Ali Baş Komandan kimi İlham Əliyevin sərkərdəlik qabiliyyətindən, bacarığından danışmaq istəyirəm. Xalqın dilindən düşməyən bir bayatı var:

***Əzizim Ordubada,***
***Yol gedir Ordubada.***
***Sərkərdə igid olsa,***
***Heç getməz ordu bada.***

İlham Əliyev bacarıqlı bir sərkərdə kimi xalqın, ölkənin, dövlətin tarixində elə bir iz qoydu ki, heç vaxt unudulmayacaq. Bu şanlı qələbədə dövlətə, dövlətçiliyə həmişə sadiq olan cəlilabadlı gənclərin də müəyyən payı var. Yaxşı yadımdadır, 27 sentyabr 2020-ci ildə müharibə başlayarkən gənclər axın-axın səfərbərlik və çağırış şöbəsinə gəlib, torpaqlarımızın azad olunması üçün cəbhəyə getmək istədiklərini bildirirdilər. Vətən müharibəsində rayonumuzdan 2 min nəfərə yaxın gənc iştirak etmişdir. Onlardan 98 nəfəri şəhidlik zirvəsinə yüksəlmiş, 56 nəfər əlil olmuşdur. Bəli, müharibə qansız ötüşmür. Nahaq deyilmir ki, "Torpaq uğrunda ölən varsa, Vətəndir". Vətən müharibəsi ən ağır zamanda xalqımızın bir olduğunu, bir nöqtəyə vurduğunu, öz liderinin ətrafında bir yumruq kimi birləşdiyini göstərdi. Hamı bir nəfər kimi Ali Baş Komandanın ətrafında sıx birləşərək Vətənin müdafiəsinə qalxdı. Atalar, analar Vətən yolunda şəhid olan oğulları üçün heyifsilənmədilər, əksinə, qürur hissi keçirdilər. Şəhidlərdən birinin dəfni zamanı ananın Azərbaycan bayrağına bükülmüş oğlunun cənazəsi önündə gedərək dediyi "Oğul, südümü sənə halal edirəm, cavan canını Vətən yolunda qurban verdin, məzarın behişt osun" sözləri indi də qulaqlarımda səslənir. Ananın bu sözü haçansa Çanaqqala döyüşü haqqında oxuduğum bir hekayəni xatırlatdı. Çanaqqala döyüşündə iştirak edən cavan bir türk mehmetciyi anasına məktubunda yazır ki, ana, mən bura gələndə sən mənim başıma xına qoymuşdun. Kiçik qardaşım gələndə onun başına xına yaxma. Burada bu işə yaxşı baxmırlar. Ana cavab məktubu yazaraq bildirir ki, oğul, mən sizi Vətənə qurban demişəm, qurbanlığın isə başına xına yaxarlar. Deməyim odur ki, Vətən müharibəsində şəhid ataları, anaları, bacıları, qardaşları, şəhidlərin ömür-gün yoldaşları - bütövlükdə xalqımız sarsılmadı, əksinə, bunun üçün fəxr hissi keçirdi. Müharibədən sonra yüzlərlə gənc Vətənə xidmət etmək üçün ordu sıralarına getdi. Bunları deməkdə məqsədim odur ki, xalq bir olanda istədiyinə çatır. Əbəs yerə deməyiblər: "El bir olsa, dağ oynadar yerindən, güc bir olsa, zərbi kərən sındırar".

Təkcə Baxış Mustafayev və Fazil Əsədov deyil, bu gün Cəlilabadda kimi dindirsən: "Biz İlham Əliyevə Ulu Öndər Heydər Əliyev qədər inanırıq", - sözlərini deyər. Bu sözlər isə öz-özünə deyil, sınaqlardan, imtahanlardan keçərək yaranıb. Prezidentimizin rəhbərliyi altında Azərbaycanın daha xoşbəxt günlərə qovuşacağına xalqımızın inamı daha da artıb. İnam olan yerdə isə zəfər də, xoş gün-güzəran da olur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Vətən müharibəsi əlillərinə və şəhidlərin ailə üzvlərinə qayğı artırılır

**2020-ci ildə işğalçı Ermənistanın silahlı qüvvələri üzərində qazanılan tarixi Zəfərdən sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə şəhidlərin ailə üzvləri, qazi və erməni terrorundan zərər çəkən şəxslərlə bağlı genişmiqyaslı sosial qayğılar həyata keçirilir. İlk növbədə qazilərin, şəhidlərin ailə üzvlərinin sosial problemləri həll olunur. Həmin sosial dəstək proqramlarının həyata keçirilməsi dövlət tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) həvalə edilib.**

Fevral ayının sonlarında nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdindəki "İT Learning Centre" MMC tərəfindən 20 nəfər Vətən müharibəsi qazisi də İKT sahəsi üzrə peşə hazırlığı kurslarına cəlb edilib. "Peşə öyrən, işsiz qalma" devizi ilə təşkil edilən bu kurslarda ümumilikdə 43 işsiz şəxs İKT sahəsi üzrə peşələrə (İT mütəxəssis - proqram təminatçısı və inkişafetdirici, informasiya sistemləri mütəxəssisi, şəbəkə administratoru və s.) yiyələnirlər. Onlara kompüter sistemləri, proqramlaşdırma dilləri, proqram təminatı və sistemləri, şəbəkə texnologiyaları, şəbəkə təhlükəsizliyinin əsasları, kiçik və orta ölçülü şəbəkə qurulması, bu şəbəkələrə dəstək verilməsi, proqram təminatı mühəndisliyi və digər mövzularda zəruri bilik və bacarıqlar tədris olunur. Məmnunluq doğuran odur ki, peşə hazırlığı dövründə müdavimlərə minimum aylıq əməkhaqqı məbləğində təqaüd də verilir. Kursu uğurla bitirən şəxslərə agentlik tərəfindən sertifikatlar təqdim olunacaq və yeni öyrəndikləri peşələr üzrə onların məşğulluğunun təminatına dəstək göstəriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi Vətən müharibəsi əlilləri üçün motivasiya düşərgəsi də təşkil edib. Sosial tərəfdaşlıq prinsipi əsasında "Bakcell" şirkətinin dəstəyi ilə ərsəyə gələn "II Qarabağ müharibəsi əlillərinin asudə vaxtının təşkili və motivasiya düşərgəsi" adlı bu layihə Lənkəran şəhərində həyata keçirilib. Düşərgənin davam etdiyi 6 gün ərzində layihə iştirakçılarının Lənkərandakı Şəhidlər xiyabanına, Xan evinə, Həzi Aslanovun ev-muzeyinə, Hirkan qoruğuna, Xanbulan gölünə və s. ekskursiyaları təşkil olunub. Həmçinin müharibə əlilləri peşəkar təlimçilərin iştirakı ilə motivasiya xarakterli görüşlərə, asudə vaxtlarının səmərəli təşkili üçün qrup işlərinə cəlb ediliblər. Onlar üçün əyləncə saatları, ekskursiyalar, habelə psixoloqun iştirakı ilə qrup terapiyaları, öyrədici təlimlər təşkil olunub. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilib. Motivasiya düşərgəsinə ümumilikdə 30-a yaxın Vətən müharibəsi əlili qatılıb. Qeyd edək ki, "Sosial Məsuliyyət Platforması" layihəsi çərçivəsində bundan əvvəl Vətən müharibəsi əlilləri üçün Gəncə şəhərində motivasiya düşərgəsi təşkil olunub.

Sosial Xidmətlər Agentliyi tərəfindən hazırda şəhid ailələri üzvlərinin və qazilərin yeni ixtisaslar qazanmasına xüsusi diqqət yetirilir. Fevralın sonlarında ƏƏSMN-nin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Bakı Peşə Hazırlığı Mərkəzi ilə "Bakı Metropoliteni" QSC arasında birgə fəaliyyət müqaviləsi imzalanıb. Tədbirdə "Bakı Metropoliteni" QSC-nin Təlim-tədris mərkəzinin fəaliyyəti və son dövrlərdəki layihələri barədə məlumat verilib. Bildirilib ki, bundan sonra metropoliten üçün yeni mütəxəssislərin hazırlanmasında Bakı Peşə Hazırlığı Mərkəzinin imkanlarından da istifadə olunacaq. İmzalanan yeni əməkdaşlıq sənədi bunu nəzərdə tutur.

Birgə fəaliyyət çərçivəsində şəhid ailələrinin üzvləri və Vətən müharibəsi iştirakçılarının, əlilliyi olan şəxslərin, digər həssas təbəqədən olan şəxslərin də metropolitendə mövcud peşə ixtisasları üzrə peşə hazırlığı kurslarına cəlb edilməsi təmin olunacaq. Bura cəlb olunacaq şəxslərin müəyyən olunması və kursların təşkili sahəsində hər iki mərkəz əməkdaşlıq edəcək. Əməkdaşlıq çərçivəsində 10 nəfər üçün qatar maşinisti, 13 nəfər üçün platforma növbətçisi peşələri üzrə ilk təlimlər artıq təşkil olunub.

Şəhid ailələrinin üzvləri və qazilərdən başqa, həssas qrupa daxil olan digər şəxslərin də sosial məsələlərinə nazirlik tərəfindən xüsusi diqqət yetirilir. Belə ki, ƏƏSMN-nin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin bölgələrdə də filialları açılır. Belə sığınacaqlardan biri, bu il Füzuli rayonunda yaradılacaq.

Hazırda agentliyin paytaxtda fəaliyyət göstərən Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan uşaqlara stasionar şəraitdə zəruri sosial xidmətlər göstərilir. Xüsusilə də həmin insanların normal həyat tərzinə qayıdışı, sosial adaptasiyası və reabilitasiyası işləri aparılır. Burada hazırda 10-u oğlan, 15-i qız olmaqla, 25 gənc həmin xidmətlərdən yararlanır. Müəssisədə ötən il 68 nəfərə sosial xidmətlər göstərilib. Müəssisənin Füzuli rayonunda yaradılacaq filialına qəbul olunacaq uşaqlarla, həmçinin onların ailələri ilə xüsusi tərtib edilmiş fərdi qayğı planı əsasında iş aparılacaq. Sosial işçilər, musiqi və idman mütəxəssisləri müəssisədə qeyd olunan kateqoriyadan olan uşaqlara reabilitasiya yönümlü zəruri sosial xidmətlərin göstərilməsini təmin edəcəklər.

ƏƏSMN-nin tabeliyində Sosial Xidmətlər Agentliyinin Paralimpiya İdman Kompleksində daha iki paralimpiya idman növü - oxatma və tennis üzrə də məşqlərin keçirilməsinə başlanıb. Bunun üçün kompleksdə təlim-məşq toplanışları üçün zəruri şərait yaradılıb. Məşqlər Azərbaycan Milli Paralimpiya Komitəsi (MPK) ilə birgə əməkdaşlıq çərçivəsində təşkil olunur. Kompleks əlilliyi olan şəxslərin idmanla məşğul olmasına və idman bacarıqlarının artırılmasına, həmçinin tibbi-sosial reabilitasiyanın təşkilinə xidmət göstərir. Burada indi 10-dan çox idman növü üzrə məşqlər keçirilir. Onlardan 6-sı paralimpiya idman növlərinə daxildir.

Bu il fevralın sonlarında autizm üzrə məşhur amerikalı mütəxəssis, "Child with a Future" fondunun təmsilçisi Bill Piters ƏƏSMN-nin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 1 saylı Uşaq Reabilitasiya Mərkəzində olub. Bill Piters hələ 2 yaşında olarkən onda autizm xəstəliyi aşkar olunub. Böyüdükcə ardıcıl səylərlə və bacarıqla sosial həyata adaptasiya olan 40 yaşlı B.Piters hazırda bu sahədə məşhur mütəxəssislərdən biridir. O, autizmli insanlar, onların ailələri ilə ünsiyyət quraraq onlara öz məsləhətləri, seansları ilə dəstək göstərir. Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya xidmətləri göstərilən autizm sindromlu sağlamlıq imkanları məhdud uşaqlarla görüşən mütəxəssis onlarca sosial-psixoloji seanslar təşkil edib. O, müəssisədə göstərilən xidmətlərlə də yaxından tanış olub. Bildirilib ki, agentliyin 1 və 2 saylı Uşaq Reabilitasiya Mərkəzlərində ötən il ərzində 524-ü stasionar olmaqla, ümumilikdə, 1026 sağlamlıq imkanları məhdud uşağa reabilitasiya xidmətləri göstərilib. Bu ilin əvvəlindən isə həmin mərkəzlərdə 620 sağlamlıq imkanları məhdud uşaq reabilitasiyaya cəlb edilib. Agentlik tərəfindən icra edilən daha bir dəstək layihəsi çərçivəsində ötən il 200-dən çox, bu il isə 40 sağlamlıq imkanları məhdud uşağın valideyninə psixoloji dəstək göstərilib və reabilitasiya ilə bağlı maarifləndirici sessiyalar keçirilib.

Ölkə rəhbərliyi tərəfindən sağlamlıq imkanı məhdud olan uşaqlara, autizm xəstələrinə, həmçinin şəhidlərin ailə üzvlərinə və Vətən müharibəsi əlillərinə sosial qayğı dəstəyinin bundan sonra da mütəmadi olaraq yüksək səviyyədə davam etdirilməsi nəzərdə tutulur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***





# Sosial rifahın təminatçısı

## Prezidentin son 4 ildə reallaşdırdığı möhtəşəm sosial layihələr Azərbaycanın inkişafına böyük töhfə verib

**Azərbaycanda əhalinin sosial müdafiəsinin etibarlı təmin edilməsi praktik işdə real təsdiqini tapır. Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı, imzaladığı fərman və sərəncamlar sosial cəhətdən həssas əhali qruplarının etibarlı müdafiə sistemi ilə əhatə olunmasına şərait yaradıb.**

2018-ci il aprelin 11-də ölkədə keçirilən prezident seçkilərində xalqın böyük etimad göstərərək özünə lider seçdiyi İlham Əliyev fəaliyyəti ilə daim ictimai maraqları doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməklə böyük rəğbət qazanıb. Ölkə Prezidenti bütün dövrlərdə olduğu kimi, son 4 ildə də əhalinin sosial müdafiəsinin təşkilini və daxili siyasətin sosialyönümlülüyünü ön planda saxlayıb. Ən önəmli məqam isə ondan ibarətdir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Xüsusən sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı dövlət proqramları, böyük layihələr həyata keçirilir. Çox önəmli faktdır ki, hər il Prezidentin imzaladığı fərman və sərəncamların 65 faizi məhz sosialyönümlüdür.

### Şəhid ailələrinə, müharibə əlillərinə və digər həssas qruplara böyük qayğının davamı

Dörd il əvvəl ölkəmizdə keçirilən seçkilərdə İlham Əliyevin ölkə seçicilərinin mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçilməsi onun rəhbərliyi ilə 2003-2018-ci illərdə ölkənin nail olduğu dinamik inkişaf kursunun, o cümlədən sosial sahədə qazanılmış mühüm nailiyyətlərin uğurla davam etdirilməsinə şərait yaratdı.

Dövlət başçısının tapşırıqları ilə 2018-ci ildən Azərbaycanda başlanan köklü sosial islahatlar vətəndaş rifahı və məmnunluğunun təminatı istiqamətində inqilabi addımların atılmasına, sosial müdafiə və sosial təminat, məşğulluq, əmək münasibətləri, tibbi-sosial reabilitasiya və sosial sahənin digər sektorları üzrə ötən 4 illik dönəmdə ciddi irəliləyişlərə imkan verdi.

Əhalinin həssas qruplarının, xüsusilə şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi İlham Əliyevin siyasətinin ana xəttini təşkil edir.

2018-ci ilin aprelində ölkə Prezidenti seçildikdən sonra imzaladığı ilk - 19 aprel 2018-ci il tarixli fərmanın məhz şəhid ailələri ilə bağlı olması və həmin ailələrə növbəti ciddi dəstək tədbirini nəzərdə tutması da bunu sübuta yetirir.

Həmin fərmanla, həmçinin 2019-cu ilin yanvar ayında imzalanan digər fərmanla yeni mühüm sosial müdafiə proqramı icra edildi - 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının - 12 min şəhidin 18 mindən çox vərəsəsi 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təmin olundu.

Dövlət başçısının 23 dekabr 2021-ci il tarixli fərmanı isə 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşlarının, onlardan vəfat etmiş şəxslərin vərəsələrinin də birdəfəlik ödəmə (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) ilə təminatını nəzərdə tutur və bu prosesə də yaxın vaxtlarda başlanacaq.

Eyni zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı tarixi Zəfər əldə etdiyi, torpaqlarımızın Ermənistanın 30 ilə yaxın davam etmiş işğalından azad edildiyi 44 günlük Vətən müharibəsində iştirak edən şəxslərə "Müharibə veteranı" adı verilərək onlara Prezidentin aylıq təqaüdü təyin edildi ki, bu da daha bir sosial dəstək proqramı kimi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.

### Mənzil, fərdi ev və avtomobillə təminat

Şanlı tarixi Zəfər əldə etdiyimiz 44 günlük Vətən müharibəsindən sonra İlham Əliyevin göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı geniş istiqamətləri əhatə edən sosial dəstək proqramı icra olunur. Bu proqram üzrə mühüm sosial dəstək tədbirlərindən biri kimi şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı cənab Prezidentin sərəncamı ilə 2021-ci ildə 5 dəfə genişlənib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin kateqoriyadan olanlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev verilibsə, 2021-ci ildə onlara 3 min mənzil və fərdi ev verilməsi proqramı uğurla icra olunub ki, bu da 2018-ci ilə nisbətən 5 dəfə çoxdur.

Ümumən nazirlik tərəfindən ötən dövrdə 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Dövlət başçısının 25 avqust 2021-ci il tarixli sərəncamı ilə Vətən Müharibəsi qəhrəmanlarına və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir. Digər həssas qruplardan olanların (gözdən əlilliyi olanlar, dövlət uşaq müəssisələrinin məzunları) da ardıcıl şəkildə mənzillə təminatı həyata keçirilir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olaraq və fondun mühüm sosial layihələrindən biri kimi Abşeron rayonunda çoxmənzilli yaşayış binaları inşa etdirilərək dövlət uşaq müəssisələri məzunlarının istifadəsinə verilib. Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin "Məzun evi" sosial xidmət müəssisəsi kimi fəaliyyət göstərən həmin yaşayış binalarında 365 məzun mənzillə təmin olunub. Bununla yanaşı, müxtəlif ərazilərdəki yeni yaşayış komplekslərində də bu kateqoriyalardan olan şəxslərin mənzillə təminatı davam etdirilir.

Dövlət başçısının tapşırığı ilə müharibə əlillərinin avtomobillə təminatı da uğurla davam edir. Son 4 ildə də 1450-dək, ümumilikdə isə ötən dövrdə 7400 müharibə əlili minik avtomobili ilə təmin edilib.

### 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın artıb

İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanması ölkədə sosial ödənişlərin ardıcıl şəkildə artırılmasında da öz təsdiqini tapır. 2003-2018-ci illərdə ümumi daxili məhsulun 3,2 dəfə yüksəldiyi ölkəmizdə əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, əməkhaqları təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artmışdı. 2018-ci ildən sonrakı köklü sosial islahatlar bu istiqamətdə inqilabi irəliləyişlərə nail olunması ilə nəticələnib.

2019-cu ildə sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə daha çox artıb. 2020-ci və 2021-ci illərdə də sosial ödənişlərdə növbəti artımlar (indeksasiya, təqaüd artımları) edilib. Pandemiyanın məşğulluğa və rifaha mənfi təsirlərinin qarşısının alınması üçün genişmiqyaslı dəstək proqramları icra olunub. 2022-ci ilin əvvəlindən isə 3,4 milyon şəxsi əhatə edən əməkhaqqı, pensiya və digər sosial ödənişlər artırıldı və bunun üçün illik əlavə olaraq 2,1 milyard manat ayrıldı.

Beləliklə, yalnız son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın artıb. Minimum pensiyada 2,2 dəfə, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə 3 dəfədən çox artım baş verib.

Ümumilikdə, 2018-ci ildən sonrakı dövrdə dövlət başçısının imzaladığı fərman və sərəncamlarla ölkə əhalisinin yarısını əhatə edən 3 sosial islahat paket icra olunub və bu paketlərin illik maliyyə dəyəri 6,5 milyard manatdır.

### Əmək, məşğulluq, əməkhaqqı fondunda yüksəliş

Prezidentin tapşırıqlarına uyğun olaraq məşğulluq imkanlarının artırılması və qeyri-formal məşğulluğun qarşısının alınması, formal məşğulluğa keçidin stimullaşdırılması istiqamətində görülən kompleks tədbirlər əmək müqavilələrinin sayında artımın da davam etdirilməsinə imkan yaradıb.

2018-2021-ci illərdə əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın artım qeydə alınıb. İllik əməkhaqqı fondunda həmin dövrdə 2 dəfədən çox, 2022-ci ilin ilk rübündə isə 11,1 faiz artım olub.

Dövlət başçısının uğurlu sosial-iqtisadi siyasətinə uyğun olaraq aktiv məşğulluq proqramları da ildən-ilə genişləndirilir. Prezidentin sərəncamı ilə icra olunan özünüməşğulluq proqramı işsiz və işaxtaran şəxslərin məşğulluğunun təminatında, onların kiçik sahibkarlığa çıxışına imkan yaradılmasında mühüm dəstəkdir. 2021-ci ildə 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 13,8 dəfə çoxdur. Ümumilikdə son 4 ildə və bu ilin ilk rübündə 44 mindən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib. Özünüməşğulluq proqramının fəaliyyət sahələrinin sayı yeniləri əlavə edilməklə 44-ə çatdırılıb.

Dövlət başçısının təşəbbüsü və göstərişi ilə icra olunan ödənişli ictimai işlər proqramı da işsiz və işaxtaranların əmək bazarına çıxışına önəmli dəstəkdir. Proqram üzrə 56 min şəxs işlə təmin edilib.

### DOST konsepsiyası Azərbaycanın mühüm sosial uğurudur

İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılaraq 2019-cu ilin may ayında açılışı olan DOST Agentliyi və agentliyin DOST mərkəzləri sosial sahədə vətəndaş məmnunluğuna yönəlik köklü islahatların ən mühüm nailiyyətlərindən biridir.

DOST Agentliyi və onun 1 saylı Bakı DOST mərkəzinin açılış mərasimində dövlət başçısı vurğulayıb ki, həyata keçirdiyi siyasət demək olar bu mərkəzlərdə öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin (156 növdə xidmət) "bir pəncərə"dən, innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Təsadüfi deyil ki, bu gün DOST konsepsiyası beynəlxalq səviyyədə də böyük maraq kəsb edərək yüksək dəyərləndirilir və Azərbaycanın DOST təcrübəsini öyrənməyə maraq göstərən ölkələrin sayı artır.

Hazırda 5 DOST mərkəzi fəaliyyət göstərir və ötən dövrdə 800 mindən çox vətəndaş DOST xidmətlərindən faydalanıb. Bu xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 98 faiz üzərindədir.

### Müasirləşən sosial infrastruktur

İlham Əliyevin uğurlu sosial siyasəti ölkədə sosial infrastrukturun, o cümlədən sosial xidmət və reabilitasiya sisteminin davamlı inkişafına imkan yaradıb. 2018-ci ildən sonrakı dövrdə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra ən müasir avadanlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib, Qəbələdə də Uşaq Reabilitasiya Mərkəzi açılıb.

Yaxın aylarda Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də açılacaq. Yeni reabilitasiya mərkəzlərinin açılması və bərpa sisteminin müasirləşdirilməklə imkanlarının artırılması reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayının 3 dəfə artırılaraq 30 minə çatdırılmasına imkan verir. Son 4 ildə sosial xidmətlər, günərzi və icma əsaslı reabilitasiya mərkəzləri şəbəkəsi xeyli genişlənib. Sosial xidmət sahələrində daim təkmilləşdirmələr aparılıb və davam edir.

Əlilliyi olan şəxslərin cəmiyyətə fəal inteqrasiya imkanlarının artırılması ölkə Prezidentinin diqqət mərkəzində olmaqla aparılan sosial siyasətin hədəfləri sırasındadır. Bunun nəticəsidir ki, ölkəmizdə əlilliyi olan şəxslərin aktiv həyat tərzinə, bütün sahələrdə cəmiyyət həyatında fəal iştirak imkanlarına malik olmaları, yaradıcılıq potensiallarını dolğun şəkildə reallaşdıra və cəmiyyətə təqdim edə bilmələri üçün genişmiqyaslı işlər aparılır.

Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə 22 oktyabr 2021-ci il tarixdə Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılması bu istiqamətdə mühüm addımlardan biridir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Cənubi Qafqazda kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən belə bir ilkin - ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanının Azərbaycanda açılması əlilliyi olan şəxslərin və digər həssas əhali qruplarının yaradıcı potensialının inkişafına dəstək verilməsi istiqamətində dövlət tərəfindən fəal və məqsədyönlü siyasətin aparıldığını bir daha təsdiq edir. 121 nəfərlik auditoriumdan, 9 müxtəlif peşə-yaradıcılıq otağı və studiyasından, kitabxanadan, inzibati otaqlardan, yeməkxanadan ibarət olan mərkəz əlilliyi olan şəxslərin, şəhid ailəsi üzvlərinin, digər sosial cəhətdən həssas qrupların yaradıcı potensialını ortaya çıxararaq cəmiyyətə təqdim etmək, onların istedad və inteqrasiyasına dəstək göstərmək sosial-mədəni mühitin inklüziv çalarlarla daha da zənginləşməsinə xidmət edir.

Beləliklə, Prezident İlham Əliyevin 2018-ci il 11 aprel tarixində andiçmə mərasimində söylədiyi "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" sözləri davamlı sosial islahatlar nəticəsində əldə olunan mühüm nailiyyətlərdə öz əməli təsdiqini tapıb.

Dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə Azərbaycanla müqayisə oluna bilsin. Sosial-iqtisadi sahədə ardıcıl şəkildə islahatlar aparan dövlətlər sırasında adıçəkilən Azərbaycanın iqtisadi uğurları sosial sahədə inqilabi islahatların gerçəkləşməsini şərtləndirib. Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətin təzahürüdür desək, yanılmarıq.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Prezident İlham ƏLİYEV: "Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik"



**Müharibələr itkilər, dağıntılar gətirir. Azərbaycan 1990-cı illərdə təcavüzkar ermənilərin təxribatı nəticəsində başlanan Birinci Qarabağ müharibəsində böyük fəlakətlərlə üzləşdi. Minlərlə azərbaycanlı müharibədə şəhid oldu və ya əsir, girov götürüldü. Qalanları isə erməni zülmündən ancaq canlarını götürüb qaça bildilər.**

Yerli əhalinin böyük zəhmət və əziyyətlə illərlə tikdiyi, ailələri ilə birlikdə rahat yaşadıqları evləri, eləcə də inzibati infrastrukturları ermənilər qarət etdilər, uçurub dağıtdılar, od vurub yandırdılar. Həmin ərazilərdəki yalnız Azərbaycan üçün deyil, bütün bəşəriyyət üçün misilsiz dəyərə malik olan tarixi abidələrimizi də erməni vandalları məhv etdilər.

### Ermənilərin Qarabağı və Şərqi Zəngəzuru azərbaycanlılarsız qoymaq arzuları gözlərində qaldı

1990-cı illərdə Azərbaycan ərazilərinin iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. İşğal otuz ilə yaxın davam etdi. Bu müddətdə cənnətməkanı yağı düşmən xarabalığa çevirdi. Birinci Qarabağ müharibəsi zamanı erməni qəsbkarları öz məkrli planlarını həyata keçirərək Qarabağı və Şərqi Zəngəzuru azərbaycanlılarsız qoydular. Zəngin təbii sərvətləri ni otuz il ərzində daşıyıb Ermənistana apardılar. O yerlərdəki dünyada tayı-bərabəri olmayan, nadir ağac və heyvan növləri ilə zəngin meşələri də talan etdilər.

Təəssüf ki, otuz ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil edilən ərazilərin yeraltı-yerüstü sərvətləri erməni vandalları tərəfindən talandı, qarət olunaraq Ermənistana daşındı. Prezident İlham Əliyevin bildirdiyi kimi: "Vəhşi kimi gəlib başqasının torpağına onu istismar edib, onun mənşəyini dəyişdirmək istəyib, yaşayış məntəqələrinin adlarını dəyişdirmək istəyib, tarixi abidələrimizi yerləyeksan edib, saxta tarix yaradıb, xəritələr dərc edib. Bu, bölgədə mövcud olan ənənələrə, qaydalara, Qafqazda mövcud olan davranış qaydalarına tamamilə ziddir. Bu, bir daha onu göstərir ki, erməni xalqının bizim bölgə ilə heç bir əlaqəsi olmayıb. Bunlar heç vaxt Qafqaz xalqı olmayıb. Sonradan gəlmələrdir".

Birinci Qarabağ müharibəsində Azərbaycan xalqının sinəsinə çalın-çarpaz dağ çəkilmişdi. Neçə-neçə övladı erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, işgəncələr verilərək əlil edilmişdi. Düşmən işğal etdiyi Azərbaycan ərazilərini talayır, qəddarlıqla məhv edirdi. Azərbaycan xalqı otuz ilə yaxın bu mənəvi əzablarla yaşadı. Bir tərəfdən də Ermənistan silahlı qüvvələri 1994-cü ildə elan olunmuş atəşkəs rejiminə əhəmiyyət vermir, demək olar ki, hər gün Azərbaycan Ordusunun mövqelərini, eləcə də mülki əhalinin yaşayış məntəqələrini atəşə tuturdular. Bütün beynəlxalq hüquq qaydalarını və insani duyğuları heçə sayan, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnaməsinə əməl etməyən Ermənistan dövlətinin bu özbaşınalıqlarının uzun sürməyəcəyinə, işğalçıların layiqli cavablarını alacaqlarına Azərbaycan xalqı inanırdı. Dövlət başçısı İlham Əliyev Azərbaycan xalqı və dövlətinin heç vaxt işğalla barışmayacağını, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəyini dəfələrlə bildirirdi.

Xalqımızın arzusu reallaşdı. 2020-ci ildə 44 gün davam edən İkinci Qarabağ müharibəsində Azərbaycan qələbə çaldı. Müzəffər ordumuz torpaqlarımızı azad etdi. Zəfərimizin sevinci və iftixarı misilsiz oldu. Ancaq gördüyümüz mənzərələr hər birimizi kədərə boğdu, hiddətləndirdi. Çünki otuz il Ermənistan silahlı qüvvələrinin işğalında qalan Azərbaycan ərazilərində daş-daş üstə qalmamışdı.

### Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizə ilk səfəri

İkinci Qarabağ müharibəsinin başa çatmasından altı gün sonra - 2020-ci il noyabrın 16-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli və Cəbrayıla səfər etdi. Bu, dövlət başçısının işğaldan azad edilmiş ərazilərimizə ilk səfəri oldu. O, öz çıxışında vurğuladı ki, uzun illər işğal altında qalmış kəndlərin, şəhərlərin infrastrukturunun, ekologiyasının bərpası ilə bağlı planları icra olunacaq. Prezident İlham Əliyev Qarabağa ilk səfəri zamanı bəyan etdi ki, düşmənin yerlə-yeksan etdiyi tarixi torpaqlarımızda quruculuq işlərinə başlanılacaq.

Artıq işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər reallaşdırılır. Prezident İlham Əliyev vurğulayıb ki, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur: "Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il - 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük".

Ötən il avqustun 26-da Prezident İlham Əliyev Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında bərpa prosesinin təkcə maliyyə vəsaiti ilə həllinin kifayət etmədiyini diqqətə çatdırdı: "Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq qələbəmiz buna əyani sübutdur".

### Qarabağda və Şərqi Zəngəzurda həyatın öz axarına düşəcəyi günlər uzaqda deyil

Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında fərmanın imzalanması və bu sənəddə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması düşməndən təmizlənən bu bölgələrdə bərpa, tikinti-quruculuq işlərinin sürətlə aparılmasına əlverişli zəmin yaratdı. Qeyd edək ki, Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil edilib. Şərqi Zəngəzur iqtisadi rayonu isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları əsasında qurulub.

Müharibədən dərhal sonra, qısa vaxt ərzində Qarabağ və Şərqi Zəngəzurda neçə-neçə infrastruktur layihəsinin bünövrəsi qoyulub və bir qisminin icrası artıq başa çatıb. Füzuli Beynəlxaq Hava Limanı tez bir zamanda tikilib, istifadəyə verilib. Bu, Qarabağın və Şərqi Zəngəzurun yeganə aeroportu olmayacaq. Gələcəkdə istər vətəndaşlarımız, istərsə də xarici qonaqlar Zəngilan və Laçına da təyyarə ilə gələ biləcəklər.

İşğaldan azad edilmiş ərazilərimizə yol, işıq, su xətləri çəkilir. Qarabağ və Şərqi Zəngəzurun zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsi üçün bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Qarabağda və Şərqi Zəngəzurda tikinti-quruculuq işlərinin sürətlə, geniş miqyasda davam etdirilməsi göstərir ki, erməni işğalı nəticəsində öz yurdundan didərgin düşən, uzun illər dədə-baba torpaqlarına həsrət qalan keçmiş məcburi köçkünlərin geri dönəcəkləri gün uzaqda deyil.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*



# Brüssel-Bakı-İrəvan əməkdaşlıq formatı sülhə doğru gedir

## Ermənistanın Azərbaycanın irəli sürdüyü beş baza prinsiplərini qəbul etməkdən başqa yolu yoxdur

**Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanma prosesi yaxın zamanlarda reallaşa bilər. Məğlub ölkə olan Ermənistanın baş naziri Prezident İlham Əliyevin irəli sürdüyü 5 təkliflə razılaşdığını aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarlı Mişelin iştirakı ilə keçirilən görüşdə səsləndirib.**

Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılıq da əldə olunub. Hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyasının aparılmasının zəruri olacağı vurğulanıb. Bu məqsədlə 2021-ci il 26 noyabr tarixli Soçi Bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olunub.

Brüsseldə keçirilən görüşləri dəyərləndirən siyasətçilər hesab edirlər ki, Avropa İttifaqı regionda sülhün bərqərar olunmasında maraqlıdır. Çünki Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır. Bölgədə sülhün əldə edilməsi həm də Qərbin marağındadır.

### Qərb regiondakı proseslərdən qıraqda qalmaq istəmir

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qəzetimizə açıqlamasında bildirib ki, Brüsseldə keçirilən sayca ikinci görüşdə Azərbaycan beynəlxalq aləmə daim açıq olduğunu, ilk növbədə isə Ermənistanla münasibətlərin dəqiq müstəvisini göstərib: "Biz regiona sülhün, təhlükəsizliyin gözündən baxırıq və yeni arxitektura quruculuğu da məhz bunu özündə ehtiva edir. Qərb dairələri İkinci Qarabağ savaşından müəyyən qədər kənarda qaldılar. Müxtəlif dairələrin Azərbaycanı müəyyən sanksiyalara məruz qoymağa çalışmaları reallaşmadı, çünki bunun üçün hər hansı hüquqi, hərbi və ya digər əsaslar mövcud deyil. Azərbaycan bu mənada da tarixə fərqli bir müharibə modeli və mədəniyyətini təqdim etmiş dövlət kimi düşəcək. Moskvada keçirilən görüşlər fonunda Qərb proseslərin bu dönəmində kənarda qalmaq istəməzdi. Avropa İttifaqının Ermənistana 2.6 milyard avroluq yardımı bəyan etməsindən sonra açıq şəkildə görünürdü ki, bu bölgəni itirməmək üçün müxtəlif iqtisadi, stimullaşdırıcı mexanizmlər işə salınıb. Azərbaycan Prezidentinin haqlı və sərt mesajlarından, iradəsindən sonra Azərbaycana ayrılacaq 150 milyon avroluq yardım qərarı dəyişdirildi".

Zahid Oruc qeyd etdi ki, beynəlxalq diplomatik siyasi həyat həm də güclü şəxsi münasibətlərə və iradəyə əsaslanır. Onun sözlərinə görə, Şarl Mişellə dövlətimizin rəhbərinin bu müddət ərzində apardığı danışıqlar onu Azərbaycanla bağlı yanlış mövqedən daşındırmağa imkan yaratdı. Nəhayət, Azərbaycana 2 milyard avroluq dəstəyin göstəriləcəyi bildirildi. Qərb bundan sonra danışıqlarda, delimitasiya və demarkasiya proseslərində, sülh müqaviləsinin imzalanmasında, ümumiyyətlə, regionun gələcək düzəninin formalaşmasında iştirak etməyə çalışır.

Deputat vurğuladı ki, Azərbaycan məğlub ölkəyə 5 müddəadan ibarət dəqiq sülh planı verib. Ermənistanda isə vəziyyət çox gərgindir: "Sülhə Ermənistanın ehtiyacı var, çünki xalq resursu son dərəcə acınacaqlı vəziyyətdə olan, hərbi imkanlarını 15-20 ilə bərpa edə bilməyəcək dövlətin bu gün sülh sənədini imzalaması onun xeyrinə olar. Onlar Qarabağ termininin hansısa formada bu sənəddə yer almasına çalışırdılar. Millətçi faşist qüvvələri və beynəlxalq erməni şəbəkəsi Paşinyana rahatlıq versə, o, bundan da əl çəkməyin tərəfindədir".

### Prezident İlham Əliyevin məramı, ortaya qoyduğu iradə çox yüksəkdir

Komitə sədri hesab edir ki, sülh müqaviləsinin imzalanmasının məhz Zəngəzur mahalında baş tutması arzuolunandır. Bunun üçün tarixi zərurət də var: "Prezident İlham Əliyev fərqli, yeni reallıqlar və yeni eranı meydana gətirib. Bunu sənədlər üzərinə daşımaq və tarixi aktlara çevirmək lazımdır. Əminəm ki, bu, millətimiz üçün son dərəcə böyük nailiyyət olacaq. Ermənilər üçün isə qazanc ondan ibarətdir ki, onlar Qarabağ məsələsində hər hansı formada ideologiyadan, saxta tarixi iddialarından daşınıb normal yaşayışlarına qayıtsınlar".

Avropa İttifaqı və ABŞ-ın da bu məsələdə ilkin mövqeyi müsbətdir. Belə olan halda danışıqların Qərb, xüsusilə Avropa İttifaqı ilə formalaşmış ən yüksək münasibətlər fonunda yalnız məhsuldar olması, müsbət nəticə ilə bitməsi faydalıdır. Sənədin imzalanması istiqamətində Prezident İlham Əliyevin məramı, ortaya qoyduğu iradə həlledici və önəmlidir.

### Aİ-nin danışıqları himayə etməsi yeni və səmərəli bir formatdır

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov bildirdi ki, Brüssel görüşündə əldə edilən nəticələr Azərbaycanın strateji diplomatiyasının növbəti uğurudur. Brüsseldə keçirilən görüşdən sonra Şarl Mişelin fikirlərində əksini tapan məsələlər postmüharibə mərhələsi Azərbaycanın irəli sürdüyü beş baza prinsipinə söykənir. Bu baza prinsipləri beynəlxalq hüquqa və Azərbaycanın maraqlarına tamamilə uyğundur. 2021-ci ilin dekabrında keçirilən üçtərəfli görüşdə postmüharibə mərhələsində davamlı sülh üçün yeni danışıqlar platforması kimi Brüssel-Bakı-İrəvan xəttinin əsasları qoyulub.

Deputat qeyd edir ki, hazırda bu əsaslarda sülh danışıqlarını irəli götürmək üçün mexanizmlər yaradılır. Danışıqlarda əsas məsələlərdən biri xarici işlər nazirlərinin birbaşa əməkdaşlıq etmələrinin nəzərdə tutulmasıdır. İkinci məsələ isə aprel ayının sonunadək sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı müvafiq komissiyanın yaradılmasıdır. Eyni zamanda diqqətçəkən daha bir məsələ hazırda sərhədlərdə mövcud olan reallığın toxunulmazlığıdır.

Hikmət Məmmədov bildirdi ki, danışıqlarda ATƏT və Minsk qrupu xatırlanmayıb. Hər iki tərəfin etimad etdiyi Avropa İttifaqının danışıqları himayə etməsi yeni və səmərəli bir format yaradır. Şarl Mişelin mətbuata verdiyi bəyanatda kommunikasiyaların, o cümlədən avtomobil nəqliyyatı kommunikasiyasının açılmasının zəruriliyi qeyd edilir. Sənəddə alqışlanan dəmir yolu xətti ilə bərabər, avtomobil yolunun açılması zərurəti də öz əksini tapır. Ərazilərin minalardan təmizlənməsi, itkin düşən insanların taleyinə aydınlıq gətirilməsi kimi humanitar məsələləri qeyd etməklə Azərbaycanın Brüsseldə istədiyini əldə etdiyini demək olar. Bu isə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə qarşılıqlı etimada söykənən əlaqələri və Aİ ilə Azərbaycan arasında gələcək tərəfdaşlıq münasibətləri kontekstində baş tutdu.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Şəffaf və ədalətli cəmiyyət naminə

## Ölkəmizdə korrupsiyaya qarşı effektiv mübarizə aparılır

**Respublikamızda bərqərar olmuş demokratik dəyərlər, cəmiyyətdə qanunçuluğun, şəffaflığın, ədalət prinsiplərinin təmin olunması sistemli şəkildə həyata keçirilən islahatların effektivliyini artırır, onların daha səmərəli olmasına xidmət edir.**

**Nəticə etibarilə bütün bunlar respublikamızın inkişaf strategiyasında qarşıya qoyulan bütün vəzifələrin uğurla yerinə yetirilməsi ilə müşayiət olunur. Bu yolda cəmiyyət həyatını narahat edən problemlərin, o cümlədən korrupsiya ilə səmərəli mübarizə də mühüm əhəmiyyət kəsb edir.**

### Güclü iradənin təcəssümü

**Korrupsiya bütün dünyanı narahat edən problemdir. Korrupsiyanın mövcudluğu ilk növbədə ümumbəşəri və milli dəyərləri sarsıdır, hüquqi dövlət quruculuğuna mane olur, iqtisadi və sosial inkişafı buxovlayır, cəmiyyətin ehtiyatlarından səmərəsiz istifadə edilməsinə şərait yaradır, aztəminatlı insanlara ziyan vurur. Korrupsiya demokratik proseslərə və vətəndaş cəmiyyətinə, dövlət orqanlarının səmərəli və qanunauyğun fəaliyyətinə mane olur. Məhz bu baxımdan korrupsiyaya qarşı mübarizə sahəsində davamlı hüquqi tədbirlərin həyata keçirilməsi labüddür.**

**Bu gün demokatiya yolunu seçmiş hər bir sivil ölkə cəmiyyətin yüksəlişinə süni əngəllər yaradan probemlərin aradan qaldırılmasına çalışır, o cümlədən korrupsiya ilə mübarizə aparır. Amma korrupsiyaya qarşı mübarizədən yalnız o halda danışmaq olar ki, dövlət iradəsini ortaya qoysun və korrupsiyanın qarşısını almaq üçün cəmiyyətin bütün səviyyələrində onunla davamlı mübarizə aparsın. Əgər belə olmazsa, heç bir dövlət öz cəmiyyətini korrupsiyadan təmizlədiyini iddia edə bilməz.**

**Respublikamızda korrupsiyaya qarşı mübarizə həyata keçirilən inkişaf strategiyasının bir hissəsini təşkil edir, aşkarlıq və şəffaflıq prinsipləri iqtisadi-sosial siyasətin mərkəzində dayanır. Şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi korrupsiyaya qarşı mübarizənin əsas prinsipləri kimi təsbit edilib. Bu məqsədlə "Korupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)", "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı", "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" icra olunub. Həyata keçirilən tədbirlərlə dövlət xidmətlərinin göstərilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi, dövlət orqanlarının göstərdikləri xidmətlərin elektronlaşdırılması, vətəndaş cəmiyyəti institutlarının ictimai həyatda rolunun daha da gücləndirilməsi, maliyyə şəffaflığının təmin edilməsi və korrupsiyanın qarşısının alınması sahəsində mühüm tədbirlər görülüb və bu davam etdirilir. Bürokratik əngəllərin tam aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi tədbirlər bütün cəmiyyətin razılığı ilə qarşılanır.**

### Yeni Milli Fəaliyyət Planı

**Prezident İlham Əliyev aprelin 4-də imzaladığı sərəncamla "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nı təsdiq edib. 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planının həyata keçirilməsində məqsəd dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsidir.**

**Eyni zamanda "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illəri əhatə edən Milli Fəaliyyət Planı" fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır. Milli Fəaliyyət Planında deyilir: "Ölkəmizdə son illərdə əsas strateji hədəflərə çatmaq üçün beynəlxalq miqyasda və ölkə daxilində görülmüş məqsədyönlü, düşünülmüş tədbirlər nəticəsində istər sosial-iqtisadi inkişaf, istərsə də hüquqi-institusional zəmin baxımından əhəmiyyətli irəliləyişə nail olunmuşdur.**

**Eyni zamanda Vətən müharibəsi nəticəsində işğal altında olan ərazilərin azad edilməsi ilə ölkəmiz üçün yeni inkişaf mərhələsi açılmışdır. Xarici və yerli investorların həmin ərazilərdə infrastruktur layihələrinin icrasına cəlb edilməsi, bu torpaqlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi kimi dövlətin yeni strateji prioritetləri bölgənin gələcək inkişafının carçısıdır. Korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlər isə məhz bu inkişafın başlıca amilləridir.**

**Ölkəmizin hazırkı inkişaf mərhələsi korrupsiyaya qarşı mübarizə sahəsində görülməli olan sistem xarakterli tədbirlərin effektivliyini və davamlılığını təmin edəcək yeni bir sənədin - "Korrupsiyaya qarşı mübarizəyə dair yeni Milli Fəaliyyət Planı"nın qəbul edilməsini şərtləndirir".**

**Bu bir daha dövlətin koorrupsiya ilə mübarizədə iradəsinin təcəssümüdür. Ümumiyyətlə, reallıq və görülən işlər korrupsiyaya qarşı effektiv mübarizə aparıldığını, o cümlədən mütərəqqi institusional tədbirlərin həyata keçirildiyini göstərir.**

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Azərbaycandan keçən yeni marşrut Fars körfəzi ilə Qara dənizi birləşdirəcək

**Prezident İlham Əliyevin apardığı uğurlu siyasət sayəsində Azərbaycan artıq dünya əhəmiyyətli tranzit ölkə kimi tanınıb. Ölkəmiz "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkana çevrilib. Bu marşrutların Azərbaycandan keçməsi bizə həm iqtisadi, həm də siyasi dividendlər qazandırır.**

Azərbaycan Şərqlə Qərbi birləşdirən ən qısa yol üzərində yerləşir ki, bu da ölkəmizə yeni tranzit imkanları açır. Hazırda Çinlə Avropa arasında qarşılıqlı ticarətin həcmi 1 trilyon dollardır. Həmin yüklərin "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə Azərbaycanın üzərindən Avropaya daşınması vaxta 12 gün qənaət etməyə imkan yaradır. Bu səbəbdən yüklərin Azərbaycan üzərindən daşınmasında ticarət tərəfdaşı olan bütün ölkələr maraqlıdır.

"Şimal-Cənub" nəqliyyat dəhlizində də Azərbaycanın açar ölkəsi olması bizə daha geniş imkanlar açır. 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış dövlətlərarası sazişlə "Şimal-Cənub" nəqliyyat dəhlizinin təməli qoyuldu. Azərbaycan bu imzalanma mərasimində iştirak etməsə də, layihənin gerçəkləşməsi prosesinin mərkəzində rol aldı. Belə ki, həmin nəqliyyat dəhlizinin qovuşduğu coğrafi məkan məhz buradır. Azərbaycanın iştirakı olmadan bu marşrut fəaliyyətə başlaya bilməz.

Onu da bildirək ki, "Şimal-Cənub" nəqliyyat marşrutu həm ölkəmiz, həm də dünya üçün "Şərq-Qərb" marşrutu qədər əhəmiyyətlidir. Bu dəhliz Rusiya, Şimali Avropa, İran, Hindistan və Fars körfəzi vasitəsilə Yaxın Şərq ölkələri arasında ticarətin inkişafına töhfə verir. Həmin nəqliyyat dəhlizinin davamı kimi yeni bir nəqliyyat marşrutu yaranıb. Bu, İranla Gürcüstan arasında Fars körfəzi və Qara dəniz limanlarını birləşdirən marşrutdur. Öncə onu qeyd edək ki, Ermənistan bu marşrutun öz ölkəsinin üzərindən keçməsi üçün çox çalışdı. Hətta baş nazir Nikol Paşinyan bu marşrutun Ermənistandan keçməsi üçün İrana və Gürcüstana xüsusu səfərlər də etdi. Ancaq istəyinə nail ola bilmədi. Ona görə ki, bu ölkənin yol-nəqliyyat infrastrukturu Azərbaycanla müqayisəedilməz dərəcədədir.



İranla Gürcüstan isə yeni nəqliyyat marşrutunun Azərbaycan üzərindən keçməsinə üstünlük verdi. Bununla Cənubi Qafqazda Azərbaycanın iştirakı ilə növbəti əməkdaşlıq platforması yarandı. Ötən il dekabrın 22-də Fars körfəzi ilə Qara dənizi birləşdirən tranzit marşrutu ilə ilk dəfə avtomobil karvanı İran, Azərbaycan və Gürcüstan üzərindən yakdaşımalarını həyata keçirdi. Bu marşrutla yüklər İrandan Azərbaycana, sonra Gürcüstan limanlarına, oradan da Bolqarıstana və Şərqi Avropa ölkələrinə daşınacaq. Marşrut İranın cənubundan, Fars körfəzindən başlayaraq Avropaya kimi geniş bir coğrafiyanı əhatə edəcək. Gələcəkdə bu dəhliz üzərindən dəmir yolu yükdaşımalarının da həyata keçirilməsi mümkün olacaq. Layihəyə əsasən Cənubi Asiya ölkələri dəhliz vasitəsilə Qərbə daha bir yol əldə edəcəklər. Bu nəqliyyat dəhlizi və gələcəkdə onun istifadəsinin genişləndirilməsi region ölkələri üçün mühüm iqtisadi üstünlüklər vəd edir. Dəhlizin həm tranzit yükdaşımaları, həm də dünya bazarına çıxış baxımından böyük əhəmiyyəti var. Bu da regiondakı böyük nəqliyyat-kommunikasiya layihələrinin əsas təşəbbüskarı və aparıcı qüvvəsi olan Azərbaycanın nəqliyyat habı olaraq mövqeyinin möhkəmlənməsinə, beynəlxalq yükdaşımalardan əldə etdiyi gəlirlərin artmasına şərait yaradacaq. Nəticədə ölkəmizin strateji mövqeyi daha da güclənəcək.

Bu il aprelin 4-də rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Gürcüstanın Baş naziri ilə görüşündə digər məsələlərlə yanaşı, Fars körfəzi-Qara dəniz mürşrutunun perspektivləri barədə fikir mübadiləsi aparılması da təsadüfi deyil. Görüşdə qeyd olundu ki, Azərbaycanla Gürcüstan arasında koordinasiya edilmiş əməkdaşlıq Avropa-Asiya nəqliyyat dəhlizinə yüklərin cəlb edilməsi prosesinə şərait yaradır ki, bu da hər iki ölkənin xeyrinədir.

Aprelin 7-də isə Moskvada "İran və Rusiya: Ticarət əlaqələrinin inkişafı" mövzusunda konfrans keçirildi. Konfransda İran və Rusiya arasındakı nəqliyyat sahəsində əməkdaşlıq məsələlərinə də baxıldı. Bildiyimiz kimi, İran, Rusiya və Azərbaycan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizində yerləşir və onun formalaşmasında aparıcı rola malikdirlər. İran ilə Rusiya arasındakı dəmir yolu əlaqəsi Azərbaycan üzərindən qurulub. Hazırda İranda Qəzvin-Rəşt-Astara (İran) -Astara (Azərbaycan) dəmir yolunun tikintisi davam edir. Bu dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Rəşt-Astara hissəsində isə işlər hələ gedir. Sanksiyalara baxmayaraq, İran bu yolu inşa edib başa çatdırmaqda israrlıdır. Azərbaycan Astarası ilə İran Astarası arasında dəmir yolu xətti isə çəkilib və Astaraçay üzərindən dəmir yolu körpüsü də salınıb.

Məsələnin mahiyyəti ondan ibarətdir ki, İran ilə Rusiya arasında ticarət dövriyyəsinin artması yükdaşımaların da çoxalmasına səbəb olacaq. İrandan Rusiyaya və əks-istiqamətə yüklər tranzit olaraq Azərbaycan üzərindən daşınacaq ki, bu da ölkəmizə gəlirlərini artırmağa imkan verəcək. Bununla yanaşı, Rusiyanın Yaxın Şərq və Cənub-Şərqi Asiya ölkələri ilə də ticarət əlaqələri mövcuddur. Yəni Hindistan Rusiyanın ən yaxın ticarət tərəfdaşıdır. Bu ölkələrlə də həyata keçiriləcək idxal-ixrac əməliyyatları zamanı yükdaşımalar Azərbaycan üzərindən reallaşacaq.

*Rüstəm KAMAL, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# "Star" inamla addımlayır



**Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığı və tərəfdaşlığı bütün regionun həyatında mühüm rol oynayan ən nəhəng layihələrin gerçəkləşməsini mümkün edib. "Star" getdikcə daha da möhkəmlənən bu əlaqələrin bəhrələrindən biridir.**

## Azərbaycan-Türkiyə iqtisadi tərəfdaşlığının göstəricisi olan bu zavodun hədəfləri daha böyükdür

Yaşı az, uğurları çox olan "Star"ın gəlirləri ildən-ilə artır. Məsələn, 2021-ci ildə zavodun ümumi gəlirləri 44 faiz artaraq 6,14 milyard ABŞ dolları təşkil edib.

2018-ci ilin oktyabr ayında açılan zavod həmin vaxtdan təxminən bir il sonra tam gücü ilə işləməyə başlayıb. Müəssisə gündə 35 min kubmetr xam neft emal etmək qabiliyyətinə malikdir. Onun neft saxlama tutumu 2020-ci ildə yeni məhsul çənləri layihəsinin tamamlanması ilə 1,9 milyon kubmetrə çatıb. Zavodda işin səmərəliliyini və əməliyyatların rahatlığını artırmaq üçün əlavə investisiyalar qoyulur. Sərmayələrin qoyuluşu başa çatdıqdan sonra "Star"ın anbar tutumu 1,6 milyon kubmetrdən 2,2 milyon kubmetrə qədər artacaq. Bu həcm isə ildə 11 milyon ton neft emal edən neftayırma zavodu üçün ideal ölçü sayılır.

Xatırladaq ki, "Star" neft emalı zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulub. Həmin vaxtdan yeddi il sonra müəssisə istifadəyə verilib. Zavodu "Tecnicas Reunidas" (İspaniya), "Saipem" (İtaliya), "GS Engineering & Construction Corp" (Cənubi Koreya) və "Itochu" (Yaponiya) şirkətlərindən ibarət konsorsium inşa edib. Bununla bağlı müqavilə 2013-cü il mayın 20-də imzalanıb.

"Star" SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) ölkəmizdən kənarda inşa etdiyi ilk neft emalı zavodudur. Bu layihə şirkətin biznes portfelini şaxələndirmək məqsədilə xaricdə həyata keçirdiyi layihələrdən biridir.

Zavod Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşa edilib. İşə salınmasından bir neçə ay əvvəl müəssisədə sınaq məqsədilə xam neft emalına başlanıb. İlk xammal yükü də məhz Azərbaycandan olub - zavoda 80 min ton "Azeri Light" markalı neft çatdırılıb. Müəssisənin əsas xammal tədarükçüsü kimi də SOCAR çıxış edir. "Star" Türkiyənin ilk Strateji Sərmayə Təşviq Sənədinə sahibdir.

Hələ zavodun açılışı zamanı bildirilmişdi ki, müəssisə ildə 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi 70 faizə enəcək. Zavod ildə 1,6 milyon ton təyyarə yanacağı istehsal etməklə Türkiyənin tələbatını tam ödəyəcək. "Star" neftin qiymətindən asılı olaraq hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq.

"Star" layihəsi istər tikinti müddətində, istərsə də istehsala başlanandan sonra minlərlə insanı iş yeri ilə təmin edib.

Zavodun açılış mərasimində Prezident İlham Əliyev demişdir: "Star Rafineri"nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, "Cənub qaz dəhlizi"nin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması - bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır. Türkiyə və Azərbaycan birgə səylərlə güclü siyasi iradə nümayiş etdirərək Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır. Bunu biz edirik və bu yeni xəritələrin altında bizim imzamız var. Bütün bunları biz birgə səylərlə etdik. Bütün bu layihələr böyük maliyyə yatırımı tələb edən layihələrdir. Burada artıq qeyd edildi ki, biz qardaş ölkələrin iqtisadiyyatına böyük sərmayə yatırmışıq. Təkcə Əliağaya qoyulan sərmayə 10 milyard dollara yaxındır və gələcəkdə bu rəqəm daha da artacaq".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həmin tədbirdə yeni açılan müəssisə barədə fikirlərini belə ifadə etmişdir: "Star" neft emalı zavodu ilə Azərbaycanla qardaşlıq əlaqələrimizin strateji miqyasını daha da gücləndirmiş oluruq. Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirdiyimiz hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə birbir açılışını etdiyimiz bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırdığına inanıram. Hər şeydən əvvəl 6,3 milyard dollarlıq bir sərmayə - "Star" neft emalı zavodu. Amma bundan başqa, konteyner limanı, digər tərəfdən isə ilk açılışı ilə addımını atdığımız neft-kimya müəssisələri - bütün bunları ümumilikdə hesabladıqda söhbət təxminən 10 milyard dollarlıq sərmayədən gedir".

"Star" ona bəslənən ümidləri doğruldaraq nailiyyətlərini artırır. Zavod indiyədək on minlərlə ton xam neft idxal edib. Müəssisədə "Urals", "Azeri Light" və "Kərkük" neft növlərini emal etmək mümkündür. Əsas məhsullarını dizel və təyyarə yanacağı, nafta, maye neft qazı, qarışıq ksilol, neft koksu təşkil edir.

2024-cü ildən "Star" neft emalı zavodunun istehsal həcmi 115 faiz proqnozlaşdırılır. Müəssisə rəhbərliyi hələ keçən ilin sonlarında bu barədə media nümayəndələrinə verdiyi məlumatda bildirib ki, 2030-cu ildən, xüsusilə, nəqliyyat sektorunda neftə olan tələbatın azalacağına baxmayaraq, Türkiyə bazarında neft-kimya sektorunun 2-3 faiz böyüməsi gözlənilir. Bu artım eyni zamanda dünya bazarında da özünü göstərəcək.

SOCAR-ın bu günlərdə bildirdiyinə görə, zavodun məhsullarının idxalçıları arasında ilk beşliyə Yunanıstan, Liviya, İtaliya, Belçika və Niderland daxildir. Müəssisənin keçən il əldə etdiyi məbləğin 64 faizi daxili bazarın, 36 faizi ixracın payına düşüb. Zavodun Türkiyənin dizel yanacağı, reaktiv yanacaq və mayeləşdirilmiş neft qazı bazarında payı müvafiq olaraq 17,5, 12,6 və 5,1 faiz təşkil edir.

Türkiyənin rəqəmsal neft emalı zavodu olaraq STAR 2020-ci ildə rəqəmsallaşma hesabına 3,4 milyard dollar məbləğində əlavə dəyər yaradıb.

Bir sözlə, "Star"ın uğurları bol, strateji hədəfləri uzunmüddətlidir.

*Flora SADIQLI, "Azərbaycan"*

## "MEDEF International" AZPROMO ilə əməkdaşlığı davam etdirəcək

**Fransanın "MEDEF International" təşkilatının baş icraçı direktoru Filip Qotyenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə İqtisadiyyat Nazirliyində görüş keçirilib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin Fransa ilə iqtisadi, humanitar və mədəniyyət sahələrində əməkdaşlığını qeyd edib, "MEDEF International" təşkilatının iki ölkənin biznes dairələri arasında işgüzar əlaqələrin inkişafında rolunu vurğulayıb. Bildirilib ki, iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən Fransa şirkətləri Azərbaycanda fəaliyyət göstərir, bir sıra infrastruktur layihələrinin reallaşmasında podratçı kimi iştirak edirlər. Fransa nümayəndə heyətinə həmçinin ölkəmizin iqtisadi inkişafının əsas prioritetləri və Azərbaycan İnvestisiya Holdinqinin dövlət şirkətləri ilə bağlı həyata keçirdiyi islahatlar, tətbiq edilən müasir korporativ idarəetmə metodları barədə məlumat verilib.

Fransanın "MEDEF İnternational" təşkilatının baş icraçı direktoru Filip Qotye Azərbaycanda keçirdikləri görüşləri müsbət qiymətləndirib, təmsil etdiyi qurumla əməkdaşlığın postpandemiya dövründə də davam etdirilməsinin önəmini qeyd edib. Filip Qotye Azərbaycanın regionda etibarlı tərəfdaş olduğunu vurğulayıb, "MEDEF International"ın Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO ilə səmərəli əməkdaşlığı davam etdirəcəyini bildirib.

Fransanın Azərbaycandakı səfiri Zakari Qros Fransanın biznes dairələrinin geniştərkibli nümayəndə heyətinin ölkəmizdəki görüşlərinin Azərbaycanın işgüzar dairələri ilə əlaqələrin inkişafı baxımından əhəmiyyətini diqqətə çatdırıb. Azərbaycanın Avropa şirkətləri, eləcə də fransalı iş adamları üçün dayanıqlı və təhlükəsiz biznes mühitinə malik olduğunu vurğulayıb.

Görüşdə Azərbaycan-Fransa iqtisadi-ticarət əlaqələrinin inkişafı, nəqliyyat, enerji, o cümlədən hidrogen istehsalı və s. sahələrdə əməkdaşlığa dair müzakirələr aparılıb.

## Neft ucuzlaşıb



**Dünya birjalarında neftin qiymətləri aşağı düşüb.**

AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,94 dollar ucuzlaşaraq 100,84 dollar, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 2,06 dollar azalaraq 96,20 dollar olub.

## Azərbaycan-İordaniya biznes forumuna hazırlıq məsələləri müzakirə edilib

**Əmmanda aprelin 17-də təşkil olunacaq Azərbaycan-İordaniya biznes forumuna hazırlıq məsələləri müzakirə edilib.**

AZƏRTAC xəbər verir ki, İordaniya Sahibkarlar Assosiasiyasının ofisində aparılan müzakirələr zamanı assosiasiyanın baş direktoru Tariq Hicazi və Azərbaycanın bu ölkədəki səfiri Eldar Səlimov tədbirin iki dost ölkənin iş adamları arasında əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini vurğulayıblar. Görüşdə diqqətə çatdırılıb ki, bu ay Bakıda Əmman və Bakı arasında hava əlaqəsinin başlanması imkanları, həmçinin Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə İordaniya Sahibkarlar Assosiasiyasının əməkdaşlıq perspektivləri müzakirə olunub.

Görüşdə biznes forumu zamanı iqtisadiyyatın müxtəlif sahələri və turizm sektorunda əməkdaşlığa dair yeni investisiya layihələri ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan və Özbəkistan arasında dəmir yolu daşımalarının həcminin artırılması məqsədilə işçi qrup yaradılıb

**Daşkənddə Özbəkistan və Azərbaycan dəmir yolları qurumları rəhbərlərinin görüşü olub.**

Görüşdə "Özbəkistan Dəmir Yolları" SC ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında ikitərəfli əməkdaşlığın inkişafına dair məsələlər müzakirə edilib. Tərəflər "Asiya-Sakit okean ölkələri - Çin - Qırğızıstan - Özbəkistan - Türkmənistan - Azərbaycan - Gürcüstan - Türkiyə - Avropa" beynəlxalq multimodal marşrutunun inkişafı üzrə aparılan səmərəli və faydalı fəaliyyətə diqqət çəkərək, iki ölkənin dəmir yolları qurumları arasında texniki və texnoloji yardım məsələlərini də nəzərdən keçiriblər. Bura infrastrukturun və hərəkət tərkibinin saxlanılması, təmiri üçün texniki və texnoloji yardımın göstərilməsi, Azərbaycan və Özbəkistan ərazisindən həyata keçirilən yükdaşımaların həcminin artırılması daxildir. Görüş iştirakçıları mövcud vəziyyətlə əlaqədar beynəlxalq və multimodal nəqliyyat dəhlizlərinin qarşılıqlı fəaliyyətinin davam etdirilməsinin zəruriliyini vurğulayıblar. Bildirilib ki, tərəflərin əlaqələndirilmiş və qarşılıqlı fəaliyyəti yükdaşımaların canlanması və həcminin artırılmasına, konteyner qatarlarının keçidinin sürətləndirilməsinə və kombinə edilmiş yükdaşımaların təşkilinə imkan yaradır.

Tədbir çərçivəsində daşıma həcminin artırılması, eləcə də ikitərəfli məsələlərin həlli məqsədilə dəmir yolu rəhbərlərinin başçılıq etdiyi işçi qrup yaradılıb. Tərəflər işçi qrupun növbəti iclasının aprelin sonunda Bakıda keçirilməsi barədə razılığa gəliblər.

# Son 4 ildə minimum əməkhaqqı 2,3, pensiyaların minimum məbləği 2,2 dəfə artıb

## Bu dövr müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfədən çox artım baş verib

**Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının nailiyyətlərinə həsr olunmuş "Sosial islahatların uğurları, bu islahatlara beynəlxalq baxış və mükafatlar" mövzusunda mətbuat konfransı keçirilib.**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırıqları əsasında həyata keçirilən köklü sosial islahatlar, imzaladığı fərman və sərəncamlar nəticəsində ötən 4 ildə respublikamızın sosial inkişafı istiqamətində mühüm uğurlar əldə edilib.

Nazir müavini şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsinin dövlət başçısının siyasətinin ana xəttini təşkil etdiyini vurğulayıb. Bildirib ki, 19 aprel 2018-ci il tarixli fərmanla şəhid ailələri daha bir sosial dəstək proqramı ilə əhatə olundu: 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların, daxili işlər orqanları əməkdaşlarının - 12 min şəhidin 18 mindən çox vərəsəsinə 11 min manat birdəfəlik ödəmə verilməsi proqramı uğurla icra edildi.

Dövlət başçısının 2021-ci ilin dekabr ayında imzaladığı fərmanla isə daha bir mühüm sosial proqramın icrasına hazırlıq işləri aparılır: 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralanaraq əlilliyi müəyyən edilmiş şəxslərə, onlardan vəfat edənlərin ailə üzvlərinə də yaxın vaxtlarda birdəfəlik ödəmə verilməsinə başlanacaq. Eyni zamanda Prezident İlham Əliyevin tapşırığı ilə 44 günlük Vətən müharibəsi iştirakçıları da sosial dəstək proqramı ilə əhatə olundu: "Müharibə veteranı" adı verilmiş şəxslərə Prezidentin aylıq təqaüdü təyin olundu.

Qeyd olunub ki, şəhid ailələri və müharibə əlillərinə yönələn sosial ödənişlərin də son 4 ildə ardıcıl şəkildə artırılması təmin edilib. Həmçinin şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. Keçən il onlara 3 min mənzil, ümumilikdə ötən dövrdə 12500-dən çox mənzil və ya fərdi ev verilib. Son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili minik avtomobili ilə təmin edilib.

Prezident İlham Əliyevin tapşırıqları əsasında son 4 ildə minimum əməkhaqqı 2,3, pensiyaların minimum məbləği 2,2 dəfə artırılıb. Son 4 ildə müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfədən çox artım baş verib.

2018-ci ildən sonrakı dövrdə dövlət başçısının imzaladığı fərman və sərəncamlarla ölkə əhalisinin böyük bir hissəsini əhatə edən 3 sosial islahat paket icra olunub.

2018-2021-ci illərdə əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın, illik əməkhaqqı fondunda 2 dəfədən çox artım baş verib.

2021-ci ildə 16 mindən çox şəxs özünüməşğulluq proqramına cəlb olunub ki, bu da proqramın icrasına başlanıldığı 2017-ci illə müqayisədə 13,8 dəfə çoxdur. Ümumilikdə son 4 ildə və cari ilin ilk rübündə 44 mindən çox şəxs özünüməşğulluq proqramına cəlb edilib.

Prezident İlham Əliyevin tapşırıqları əsasında sosial sahədə ölkəmizdə aparılan islahatların uğurları beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir.

Dövlət başçısının 9 avqust 2018-ci il tarixli fərmanı ilə yaradılan və 2019-cu ilin may ayında açılışı olan DOST Agentliyi sosial sahədə vətəndaş məmnunluğuna yönəlik köklü islahatların ən mühüm nailiyyətlərindən biridir.



Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin (156 növdə xidmət) "bir pəncərə"dən, innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

2022-ci ilin fevral ayında Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının fəxri fərmanına layiq görülən DOST Agentliyinin bu günlərdə Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatını qazanması da DOST konsepsiyasının müasir dünyanın innovasiyalar sahəsində mühüm nailiyyətləri sırasında olduğunu göstərir.

Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu isə Böyük Britaniyada keçirilən "Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat" müsabiqəsinin "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" ali mükafatına layiq görülüb. 2019-cu ildə Azərbaycanın dörd sosial layihəsi (özünüməşğulluq proqramı, ünvanlı sosial yardım və əlillik təyinatı üzrə e-sistemlər, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması tədbirləri) Beynəlxalq Sosial Təminat Assosiasiyasının ən yaxşı təcrübələr kimi xüsusi mükafat və təltiflərinə layiq görülüb.

Mətbuat konfransında sosial sahədə rəqəmsal texnologiyaların geniş tətbiqi, proaktiv xidmətlərin yaradılması, reabilitasiya və sosial xidmətlər sahəsində əldə olunan nailiyyətlər barədə də məlumat verilib.

# Mart ayında Azərbaycanın hava limanları 350 minə yaxın sərnişinə xidmət göstərib

Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətindən verilən məlumata görə, 2022-ci ilin mart ayında Azərbaycanın beynəlxalq hava limanlarının xidmətlərindən 350 minə yaxın insan istifadə etmişdir. Bu, bir il əvvəl eyni dövrlə müqayisədə təxminən iki dəfə çoxdur.



Ümumilikdə ilin əvvəlindən bütün aeroportlarda sərnişin axını 886 min nəfər təşkil edib. Sərnişinlərin əksəriyyəti Heydər Əliyev Beynəlxalq Aeroportu vasitəsilə gələn və gedən sərnişinlərdir - onların payı 79 faizdir.

İlin əvvəlindən Bakı Hava Limanının baza aviadaşıyıcıları - AZAL və "Buta Airways" 279 min və 86 min sərnişinə xidmət göstərib ki, bu da müvafiq olaraq xidmət göstərilən sərnişinlərin ümumi payının 40 faizini və 12 faizini təşkil edir.

2022-ci ilin martında 25 xarici aviaşirkət Bakı Hava Limanına müntəzəm uçuşlar həyata keçirib. Mart ayında Bakıdan ən populyar 10 istiqamət sırasına İstanbul, Dubay, Moskva, Tbilisi, Ankara, İzmir, Abu-Dabi, Frankfurt, Küveyt və Doha daxildir.

Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) sərnişin və yük daşımalarının həcmi, uçuş-enmə əməliyyatları, aerovağzal kompleksinin sahəsi və yük kompleksinin tutumu baxımından Azərbaycanın və regionun ən böyük hava limanıdır.

2021-ci ildə Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" Beynəlxalq Hava Nəqliyyatı Reytinq Agentliyi tərəfindən COVID-19 pandemiyası dövründə epidemioloji təhlükəsizlik üzrə ən yüksək "5 ulduzlu" reytinqə layiq görülmüşdür.

Bu, sərnişinlərini və əməkdaşlarını koronavirus infeksiyasının yayılmasından qorumaq üçün Heydər Əliyev Beynəlxalq Aeroportunda tətbiq olunan COVID-19 tədbirlərinin səmərəliliyinin ən yüksək qiymətləndirilməsidir.

# BANM və Cenevrə Biznes Məktəbinin birgə diplomları təqdim edildi

**Bakı Ali Neft Məktəbinin (BANM) kampusunda Ali Məktəbin 2021-ci il magistratura məzunlarına İsveçrənin Cenevrə Biznes Məktəbinin (GBS) MBA üzrə ikili diplomlarının təqdimolunma mərasimi keçirilib.**



Tədbiri giriş sözü ilə açan Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qonaqları salamlayaraq məzunları təbrik edib və onlara müvəffəqiyyətlər arzulayıb. Ali Məktəbdə MBA proqramlarının uğurla həyata keçirildiyini bildirən rektor qeyd edib ki, bu gün diplomlarının təqdimolunma mərasimi keçirilən MBA proqramı dünyanın ən nüfuzlu özəl biznes məktəblərindən biri olan Cenevrə Biznes Məktəbi ilə imzalanmış əməkdaşlıq haqqında razılaşmaya əsasən reallaşıb. O vurğulayıb ki, bu proqram Azərbaycanda ilk dəfə ikili diplomlu Neft və qaz menecmenti üzrə MBA proqramı olub: "BANM-in bütün proqramları kimi ikili diplomun təqdim edilməsini nəzərdə tutan bu proqram beynəlxalq standartlara tam uyğun şəkildə həyata keçirilib və yüksək səviyyədə tədris olunub. Bu proqram üzrə təhsil haqqı hər tələbə üçün 2.350 ABŞ dolları olub, halbuki İsveçrədə Cenevrə Biznes Məktəbinin kampusunda bir tələbənin xərcləri 60 min dollar təşkil edir. Azərbaycan dövlətinin təhsilə qayğısının və SOCAR-ın sosial layihəsi sayəsində isə bu yüksəksəviyyəli təhsil aşağı büdcə ilə həyata keçirildi. Tələbələrə dərin biliklərlə yanaşı, sosial bacarıqlar, liderlik, strateji analiz və qazandıqları biliklərin biznesdə tətbiqi öyrədilib. Proqramın uğurla icra olunmasının və yüksəksəviyyəli biliklərin aşılanmasının nəticəsidir ki, proqramın bütün məzunları nüfuzlu şirkətlərdə, müəssisələrdə çalışırlar".

Tədbirdə çıxış edən SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov məzunlara uğurlar arzulayıb. Proqramın əhəmiyyətini vurğulayan SOCAR-ın vitse-prezidenti burada qazanılan biliklərin bacarığa, səriştəyə çevrilməsinin uğurun açarı olduğunu qeyd edib.

Məzunları təbrik edən SOCAR-ın birinci vitse-prezidenti və SOCAR prezidenti vəzifəsinin müvəqqəti icraçısının müşaviri Elçin Ağakişiyev təhsilin, biliyin əhəmiyyətindən bəhs edərək bildirib ki, bilik uğur qazanmağın əsasıdır. O, məzunlara nailiyyətlər arzulayaraq tövsiyələrini verib.

Bp şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışında təmsil etdiyi şirkətlə Bakı Ali Neft Məktəbi arasında yaxın tərəfdaşlıq münasibətlərinin olduğunu və Ali Məktəbin bir çox məzununun bp şirkətində müxtəlif vəzifələrdə çalışdığını qeyd edib. BANM-də təhsilin keyfiyyətini, tədrisin beynəlxalq standartlara uyğun aparıldığını da vurğulayan Bəxtiyar Aslanbəyli bildirib ki, bu ikili diplom proqramı peşəkar kadrların hazırlanması istiqamətində atılan vacib addımlardan biridir.

Tədbirdə çıxış edən Təhsil İnstitutunun direktoru Rüfət Əzizov Bakı Ali Neft Məktəbində həyata keçirilən MBA proqramının Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı milli prioritetlərə uyğun, çox əhatəli olduğunu və dərslərin maraqlı keçirildiyini bildirib.

Tədbirdə BANM-in müəllimləri - SOCAR-ın Əmək şəraiti normalarının işlənməsi idarəsinin rəis müavini Ziya Mürsəlzadə, "Pasha Property Management" MMC-nin baş icraçı direktoru Fuad Kərimov, proqramın məzunları - Bakı Ali Neft Məktəbinin əməkdaşları Cahan Məmmədova və Gülşən Cabbarzadə təəssüratlarını bölüşüblər.

Qeyd edək ki, Bakı Ali Neft Məktəbinin Cenevrə Biznes Məktəbi ilə Neft-qaz menecmenti üzrə birgə MBA proqramı barədə əməkdaşlıq razılaşması 2019-cu ilin aprel ayında imzalanıb. Həmin il proqram üzrə qəbul həyata keçirilib və 2021-ci ildə proqramı 19 nəfər uğurla bitirərək məzun olub.

1995-ci ildə yaradılan Cenevrə Biznes Məktəbi biznes məktəbləri içərisində qabaqcıl yerlərdədir. Cenevrə Biznes Məktəbi 2016-cı ildə CEOWORLD jurnalının qlobal biznes məktəbləri sıralamasına əsasən dünyanın ilk yüzlüyündə, İsveçrədə 3-cü sırada yer alıb.

# Pandemiya sona yaxınlaşır

## Son mutasiyalarda virusun yoluxuculuğu zəifləyib

**Artıq COVID-19-un ağır fəsadlarına nadir halda rast gəlinir. Üzərindən iki il ötməsinə baxmayaraq, yeni növ koronavirus pandemiyası hələ də dünyanın gündəmindən düşməyib.**

COVID-19 yayıldığı zamandan etibarən ona qarşı müxtəlif mübarizə üsullarından istifadə olundu, ilk başlanğıcında ölkələr sərt qapanmaya getdi, sərhədlərini bağladı. Virusa qarşı peyvəndlər hazırlandıqdan sonra isə əhalinin vaksinasiyası başlandı. Bununla da kütləvi immunitet yaradaraq pandemiyanın sonlandırılması hədəf götürüldü. Bütün bu mübarizə üsulları sayəsində hazırda dünyada bir çox ölkələr COVID-19-a qarşı epidemiyadan qorunma tədbirlərini böyük ölçüdə aradan qaldırıb və normal həyata qayıdıb.

Lakin hazırda yeni növ koronavirus ilk yayıldığı ünvanda, yəni Çində yenidən alovlanıb. Çinin Səhiyyə Komissarlığının ötən günə olan məlumatına əsasən, ölkədə son sutkada 27 mindən çox yeni yoluxma aşkar edilib ki, bu da pandemiya dövründə ən yüksək göstəricidir. Bildirilib ki, sutkalıq yoluxma göstəricisi ötən həftə ilə müqayisədə 2 dəfə çoxdur. Yoluxanların böyük əksəriyyəti simptomsuz xəstələrdir və yeni yoluxanlar arasında xaricdən gələnlər azlıq təşkil edir. Artıq Çinin ən böyük şəhəri olan Şanxayda koronavirusa yoluxmanın artması səbəbindən milyonlarla insana tətbiq olunan qapanma tədbirləri qeyri-müəyyən müddətə qədər uzadılıb. Qeyd edək ki, Çində "Omikron" ştamının yeni alt növləri olan BA.1, BA.2 və BA.1.1 növləri daha çox yayılıb.

Ümumiyyətlə isə, COVID-19 virusu getdikcə mutasiyaya uğrayır. İndiyə qədər onun "Alfa", "Beta", "Delta", "Omikron" və sair ştamları yayılıb. Ümumdünya Səhiyyə Təşkilatının ötən həftə yaydığı məlumatda bildirilib ki, Böyük Britaniya ərazisində ilk dəfə COVID-in daha bir yeni ştamı aşkarlanıb. XE adlandırılan ştam "Omikron"dan daha çox yoluxdurucudur. ÜST onu da bildirib ki, yeni ştama yoluxma hələ çox deyil, Britaniyada XE ştamı 650 nəfərdə tapılıb. Hibrid XE ştamı BA.1 və BA.2 variantlarının birləşməsindən yaranıb və hələ ki onun dövrü izlənilir, təsirləri araşdırılır.

### Ölkəmizdə yoluxma ikirəqəmli həddə düşüb

Azərbaycanda virusun yayıldığı gündən ona qarşı aparılan hərtərəfli effektiv mübarizə metodları və uğurlu vaksinasiya prosesi sayəsində epidemioloji vəziyyət hər ötən gün yaxşılaşmaya doğru gedir. Sevindiricidir ki, son zamanlar yoluxmalar ikirəqəmli həddə düşüb, ölüm sayı xeyli azalıb. Hətta son zamanlar virusdan ölüm halı qeydə alınmayan günlər də olur.

Azərbaycanda bu günə qədər yeni növ koronavirusa qarşı vətəndaşlara 13 milyondan çox vaksin vurulub. Birinci mərhələ üzrə vurulan peyvəndlərin ümumi sayı 5, ikinci mərhələ üzrə 4, üç və daha çox doza vaksinlərin isə sayı 3 milyondan çoxdur. Pozitiv nəticədən sonra vurulan "buster" doza vaksinlərinin sayı isə 233 mini keçib.

Ötən şənbə səhiyyə naziri Teymur Musayev jurnalistlərə açıqlaması zamanı ölkədə COVID-19-a gündəlik yoluxma sayının kifayət qədər azaldığını, simptomlu xəstələrin sayının nəzərəçarpacaq dərəcədə aşağı düşdüyünü söyləyib.

### Modul tipli xəstəxanalar fəaliyyətlərini dayandırıblar

Səhiyyə naziri bildirib ki, xəstəxanaya yerləşdirilən pasiyentlərin sayı tək-tük olur. Ona görə də əksər xəstəxanalar, demək olar ki, boşdur: "Modul tipli xəstəxanaların gələcək fəaliyyətinə gəlincə, həmin səhiyyə ocaqları bağlanmayıb, sadəcə, fəaliyyətlərini dayandırıblar. Xatırladım ki, analoji hal pandemiyanın müxtəlif dalğaları zamanı da baş verib. Həmin xəstəxanalar ehtiyat fondu kimi qalacaqdır".

Səhiyyə naziri koronavirusun Çində aşkarlanan yeni variantı barədə söyləyib ki, onun yoluxuculuğu "Omikron"dan daha yüksək ola bilər, amma törətdiyi xəstəlik daha zəifdir: "Yeni ştamlar peyda olur. Buna görə biz hər dəfə açıqlama verəndə vətəndaşlarımızı ehtiyatlı olmağa çağırırdıq. Çünki virusun özünü necə aparacağını heç kəs öncədən görə bilməz. "Omikron"dan sonra başlayan son bir neçə mutasiyada virusun yoluxuculuğu zəifləyib, törətdiyi xəstəliyin ağır gedişatı, demək olar ki, çox nadir hallarda baş verib".

T.Musayev deyir ki, pandemiya sona doğru inkişaf edir: "Çində bir çox ölkələrdən fərqli olaraq "sıfır COVID" rejimi ana xətt kimi qəbul olunub. Yəni istənilən kiçik saylarla belə qeydə alınan yoluxmalar icma və şəhərlərdə tam qapanmaya gətirir. Yeni ştamın da həmin şəraitdə peyda olması ümumilikdə tibb icmasını kifayət qədər gərginləşdirmişdi. Lakin şükürlər olsun, yeni ştam həddən artıq zəifdir".

Amma pandemiya ilə bağlı izlənən bu müsbət tendensiya arxayınlaşmağa əsas verməməlidir. Unutmamalıyıq ki, hazırkı pozitiv nəticə də elə epidemioloji qaydalara olan vətəndaş həssaslığı və vaksinasiya sayəsində mümkün olub. Odur ki, eyni məsuliyyəti hazırkı dövrdə də nümayiş etdirmək və tələb olunan qaydalara riayət etmək vacibdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Fransa prezidenti ikinci turda seçiləcək

## Aprelin 24-də Emmanuel Makron və Marin Le Pen mübarizə aparacaqlar

Fransanın hazırkı lideri Emmanuel Makron aprelin 10-da ölkədə keçirilmiş prezident seçkilərinin birinci turuna liderlik edir. O, 27,8 faiz səs qazanıb. İkinci tur iki həftə sonra - aprelin 24-də keçiriləcək.




Tərəfdarlarına müraciət edən Makron onları seçki kampaniyasında fəal iştirak etməyə çağırıb: "Növbəti iki həftə ərzində səylərimizi əsirgəməyəcəyik, çünki heç bir şey həll edilməyib. Təvazökar, qətiyyətli olacağıq və gəlin hər kəsi əmin edək ki, aprelin 24-də biz yeni fransız və Avropa erasını seçə bilərik. Birlikdə Fransa və Avropanı seçə bilərik".

İkinci tura ölkənin müstəqillik ideyasını müdafiə edən ifratsağçı "Milli Birlik" Partiyasının namizədi Marin Le Pen də (23,1 faiz) keçib. Ölkə əhalisinə müxtəlif vədlər verən Le Pen bəyan edib ki, prezident seçiləcəyi təqdirdə Fransanı dinc ölkə etmək üçün milli müstəqilliyi təmin edəcək: "Mən Fransaya bütün sahələrdə suverenliyi qaytaracağam ki, xalq qərarların qəbul edilməsində və öz maraqlarının qorunmasında azad olsun. Mən immiqrasiyanı nəzarətə alacağam və ümumi təhlükəsizliyi bərpa edəcəyəm".

"Yenilməz Fransa" Partiyasının lideri Jan Lük Melanşon prezidentlik uğrunda mübarizədə 22 faiz səslə üçüncü yerdə qərarlaşıb. O, Parisdəki çıxışında tərəfdarlarını ikinci turda Le Penə səs verməməyə çağırıb. Eyni zamanda Melanşon Makrona açıq dəstək verməyib: "Fransız xalqını kim hesab edirlər? İnsanlar özləri nə edəcəklərini və ölkə üçün nəyin yaxşı olacağına qərar verə bilirlər. Biz demokratiyaya inamımızı heç vaxt itirməyəcəyik, ona görə də Le Penə bir səs belə verilməməlidir".

Namizədlərin əksəriyyəti belə çağırışlarla tərəfdarlarına müraciət ediblər. Parisin meri Ann İdalqo (1,7 faiz), kommunist Fabyen Russell (2,3 faiz) və "Yaşıllar"ın namizədi Yannik Jado (4,6 faiz ) da seçicilərini Makrona səs verməyə çağırıblar.

Çox səs-küylü olan sağçı namizəd, immiqrasiya və İslam əleyhdarı, ermənipərəst Erik Zemmur cəmi 7,1 faiz səs qazanıb. O, öz seçicilərini ikinci turda Le Penə səs verməyə çağırıb.

Qeyd olunur ki, əvvəllər Fransada əsas siyasi mübarizə hakimiyyətdə bir-birini əvəz edən sosialistlərlə respublikaçılar arasında aparılırdı. Seçkilərin nəticələrinə görə, indi bu partiyalar səhnədən gedib və yerlərini yeni siyasi qüvvələrə verib.

Fransadakı seçkiləri Brüsseldən də diqqətlə izləyirlər. Orada Avropa İttifaqının gələcəyinin seçkilərin nəticələrindən asılı olduğunu bilirlər. Belçikalı tarixçi, Robert Şuman Fondunun əməkdaşı "Euronews" telekanalına müsahibəsində bildirib ki, seçkilərin ikinci turunda ittifaq təşkilatları hazırkı prezidentə "azarkeşlik" edəcəklər: "Avropa İttifaqı, Avropa tərəfdaşları və Avropa təsisatları üçün aprelin 24-də Emmanuel Makronun və Avropayönümlü kursunun varisliyinin xeyrinə seçim etmək üstünlük təşkil edəcək. Digər tərəfdən, Marin Le Pen artıq Fransanı avrozonadan çıxarmağı təklif etmir. Buna baxmayaraq, onun proqramında Fransanın Aİ çərçivəsində öhdəliyini və Avropa layihəsinə sadiqliyini şübhə altına alan bəzi elementlər var. Ona görə də Marin Le Penin seçilməsi Fransanın Avropa tərəfdaşları üçün böyük siyasi problem yaradardı".

Fransada 2022-ci il prezident seçkilərinin qalibi aprelin 24-də məlum olacaq.

Xatırladaq ki, 2017-ci ildə keçirilmiş prezident seçkilərində Makron 24,01 faiz səslə və Le Pen 21,3 səslə ikinci tura çıxıblar. İkinci turda Fransanın hazırkı Prezidenti daha inamlı qələbə qazanıb - seçicilərin 66,1 faizi Makrona səs verib, Le Peni isə yalnız 33,9 faiz seçici dəstəkləyib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan iqtisadiyyatı sürətlə çökür

## İşsizliyin tüğyan etməsi iş adamlarını da bu ölkədən qaçmağa məcbur edir

Hazırda Ermənistanda investisiya mühitinin bərbad durumda olması da xarici ölkələrdən sərmayələrin həcmini sürətlə azaldır. Hətta erməni iş adamları öz ölkələrinə sərmayə yatırmaqdan boyun qaçırmağa başlayıblar.

Ermənistan rəsmilərinin korrupsiyaya qurşanmaları, ölkə iqtisadiyyatında yaranmış böhranlı vəziyyət, əhalinin əksəriyyətinin yoxsulluğun son həddində yaşaması, işsizliyin tüğyan etməsi iş adamlarını bu ölkədən qaçırır.

Digər tərəfdən, ailəsini dolandırmaq xatirinə ölkəni tərk edənlərin sayının artması, iş adamlarına açıq-aşkar təzyiqlər göstərilməsi və onlardan haqq tələb olunması, istər xarici, istərsə də yerli investorların Ermənistana sərmayə yatırmaqdan boyun qaçırmaları investisiya qoyuluşunun kəskin şəkildə azalmasına təsir edən başlıca amillər sırasında yer almaqdadır. Xarici investorlar iqtisadi inkişafı sual altında olan və məmurların öz səlahiyyətlərini aşaraq özbaşınalıq etdikləri bir ölkənin iqtisadiyyatına sərmayə yatırılmasının nə dərəcədə böyük risk olduğunu yaxşı bilirlər.

Xarici və yerli sərmayədarların inamsızlığı nəticəsində investisiya qoyuluşunun kəskin azalması iqtisadiyyatı getdikcə tənəzzülə uğramaqda olan Ermənistanı daha ağır vəziyyətə salıb. Bu fonda Rusiya ilə ticarətin həcminin azalması isə erməni ekspertlər tərəfindən böyük fəlakət kimi qiymətləndirilir.

Bu yaxınlarda Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan 2021-ci ildə investisiyalarda rekord artımın qeydə alındığını, ümumi həcminin 1 trilyon 379 milyard dram, bunun da təxminən 3 milyard dollar təşkil etdiyini, tarixdə Ermənistanda belə bir rəqəmin olmadığını açıqlayıb. Rəsmi statistikaya əsasən, 2021-ci ildə Ermənistanın ümumi daxili məhsulun (ÜDM) ümumi yığılması 1 trilyon 370 milyard dram, yəni təxminən 2,8 milyard dollar qiymətləndirilir.

"4rd.am" saytı yazır ki, mütləq ümumi yığım əmsalı Ermənistan tarixində ən yüksək göstəricidir, lakin onların real dəyəri nisbətən aşağıdır, çünki son illərin məcmu inflyasiyasını nəzərə alsaq, eyni yığım sürəti təxminən 10 faiz azalacaq: "Ona görə də 2021-ci ildə qoyulan investisiyaların bir hissəsi inflyasiyanı yeyib. Məsələn, tikinti materiallarının ikirəqəmli bahalaşması şəraitində insan tikintiyə daha çox pul xərcləyib, amma eyni evi tikib. İnvestisiyaların ümumi yığımına bir il ərzində dövlət, icmalar, təşkilatlar, fiziki şəxslər tərəfindən əsas kapitala edilən xərclər daxildir. Məsələn, bu göstəricinin hesablanmasına dövlət tərəfindən çəkilən yolların xərcləri, dövlət tərəfindən tikilən mənzilin dəyəri və s. daxildir. Ermənistan Statistika Komitəsi faktiki uçota alınmış xərclərlə yanaşı, mütəmadi olaraq ümumi yığımları qiymətləndirir, yəni müəyyən metodologiyaya uyğun olaraq artırır. Bu hesablamalar heç vaxt statistika komitəsi tərəfindən açıqlanmır, bunlar ümumi yığımların strukturunu başa düşməyə imkan verə bilər".

Ermənistanda 2019-2020-ci illərdə tənəzzül şəraitində 2021-ci ildə ümumi yığım 9,1 faiz artıb. 2017-2018-ci illərdə ümumi yığım 2021-ci illə müqayisədə müvafiq olaraq 10,3 və 14,5 faiz çoxalıb. İnvestisiyaların misli görünməmiş artımının olmaması Ermənistanın ÜDM-də ümumi yığımın payının 19,6 faiz təşkil etməsi ilə də sübut olunur ki, bu da son 5 ilin analoji göstəricisindən aşağıdır.

Ermənistanda özəl investisiyaların tərkibi və strukturu da çox pis vəziyyətdədir. Xüsusilə 2021-ci ildə yatırılan xarici investisiyaların böyük hissəsi metal filizinin hasilatına və enerji sisteminin payına düşür. Maraqlıdır ki, birbaşa xarici investisiyaların təqribən 70 faizi hazırda iqtisadiyyatı ciddi problemlərlə üzləşən Rusiya Federasiyasından gəlib. Odur ki, 2022-ci ildə Rusiya şirkətlərinin Ermənistan iqtisadiyyatına aktiv şəkildə sərmayə qoymağa davam edəcəyi ehtimalı çox azdır.

Bütün bunların nəticəsində Ermənistan iqtisadiyyatı sürətlə çökür. Maraqlıdır ki, Ermənistanın digər sənaye müəssisələri ilə müqayisədə daha yüksək ixrac qabiliyyəti olan dağ-mədən və metallurgiya sənayesində də problemlər mövcuddur. Dünya əlvan metal və metal bazarında qiymətlərin enməsi Ermənistanın qızıl və mis ixracından əldə etdiyi gömrük gəlirlərinin xeyli azalmasına səbəb olub. Bu sahədə fəaliyyət göstərən şirkətlərin çoxu bağlanıb.

Bu durumda ölkə daha çox xarici dövlətlərdən asılı vəziyyətə düşür. Belə vəziyyət isə bir dövlət kimi Ermənistanın məhvi deməkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)

*2022/2023-cü tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla*
**təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir**

- 050406 Maliyyə
- 050409 Mühasibat
- 050405 İqtisadiyyat
- 050401 Beynəlxalq ticarət və logistika
- 050410 Statistika
- 050408 Menecment
- 050404 Dövlət və bələdiyyə idarəetməsi
- 050402 Biznesin idarə edilməsi
- 050407 Marketinq
- 050807 Sosial iş
- 050504 Ekologiya
- 050616 İnformasiya texnologiyaları
- 050615 İnformasiya təhlükəsizliyi
- 050509 Kompüter elmləri
- 050638 Sənaye mühəndisliyi
- 050606 Ekologiya mühəndisliyi
- 050635 Qida mühəndisliyi
- 050622 Maşın mühəndisliyi
- 050623 Materiallar mühəndisliyi
- 050619 Kommunikasiya sistemləri mühəndisliyi
- 050607 Elektrik və elektronika mühəndisliyi
- 050306 Dizayn (sahələr üzrə)

**UNEC-in Zaqatala filialı üzrə**

- 050406 Maliyyə
- 050405 İqtisadiyyat
- 050409 Mühasibat
- 050408 Menecment
- 050616 İnformasiya texnologiyaları
- 050402 Biznesin idarə edilməsi
- 050407 Marketinq
- 050810 Turizm işinin təşkili

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada **http://www.kabinet.unec.edu.az** internet linki vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar.

Sənədlərin qəbulu 2022-ci il aprel ayının 12-dən iyul ayının 1-dək aparılacaq.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***
- Rektorun adına ərizə;
- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- Şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Akademik Həsən Əliyev küçəsi, 135, otaq 518**
**Tel.: (012) 564 38 92**
**Mobil: (070) 578 08 59 (həmçinin WhatsApp ünvan)**
**Facebook ünvanı: https://www.facebook.com/unectekraralitehsil/**

## "Yaşıl Marafon-2022" ağacəkmə kampaniyası çərçivəsində növbəti aksiya keçirilib

**"Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində ölkə üzrə növbəti ağacəkmə aksiyası bu gün Müşfiqabad qəsəbəsində keçirilib.**

**IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən genişmiqyaslı ağacəkmə aksiyasına Azərbaycan Mərkəzi Bankının təşəbbüsü ilə ölkədə fəaliyyət göstərən maliyyə qurumları - Azərbaycan Banklar, Azərbaycan Sığortaçılar, Azərbaycan Mikromaliyyə, Azərbaycan Fintex, Azərbaycan Fond Bazarı İştirakçılarının assosiasiyalarının rəhbərliyi və kollektivi qoşulub.**

**AZƏRTAC xəbər verir ki, aksiya zamanı 8 hektar ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 6000-ə yaxın Eldar şamı və zeytun ağacı əkilib.**

**Qeyd edək ki, bugünkü ağacəkmə aksiyası ETSN ilə adıçəkilən assosiasiyalar arasında ölkədə yüksəkkeyfiyyətli ekoloji mühitin yaradılması istiqamətində həyata keçirilən tədbirlərə dəstək göstərilməsi sahəsində əməkdaşlığa dair imzalanmış anlaşma memorandumu çərçivəsində həyata keçirilib.**



## "Azercell"dən özəl Ramazan kampaniyasında 2GB hədiyyə!

**Ölkənin lider mobil operatoru "Azercell Telekom"un müqəddəs Ramazan ayı münasibətilə öz abunəçilərinə xüsusi hədiyyəsi var. Bu bayram ayında hər kəsə xoş ovqat bəxş etmək məqsədilə "Azercell" özəl Ramazan kampaniyası iştirakçılarına 2GB həcmində internet paketlərini hədiyyə edir.**




Kampaniyanın şərtlərinə əsasən, 9 aprel - 2 may 2022-ci il tarixlərdə "Azercell" fakturasız xətt (SimSim) sistemindən istifadə edən abunəçilərə Ramazan ayının ruhuna uyğun olaraq imsak vaxtında istifadə üçün 2GB internet paketi təqdim olunur. Hədiyyə paketini əldə etmək üçün fakturasız xətt abunəçiləri aylıq internet paketlərindən birinə (500MB, 1GB, 5GB, 10GB, 30GB, 50GB), yaxud "Sərbəst" tariflərindən birinə və ya GəncOL 6/9 tariflərindən birinə qoşulmalıdır. Təqdim olunan paketdən mayın 2-nə qədər 02:00 -06:00 saatları arasında istifadə etmək mümkündür.

Kampaniya haqqında daha ətraflı məlumatı "Azercell Telekom" MMC-nin rəsmi veb-səhifəsindən əldə etmək mümkündür: https://bit.ly/ramazan-campaign-az

Hər zaman abunəçilərinə xüsusi bayram hədiyyələri təqdim edən "Azercell" şirkəti Ramazan ayı münasibətilə hər kəsi təbrik edir.

İSB
İCBARİ SIĞORTA BÜROSU
Compulsory Insurance Bureau

## Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə ELAN

Yaşıl Kart sığorta növü üzrə İcbari Sığorta Bürosunun iştirakçı sığorta şirkətləri bunlardır: "AtaSığorta" ASC, "Atəşgah" Sığorta Şirkəti ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "AzSığorta" ASC, "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti", "A-Qroup Sığorta Şirkəti" ASC, "Bakı Sığorta" ASC, "Günay Sığorta" ASC, "İpək Yolu Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Naxçıvan sığorta" ASC "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

***İcbari Sığorta Bürosu***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı üçün elektrik mallarının və avadanlıqlarının satın alınması ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 18 mart 2022-ci il tarixli qərarına əsasən, "BLG" MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## "EKSPRESS-C" ASC-nin səhmdarlarının nəzərinə

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-1.3-cü maddəsinə əsasən, "EKSPRESS-C" ASC-nin (bundan sonra Cəmiyyət adlandırılacaq) növbəti ümumi yığıncağının keçirilməsi və aşağıda qeyd edilən gündəliklərin müzakirəsi nəzərdə tutulmuşdur:

1. Cəmiyyətin 2021-ci ilin maliyyə ilinin yekununa görə hesabatlarını təsdiq edilməsi, mənfəət və zərərin bölüşdürülməsi;
2. Cəmiyyətdə korporativ idarəetmə strukturunun müzakirə olunması və təkmilləşdirilməsi, müvafiq təyinatların edilməsi;
3. Cəmiyyətin adının, hüquqi ünvanının və strukturunun dəyişdirilməsi ilə bağlı yeni (ikinci) redaksiyada nizamnaməsinin təsdiq edilməsi;
4. İstiqraz buraxılışı haqqında qərara, baza emissiya prospektinə və yekun buraxılış şərtlərinə dəyişikliyin edilməsi.

Səhmdarların növbəti ümumi yığıncağı 30 may 2022-ci il tarixdə Bakı şəhəri, Nəsimi rayonu, Tbilisi prospekti, 3007-ci məhəllə, 44C ünvanında saat 16:00-da keçiriləcəkdir.
Ümumi yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq istəyən səhmdarlar iclasın keçirilməsinə 3 (üç) gün qalmış Cəmiyyətin icra orqanına müraciət edə bilərlər.
Səhmdarların növbəti ümumi yığıncağında şəxsiyyəti təsdiq edən sənədlə (və ya nümayəndənin səlahiyyətini təsdiq edən sənədlə) birlikdə iştirak edilməsi xahiş olunur.

***"EKSPRESS-C" ASC***

## "Azərişıq" ASC Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və İdarəetmə Mərkəzinin tikintisi, avadanlıqların quraşdırılması və 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**LOT-1** Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və İdarəetmə Mərkəzinin tikintisi, avadanlıqların quraşdırılması və 35 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması

**İştirak haqqı - 750 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
Əlaqələndirici şəxs - Namik Heybətov (telefon: 440-39-93 daxili (92-19))
namiq.heybetov@azerishiq.az

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya;*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış.*

Tələb olunan sənədlərin əsli və ya əsli olmadıqda notarial təsdiq olunmuş formada təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 may 2022-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **31 may 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **1 iyun 2022-ci il saat 15:00-da** Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Anar İsgəndərova qardaşı

**ƏSƏD İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Anar İsgəndərova qardaşı

**ƏSƏD İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, "Şöhrət" və "Şərəf" ordenləri laureatı

**TEYMUR ƏMİRASLAN OĞLU BÜNYADOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Prezident Administrasiyasının İşlər İdarəsinin nəqliyyat şöbəsinin müdiri İsmayıl Ələkbərova qardaşı

**OTELLO ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Anar İsgəndərova qardaşı

**ƏSƏD İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli və institutun kollektivi "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Maral Yaqubovaya atası

**RAFİQ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi AMEA-nın həqiqi üzvü

**TEYMUR BÜNYADOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi komissiyanın Tarix və antropologiya üzrə ekspert şurasının sədri Anar İsgəndərova qardaşı

**ƏSƏD İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi QMİ Elmi-Dini Şurasının üzvü, akademik

**TEYMUR BÜNYADOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə Milli Məclisin deputatı, professor Anar İsgəndərova qardaşı

**ƏSƏD İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Mətləb İmanova atası

**MÖYSÜM İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universiteti Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının əməkdaşları, doktorant və magistrantları Milli Məclisin deputatı, professor Anar İsgəndərova qardaşı

**ƏSƏD CAMAL OĞLU İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universiteti tərəfindən 30 iyun 2007-ci il tarixdə Lətifə Abuzər qızı Əliyevanın adına verilmiş (BN№ 099262, qeydiyyat nömrəsi 58) diplom itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5714
Sifariş 983
Qiyməti 40 qəpik